WWW.UNEC.EDU.AZ

# UNEC EKSPERT

STRATEJİ YOL XƏRİTƏLƏRİ: XÜSUSİ BURAXILIŞ 01 [03] MAY 2017



## 25 EKSPERT TƏRƏFİNDƏN YENİ İQTİSADİ MODELİN TƏHLİLİ

# SOSİAL İQTİSADİ

İqtisadi modelin 14 yeni cəhəti

## UĞUR YOLU

**BÜDCƏ**

NEFT GƏLİRLƏRİNİN QIZIL QAYDASI

**SOSİAL SİYASƏT**

SOSİAL EVLƏR KİMƏ VERİLƏCƏK

İPOTEKA: YENİ SİYASƏT

**KƏND TƏSƏRRÜFATI**

AQROBİZNESƏ DOĞRU

AĞ QIZIL BAZARI

**TURİZM**

TURİZM XİDMƏTLƏRİNİN DİVERSİFİKASİYASI

AZƏRBAYCANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİ REALLAŞDIRILAN İQTİSADİ SİYASƏT KONTEKSTİNDƏ

İQTİSADİYYATDA DÖVLƏTİN DƏYİŞƏN ROLU

# NİYƏ UNEC?

**İNKİŞAF ETMƏKDƏ OLAN AVROPA VƏ MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ İQTİSADYÖNÜMLÜ 4-CÜ UNİVERSİTET OLMAQLA, REGİONUN ƏN YAXŞI 200 UNİVERSİTETİNDƏN BİRİ**

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;

Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;

İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə Azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;

Auditoriyada mərkəz nöqtəsi tələbədir;

Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;

Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;

Universitetdə 8 fakültə və 37 kafedra fəaliyyət göstərir;

461 professor və fəlsəfə doktoru çalışır.

## NİYƏ TÜRK DÜNYASI İŞLƏTMƏ FAKÜLTƏSI (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;

İxtisaslar: İşlətmə, Beynəlxalq münasibətlər,Turizm və Otelçlik;

Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;

Fakültə Dekanı Türkiyə Universitetlərinin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti, təhsillərini Türkiyədə almış azərbaycanlı və türkiyəli müəllimlər təşkil etməkdədir;

Türk Dünyası İşlətmə Fakültəsinin diplomunun Türkiyə (YÖK) "denkliyi" ekvalentliyi vardır.



**UNEC BUSINESS SCHOOL**

## NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya İqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin İdarə Edilməsi, İqtisadiyyat;

Fakültənin keçid balı – 601;

Fransa, Almaniya, Niderland, Turkiyə, Koreya, Litva universitetləri mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

HarmonİSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.




## NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

İxtisaslar: Beynəlxalq biznes, Biznesin idarə edilməsi, İnsan resurslarının idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat uçotu, Qiymətli kağızlar.







24 **AZƏRBAYCAN BRENDİ** ilə xarici bazarlara çıxarılacaq qeyri-neft sektoru məhsullarının artırılması imkanları

**SƏNAYEMİZ** məşhur brendləri necə cəlb edə bilər?





26 **AĞIR SƏNAYENİN** regional bazarda payının artırılması potensialı





**KİMYA SƏNAYESİNİN** qlobal dəyər zəncirinə inteqrasiya istiqamətləri

13 KOS klasterlərinə və beynəlxalq dəyər zəncirlərinə nəzəri baxış

16 İnvestisiya mühitinin inkişaf etdirilməsi istiqamətləri

18 Xarici ticarət və investisiyaların təşviqi

20 Azərbaycan iqtisadiyyatının innovasiya inkişafının xüsusiyyətləri

44 Azərbaycan maliyyə sektorunun riskləri: yeni çağırışlar və imkanlar

46 Milli valyutalarla ticarətin perspektivləri

48 Perspektiv. Bakı regional maliyyə mərkəzi kimi.

64 **TRANZİT YÜKLƏR** üzərində əlavə dəyərin yaradılması. Dubay təcrübəsi


# MÜN




34

KƏND TƏSƏRRÜFATININ

logistik təminatı

STRATEJİ YOL XƏRİTƏLƏRİ





İNVESTİSİYA

mühitinin inkişaf etdirilməsi istiqamətləri

54 Sosial evlərin daşınmaz əmlak bazarına təsiri necə olacaq?

56 "Milli Turizm Təbliğat Bürosu nə etməlidir? Dünya təcrübəsi"

58 Turizmin Azərbaycan iqtisadiyyatına multiplikativ təsiri


# ƏRİCAT


36

Startapların təsərrüfat subyektinə çevrilməsi



# UNEC EKSPERT

## redaksiya HEYƏTİ

**BAŞ REDAKTOR**
prof. Ədalət Muradov
MƏSUL KATİB
dos. Anar Rzayev
TƏRTİBATÇI
Zaur Əzizov
KORREKTOR
Sadiq Qarayev

REDAKSİYANIN ÜNVANI
AZ 1000, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.
Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az
MƏTBƏƏ: ŞƏRQ-QƏRB
TİRAJ: 1000
JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR.
ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ #4026

#01 (03) 2017

# Sosial

## "DAHA ÇOX XARİCİ TİCARƏT, DAHA ÇOX İQTİSADİ ARTIM"



# NEFT İQTİSADİ ARTIM AMİLİ FUNKSİYASINI İTİRMİŞDİR

MONETAR VƏ FİSKAL ÇƏRÇİVƏLƏRİN QARŞILIQLI ƏLAQƏSİNİN TƏMİN EDİLMƏSİ

ÖZƏLLƏŞDİRMƏ VƏ DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ İSLAHATLARIN APARILMASI



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial- iqtisadi siyasəti XXI əsrin əvvəllərindən başlayaraq, ölkəmizin sosial-iqtisadi uğurlara imza atmasını təmin etmişdir.

Lakin dünya iqtisadiyyatını ciddi çağırışlarla üz-üzə qoyan qlobal maliyyə-iqtisadi böhran və dünya bazarında neftin qiymətinin kəskin azalması gələcəyə yeni baxışı labüd etmişdir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən ötən ilin dekabrında qəbul edilmiş strateji yol xəritəsi belə baxışı ortaya qoymaqla gələcəyin uğur yolunu müəyyən etdi.

İlk növbədə ölkə iqtisadiyyatının mövcud durumunun obyektiv və dərindən təhlili həyata keçirilməsi zəruri olan tədbirlərin təsirli və səmərəli olacağından xəbər verir.

İkincisi, strateji yol xəritəsinin qəbul olunduğu dövr və xarici mühit bu sənədin özünəməxsusluğunu təmin etmişdir. Belə ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə potensial iqtisadi artım azalmaqla faktiki iqtisadi artım potensial dinamikasından aşağı olmuşdur. Dövriyyəyə külli miqdarda pul buraxılmasına baxmayaraq, inflyasiya çox aşağı səviyyədə olmuş, pul təklifi və qiymətlər arasındakı ənənəvi səbəb-nəticə əlaqəsi özünü doğrultmamışdır.

DÜNYA İQTİSADİYYATINI CİDDİ ÇAĞIRIŞLARLA ÜZ-ÜZƏ QOYAN QLOBAL MALİYYƏ-İQTİSADİ BÖHRAN VƏ DÜNYA BAZARINDA NEFTİN QİYMƏTİNİN KƏSKİN AZALMASI GƏLƏCƏYƏ YENİ BAXIŞI LABÜD ETMİŞDİR.

Neft iqtisadi artım amili funksiyasını itirmişdir. Neftin qiymətinin kəskin azalmasına baxmayaraq, neft istehlak edən ölkələrdə yığım və qlobal istehlak artmamışdır. Yığımın artmaması isvestisiyaları və istehlakın artmaması ixracı artırmadığından iqtisadi artım stimullaşdırılmadı. Başqa sözlə, neft istehlak edən ölkələr neftin qiymətinin azalması hesabına enerji resurslarının alınmasına çəkilən xərclərin azalması və yaxud dolayı yolla gəlirlərin artmasını iqtisadi artıma transformasiya edə bilmədilər.

Qlobal iqtisadiyyatda baş verən bu problemlərdən qaynaqlanan və neft çıxaran ölkələrin, o cümlədən Azərbaycanın da üzləşdiyi çağırış neft gəlirlərinin azalması nəticəsində investisiyaların azalması hesabına iqtisadi artımın azalmasıdır.

# Azərbaycanın iqtisadi uğur yolu




İNSAN KAPİTALININ İNKİŞAFININ DAHA DA SÜRƏTLƏNDİRİLMƏSİ
BİZNES MÜHİTİNİN DAHA DA YAXŞILAŞDIRILMASI

TƏMƏL YANAŞMA

MÜHÜM

## STRATEJİ YOL XƏRİTƏSİNİN ÖZƏLLİKLƏRİ

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TƏSDİQ ETDİYİ STRATEJİ YOL XƏRİTƏSİ MƏHZ BAZAR İQTİSADİYYATI VƏ İQTİSADİ DEMOKRATİYA PRİNSİPLƏRİNƏ ƏSASLANIR

- Genişmiqyaslı institusional islahatların islahat gündəliyinə daxil edilməsi
- İnsan kapitalının inkişaf etdirilməsinin vacibliyinin xüsusi vurğulanması
- Qeyri-neft ixracının əhəmiyyətli dərəcədə artırılması
- Xidmətlər ixracının xüsusilə önə çəkilməsi



**UNEC REKTORU, i.e.d., prof. Ə.C. Muradov**

Bütün bunlara baxmayaraq, Prezident İlham Əliyevin təsdiq etdiyi strateji yol xəritəsi gələcək uğurları təmin edəcək kompleks tədbirlər olmaqla özəllikləri ilə diqqəti cəlb edir. Belə ki, növbədə, strateji çağırışlara adekvat reaksiyalar üçün genişmiqyaslı institusional islahatlar islahat gündəliyinə daxil edilir. Effektiv və inklüziv institutlar biznes-investisiya mühiti daha da yaxşılaşdırmaqla ucuz neft qiymətləri dövrünün neqativ təsirlərini minimuma endirilməsində həlledici rol oynayacaqdır.

İkincisi, insan kapitalının inkişaf etdirilməsinin vacibliyi xüsusilə vurğulanır və daha çox yeni dəyər yaradılması baxımından ən ciddi amil kimi qeyd edilir.

Uğuru təmin edəcək üçüncü ən vacib amil, qeyri-neft ixracının əhəmiyyətli dərəcədə artırılması, "daha çox xarici ticarət, daha çox iqtisadi artım" yanaşmasıdır. Qeyri-neft ixracı kontekstində xidmətlər ixracının xüsusilə önə çəkilməsi yeniliklə yanaşı, həm də iqtisadi artımı stimullaşdıra biləcək bir yanaşmadır. Xidmətlər ixracının üstünlüyü ondandır ki, bir sıra hallarda istehlakçı xidmət istehlak etmək üçün istehsalçının ölkəsinə gedir və yaxud bir sıra xidmətlər milli ölkə hüdudlarında istehsal olunsa da müasir texnologiyalar vasitəsilə xarici istehlakçılara satıla bilir.

Strateji yol xəritəsinin özəlliyi həm də ondadır ki, bazar iqtisadiyyatının əsaslarını və üstünlüklərini öyrətməyə çalışan, azad ticarəti iqtisadi artımın əsas amili kimi vurğulanan, özlərini inkişaf etmiş bazar iqtisadiyyatlı sayan və təəssüflər ki, son qərarları ilə bunun əksini təsdiq edən ölkələrdən fərqli olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi strateji yol xəritəsi məhz bazar iqtisadiyyatı və iqtisadi demokratiya prinsiplərinə əsaslanır.

# 14 İQTİSADİ MODELİN CƏHƏTİ

# Strateji yol xəritələrinə **ekspres baxış**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 13 dekabr 2016-cı il tarixində təsdiq edilmiş Strateji yol xəritələri 2004–2014-cü illər ərzində uğurla reallaşdırılmış iqtisadi artım mühərriki fiskal genişlənmə olan neft dövrünün iqtisadi artım modelinin özünün həyat tsiklini uğurla reallaşdıraraq, keyfiyyətcə yeni iqtisadi artım yanaşmasına transformasiyasının zərurətini elan etdi. Bununla bərabər, strateji yol xəritələri Beynəlxalq Valyuta Fondu Azərbaycan iqtisadiyyatının 2025-ci ilədək illik 2–3 faiz artım proqnozunu ölkəyə kifayət etmədiyini vurğulayaraq daha yüksək artım templərini hədəf qoydu.

"Beynəlxalq Valyuta Fondu Azərbaycan iqtisadiyyatının 2025-ci ilədək illik 2–3 faiz artacağını proqnozlaşdırır. Lakin belə aşağı artım səviyyəsi iqtisadiyyatın qarşısında duran məqsədlərə çatmağa, o cümlədən indiki və gələcək nəsillər üçün lazım olan sayda iş yerləri yaratmağa kifayət etmir".

Bu hədəfə nail olmaqdan ötrü Strateji Yol xəritələr yeni iqtisadi artım modelini ortaya qoydu. Bu məqalənin məqsədi yeni iqtisadi artım modelinin qısa xülasəsini verməkdir. Modelin əsas cəhətləri kimi aşağıdakıları qeyd etmək olar:

## 1

**DAVAMLI İNKİŞAFI** təmin edəcək yeni avanqard sektorların üzərində fokuslanmaq.

## 2

**MƏHSULDARLIQ–EFFEKTİVLİK** əsaslı artım yanaşmasının tətbiq edilməsi.



## 3

**"İQTİSADİYYATIN STRUKTURUNUN** qeyri–ticari bölməyə nisbətən ticari bölmənin, hasilata nisbətən emalın, dövlət sahibkarlığına nisbətən özəl sahibkarlığın, aşağı texnologiya tutumlu sektorlara nisbətən yüksək texnologiyalara əsaslan sektorların, aşağıixtisaslı əməyə nisbətən yüksəkixtisaslı əməyə əsaslanan sahələrin, azgəlirli bazarlara nisbətən yüksəkgəlirli bazarların və aşağı dəyər yaradan sektorlara nisbətən yüksək dəyər yaradan sektorların daha üstün artımı hesabına yenidən balanslaşdırılması".

## 4

**FİSKAL SİYASƏTİN SƏMƏRƏLİLİYİNİN** yüksəldilməsi. Fiskal konsolidasiya və fiskal siyasətin dominantlığını azaltmaqla ötürücülüyün yüksəldilməsi və kontr–tsiklik fiskal qaydaların tətbiqi. Fiskal dayanıqlılığı və fiskal multiplikatorun yüksək həddini təmin edə bilən səmərəli qaydaların tətbiqi.



## 5

**PUL–MƏZƏNNƏ SİYASƏTİNİN** səmərəliliyinin və pul siyasətinin iqtisadiyyata ötürücülüyünün yüksəldilməsi.



## 7

**ÖZƏL TƏŞƏBBÜSKARLIĞIN DƏSTƏKLƏNMƏSİ** istiqamətində biznes–investisiya mühiti daha da təkmilləşdirilməli, BXİ-nin qeyri–neft sektoruna cəlb edilməsi istiqamətində işlərin sürətləndirilməsi.

## 6

**DÖVLƏT MALİYYƏSİNİN,** xüsusilə də dövlət büdcəsinin dayanıqlılığı və yükü, daha da səmərəli idarə edilməsi.

## 13

**İNSAN KAPİTALININ İNKİŞAF ETDİRİLMƏSİ.** Təhsil səviyyəsi ən azı Şərqi Avropa ölkələri səviyyəsinə çatdırılacaqdır. Məktəbəqədər təhsilə əlçatanlıq ənənəvi Avropa səviyyəsinə qaldırılacaq. Ali təhsillilərin payının əhəmiyyətli şəkildə artırılması. 2025-ci ildən sonrakı dövr üçün Azərbaycan iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi rəqabətqabiliyyətli işçi qüvvəsi olacaqdır.

## 11

**REGİONAL İNTEQRASİYA VƏ İXRACIN ŞAXƏLƏNDİRİLMƏSİ.** Xarici investorlar üçün Azərbaycanın ixracyönümlü investisiya cəlbediciliyinin artırılması.



## 8

**VERGİ DƏRƏCƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTLİLİYİ** və gömrük prosedurlarının biznes üzərində yükü baxımından Azərbaycanın region dövlətləri arasında mövqeyinin yüksəldilməsi

## 9

**DƏSTƏKLƏYİCİ VƏ AŞANLAŞDIRICI DÖVLƏT SEKTORUUN QURULMASI.** İqtisadiyyatın əsas aparıcı qüvvəsi olmaq əvəzinə, dövlət sektoru daha çox aşağıdakı üç prioritet ilə məşğul olacaqdır: Azərbaycan vətəndaşları üçün vasitə və imkanların yaradılması; müvafiq makroiqtisadi və tənzimləmə çərçivəsi ilə iqtisadi inkişafa təkan verilməsi; vergi gəlirlərinin ən rasional şəkildə xərclənməsinə imkan verən inzibati idarəçiliyin qurulması.

## 10

**İNVESTİSİYA QOYULUŞLARINA ŞƏRAİTİN YARADILMASI,** beynəlxalq dəyər zəncirlərinə inteqrasiya və biznes əməliyyatlarında qlobal standartlara nail olunması.

## 12

**XARİCİ İQTİSADİ FƏALİYYƏTDƏ** təhcizat modelindən, ticarət və daha sonra geoiqtisadi modelə keçid. Qlobal dəyər zəncirlərinə inteqrasiya.

## 14



**MODELİN HƏYATA KEÇİRİLMƏSİ ZAMANI SOSİAL TƏSİRLƏR** qiymətləndiriləcək, iş yerlərinin yaradılması ilə yanaşı, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsinə dəstək verən sistemin inkişafı, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılmasına səylər göstərilməsi.



# İQTİSADİYYATDA dövlətin dəyişən rolu

i.e.d., prof. Maiş Əhmədov

Dünya təcrübəsi göstərir ki, hər bir milli iqtisadiyyatın davamlı inkişafının və bütünlükdə normal fəaliyyətinin təmin edilməsi həlledici dərəcədə sosial-iqtisadi proseslərin ölkədə reallaşdırılan tətbiq olunan tənzimləmə sisteminin xarakterindən, səmərəliliyindən asılı olur. Dövlət, cəmiyyət və iqtisadiyyat bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqda olmaqla ayrılmaz bir vəhdət təşkil edirlər. Ümumi halda, dövlətin iqtisadi funksiyaları istiqamətverici, koordinasiya edici, stimullaşdırıcı, bazarın «oyun qaydaları»na əməl edilməsi kimi nəzarətedici kimi təsnifləşdirilə bilər. Öz növbəsində bu funksiyalar ölkə iqtisadiyyatında və cəmiyyətdə səmərəlilik, sosial ədalət, bərabərlik, makroiqtisadi sabitlik, iqtisadiyyatın təhlükəsizliyinin və s. təmin edilməsi kimi qlobal problemləri həll etməyə imkan verir.

Geoiqtisadi baxımdan yenidən formalaşan dünyada Azərbaycan iqtisadiyyatın keyfiyyətcə yeni mərhələyə: aşağı neft qiymətləri, qlobal risklər, çağırışlar mərhələsinə qədəm qoymuşdu. Belə bir şəraitdə milli iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində effektiv iqtisadi inkişaf strategiyasının formalaşdırılması və reallaşdırılmasında dövlətin rolu kəskin artır. Digər tərəfdən, qlobal maliyyə böhranı və qloballaşma şəraitində dünyanın iqtisadi orqanizmində, fəaliyyət mexanizmində uzun illər boyu formalaşmış strukturunda əsaslı dəyişikliklər baş verir. Belə bir şəraitdə ölkədə həyata keçirilən tənzimləmə siyasətinin effektivliyi hər şeydən əvvəl onun qlobal maliyyə böhranına davamlılığı ilə şərtlənir.

Müasir dövrdə dünyada liberalizmə, realizmə, milli maraqların güclənməsinə, strukturalizmə əsaslanan yeni qaydalar, standartlar, yanaşmalar formalaşır, həm də bu zaman milli iqtisadiyyatlardan daha çox



«Ölkənin iqtisadiyyatını yelkənli gəmiyə bənzətsək dövlət tənzimlənməsi onun sükanı, maraq isə onun səmt küləyidir.»

Nobel Mukafatı laureatı Vasli Leontyev

milli maraqlar qloballaşır. Belə bir şəraitdə milli bazarların beynəlxalq xarakteri ilə milli hüdudlarda fəaliyyət göstərən tənzimləmə mexanizmi arasında ziddiyyətlər yaranır. Bu isə öz növbəsində milli iqtisadiyyatın inkişafının hər bir konkret mərhələsində liberal və himayədar siyasətin optimal nisbətdə tətbiqini tələb edir ki, bu da ümumən beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi prosesində milli maraqların qorunmasında iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin rolunun artırılmasını aktuallaşdırır. Bu gün ölkəmizdə davamlı inkişafın təmin edilməsi əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, inklyüzivliyinin artırılması Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirilməsini və onun yüksək gəlirli ölkələr qrupuna daxil olmasını əməli bir vəzifə kimi qarşıya qoymuşdur. Qeyd olunanları nəzərə alaraq Ölkə Prezidenti mütərəqqi dünya təcrübəsinə və milli reallıqlara əsaslanaraq «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri» haqqında 16 mart 2016-cı il tarixli sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11sektoru üzrə 12 strateji yol xəritəsi hazırlanmışdır. Qəbul edilmiş strateji yol xəritəsində 2020-ci ilədək iqtisadi inkişaf strategiyası, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışlar müəyyənləşdirilmişdir. Ümumən, sosial-iqtisadi proseslərin tənzimlənməsinin təkmilləşdirilməsi əslində strateji yol xəritəsinin ana xəttini təşkil edir. Milli iqtisadiyyatın perspektivliyi sənədində qeyd olunan strateji hədəflərin səmərəli reallaşdırılması üçün multiplikator effekti nəzərə alınmaqla fiskal dayanıqlıq və effektiv monetar siyasətin uzlaşdırılması və «Qızıl qayda» prinsiplərinə uyğun olaraq ölkədə maliyyə və real sektor arasında tarazlığın təmin edilməsi dövlət tənzimlənməsinin prioritet bir istiqaməti kimi müəyyənləşdirilmişdir.

Strateji yol xəritəsində dövlət maliyyəsinin bütövlüyünü və ondan səmərəli istifadə edilməsini təmin etmək məqsədilə fiskal konseledasiya tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur ki, bu da son nəticədə dövlət tələbinin tədricən özəl tələbə optimal transformasiyasına imkan verəcəkdir. Strateji yol xəritəsində orta müddətli xərclər çərçivəsində büdcə mexanizminin təkmilləşdirilməsi nəzərdə tutulur ki, bu da yaxın gələcəkdə dövlət maliyyəsi üzrə deyil, proqramlar və strateji hədəflər üzrə icra sisteminə keçilməsi, habelə strateji məqsədlərin, prioritetlərin məqsədli və kompleks proqramlarla uzlaşdırılaraq reallaşdırılması, üzən-tənzimlənən məzənnə rejimindən tədricən tam üzən məzənnə rejiminə keçirilməsi zəruriyyəti xüsusi vurğulanır.

Məlumdur ki, milli iqtisadiyyatın inkişafına dövlət təsirinin çox mühüm istiqaməti dövlət sektorunun optimal həddi və fəaliyyətinin səmərəliliyi ilə bağlıdır. Ölkəmizdə dövlət-biznes mühitinin yaxşılaşdırılmasında yerli sahibkarların xarici bazarlara asan çıxışının təmin edilməsində milli standartlaşma, texniki tənzimləmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasında dövlətin rolu kəskin artacaqdır.

Strateji yol xəritəsində qeyd olunur ki, dövlət sektoru: Azərbaycan vətəndaşları üçün imkan və vasitələrin yaradılması, müvafiq makroiqtisadi tənzimləmə çərçivəsi ilə iqtisadi inkişafa təkan verilməsi, vergi gəlirlərinin ən rasional şəkildə xərclənməsinə imkan verən inzibati idarəçiliyin qurulması kimi 3 prioritet istiqamətə öz fəaliyyətini yönəldəcəkdir.

Bununla bağlı strateji yol xəritəsində xüsusi vurğulanır ki, yeni iqtisadi reallıqlar şəraitində dövlətin iqtisadiyyata müdaxiləsi zamanı dövlət siyasəti, dövlət tənzimlənməsi, dövlət sifarişi və dövlət sahibkarlığı fəaliyyətləri institusional baxımdan bir-birindən ayrılacaqdır. Milli reallıqlar qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq qanunvericiliyin təkmilləşməsi və müvafiq institusional islahatların aparılması zəruriyyəti və istiqamətləri yol xəritəsində xüsusi vurğulanır. Strateji yol xəritəsinin başlıca prinsipləri, məqsədləri, hədəfləri və metodologiyasına uyğun olaraq ölkəmizdə davamlı və inklyuziv iqtisadi artımı təmin etmək üçün biznes-investisiya.,sahibkarlıq mühitinin yaxşılaşdırılması yeni iqtisadi reallıqlara uyğun olaraq ölkəmizdə sosial-iqtisadi proseslərin tənzimlənməsinin normativ-hüquqi və qanunvericilik bazasının təkmilləşdirilməsinin istiqamətləri göstərilir.

Göründüyü kimi, müasir dövrdə iqtisadiyyata dövlət müdaxiləsinin hədləri, mexanizmləri, təsir vasitələri ümumi qanunauyğunluqlarla, habelə ölkənin seçdiyi tənzimləmə modeli ilə müəyyənləşsə də, hər bir konkret mərhələdə davamlı və inklyüziv inkişafın təmin edilməsi baxımından onun səmərəliliyinə, optimallığına, milli iqtisadiyyatın inkişaf səviyyəsi, strukturu, qarşıya qoyulmuş başlıca məqsədlər və hədəflər, ölkənin dünya iqtisadiyyatına qovuşma dərəcəsi, açıqlığı, bazar münasibətlərinin yetkinlik dərəcəsi, qlobal və regional təsirlər ölkədə iqtisadiyyata dövlət müdaxiləsinin xarakterinə, miqyasına, səmərəlilik səviyyəsinə təsir vasitələrinə güclü təsir göstərir.

# AZƏRBAYCAN İQTİSADİYYATININ innovasiyalı inkişafının xüsusiyyətləri

**i.e.d., prof. Kamil Şahbazov**

Qloballaşma şəraitində bütün dünyada insan fəaliyyətinin hər bir sahəsinə innovasiyaların tətbiqi tempi sürətlənir. İnformasiya texnologiyalarının sürətli təkmilləşdirilməsi ictimai təkrar istehsal prosesinə əhəmiyyətli iz qoyur. Müasir informasiya texnologiyaları yeni texnologiyaların tətbiqi prosesini sürətləndirir, yeni istehsal sahələrinin mənimsənilməsi prosesini yaxşılaşdırır, menecmenti innovasiyalı etməklə onu təkmilləşdirir.

Yeni minilliyin elmi nailiyyətlərinin əsası kimi biliklər çıxış edir. İntellektual əməyin məhsuldarlığının artırılması, onun ölçülməsi metodlarının mənimsənilməsi, innovasiya menecmentinin yeni stimullaşdırıcı mexanizmlərinin işlənib-hazırlanması – bu gələcəyin iqtisadiyyatının əsas strategiyasıdır.

Sözsüz ki, deyilənlər ancaq innovasiya iqtisadiyyatına əsaslanan inkişafı yaradır. Azərbaycanın innovasiya iqtisadiyyatının inkişafının müasir mərhələsinin əsas məqamlarını qısaca olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Yaxın gələcəkdə dünya ticarətinin istehsala nisbətən daha yüksək templə inkişaf edəcəyi gözlənilir. İnnovativ iqtisadiyyatın inkişafı yüksək rəqabətqabiliyyətli istehsala əsaslanmalıdır, daha doğrusu, yüksək rəqabətqabiliyyətli və əsasən də, daha perspektivli məhsul istehsal edilməlidir. İnkişafın strategiyası yeni düşüncəli yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına əsaslanmalıdır. İnnovasiya əsasında sənaye inkişafı strategiyası elmi və texnoloji potensialın və təhsilin imkanlarının genişlənməsinin güclənməsi hesabına mümkün olacaqdır. Azərbaycanın yüksək məhsuldarlığa əsaslanan iqtisadi yüksəlişə nail olması vacibdir və iqtisadiyyatın aparıcı sahələrində dünya təsərrüfatı məkanında inteqrasiya edə biləcək strateji innovasiya texnoparklarını yaratmalıdır.
- İndiki vaxtda Azərbaycan iqtisadiyyatının əsas problemi – rəqabətqabiliyyətidir, bu da iqtisadiyyatda mövcud olan karbohidrogen ehtiyatlarından asılılığı aradan qaldırmağı, orta və uzunmüddətli perspektivdə dünya iqtisadiyyatının xammal və texnoloji "autsayder"ə



> "QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ SÜRƏTLİ TƏKMILLƏŞDİRİLMƏSİ İCTİMAİ TƏKRAR İSTEHSAL PROSESİNƏ ƏHƏMİYYƏTLİ İZ QOYUR"

çevrilməsi təhlükəsinin qarşısının alınması kimi mühüm məsələni daim diqqətdə saxlamağı tələb edir. Son onillikdə karbohidrogenin ixrac faktoru iqtisadi yüksəlişin əsas hərəkətverici qüvvəsi idi, lakin bugünkü mərhələdə qarşıda duran əsas vəzifə – qeyri-neft sektorunun qabaqlayıcı inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyi və rəqabətqabiliyyətliliyini yüksəltmək, onun innovasiya əsasında inkişafını təmin etməkdir. Digər sözlərlə, artıq indi "bilik iqtisadiyyatı"nın əsası qoyulmalıdır, bunun üçün vacib olan insan kapitalının inkişafı ön plana keçməlidir.

Müasir dövrdə respublikada təhsil sisteminin özünün köklü surətdə məzmununun dəyişilməsinə cəhdlər göstərilməsi müşayiət edilir. Təhsilin tamamilə yeni sistemə keçirilməsi sadə bir vəzifə deyildir, ictimai təkrar istehsalın bütün sistemini əhatə edən çox mürəkkəb bir prosesdir. Təhsil sistemində dəyişikliklərə sürətli şəkildə nail olmaq real deyil. Təhsil sistemi gələcək inkişaf sistemi kimi inkişaf etməlidir. Azərbaycanda həmçinin əmək bazarının və təhsil xidmətlərinin qarşılıqı əlaqəsi problemi mövcuddur. Ali məktəblərin məzunları uyğun iş tapmaq problemi ilə üzləşirlər, çünki təklif olunan ixtisaslar əmək bazarının tələblərinə cavab vermir.

- Professional istiqamətlənmə sisteminin olmaması (kağız üzərində mövcuddur), praktikada istifadə edilmir, bu da büdcə yerlərinin öz təyinatına uyğun olmayaraq doldurulmasına gətirib çıxarır. Məzunlar öz ixtisasları üzrə işləmirlər.

- Dövlət, biznes və ali məktəblər – innovasiya sisteminin əsas elementləridir. Bütün dünya



## klasterlərin formalaşma prosesinin mərhələləri

- **Embrion mərhələsi** – sıx olan sektorun kəşf edilməsi, daxili investisiyaların təmin olunması.
- **Struktur mərhələsi** – əsas firmalardan kiçik firmaların ayrılması və əsas sektor firmalarının tədarükçüsünə çevrilməsi.
- **Yetkinlik mərhələsi** – sektorun əsas iştirakçılarının təklif etdiyi məhsul və xidmətlər standartlaşması.
- **Tənəzzül mərhələsi** – məhsulların daha effektiv əvəzləmələrlə daha az xərclə təklif edilməsi.





təsərrüfatında dövlətin, biznesin və təhsilin münasibətləri inkişafın əsas mənbəyi sayılır. Azərbaycanda bu vaxta qədər öz fəaliyyətini həyata keçirərək və dövlətlə sosial-iqtisadi münasibətlərə qoşularaq biznesin əsaslanacağı təhsildə qəbul edilən konkret istqamətlər müəyyən edilməmişdir.

Biznes öz fəaliyyətində praktiki olaraq etik prinsiplərə əməl etmir, sahibkarlar nəinki öz maddi, hətta mənəvi ehtiyaclarının həyata keçirilməsinə cəhd etmirlər.

Sosial üçbucaq – həm biznesin, həm elmin, həm də təhsilin inkişafının vacib şərtidir. Ancaq belə halda biznes-hakimiyyət-təhsil əlaqəsinin optimal modelində innovasiya iqtisadiyyatı haqqında danışmaq olar. Qeyd edək ki, Azərbaycan iqtisadiyyatı qlobal böhranı (onun əvvəlində) kifayət qədər hazırlıqlı qarşıladı, lakin sonradan, əsasən də, indiki dövrdə maliyyə bazarlarının fəaliyyətinin təhlili maliyyə institutlarının sosial xarakterli problemlərə səmərəli təsir qabiliyyətinə malik olmadığını göstərir. Maliyyə institutlarının azad bazara rahat keçidi balanslaşdırmaq bacarığının olmaması açıq-aşkar görünür.

Bununla bərabər, qlobal böhran və onun nəticələri gündəliyə müasir iqtisadi arxitekturada depressiv ssenarilərdən müdafiə mexanizminin yaradılmasını və gücləndirilməsi vacibliyini gətirir. Ənənəvi maliyyə fondları ilə yanaşı, antiböhran xarakterli xüsusi tədbirlər, milli iqtisadiyyatın operativ şəkildə yeni şəraitə uyğunlaşması əhəmiyyət kəsb edir. Sürətli inkişaf sabit iqtisadi inkişafın təmin edilməsi üçün innovasiya fəaliyyətinin genişlənməsi əsasında mümkündür.

*SÜRƏTLİ İNKİŞAF SA*
*İQTİSADİ İNKİŞAFIN T*
*EDİLMƏSİ ÜÇÜN* ***İNN***
*FƏALİYYƏTİNİN GENİ*
*ƏSASINDA MÜMKÜN*



**“SOSİAL ÜÇBUCAQ – HƏM BİZNESİN, HƏM ELMİN, HƏM DƏ TƏHSİLİN İNKİŞAFININ VACİB ŞƏRTİDİR”**

# Yeni minilliyin elmi nəaliyyətlərinin əsası kimi biliklər çıxış edir



BİT
ƏMİN
OVASİYA
İŞLƏNMƏSİ
IDÜR

İqtisadi biliklərin formalaşması, elmtutumlu texnologiyaların yaradılması, onların əldə edilməsi vacibdir.

İnnovasiya iqtisadiyyatının əsas problemlərindən biri – regional texnoparkların yaradılmasıdır. Azərbaycan coğrafi cəhətdən uğurlu yerləşmişdir, onun iqtisadiyyatı yüksək texnologiyalar sferasında innovasiyaları kommersiya əsasına keçirməyə imkan verir. Yüksək texnologiyalar parkı Prezidentin 5 noyabr 2012-ci il tarixli fərmanı ilə yaradılmışdır. Bu qərar "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf strategiyasının təşəbbüslərindən biridir. Onun əsasını enerji daşıyıcılarından asılı olan bir iqtisadiyyatdan əsasını insan kapitalı təşkil edən digər bir iqtisadiyyata keçid təşkil edir. Yüksək texnologiyalar parkı Azərbaycanın İKT sektorunun gələcək inkişafının üç yüksək sütunu sayılır, bura həmçinin universitet və informasiya texnologiyalarının dövlət inkişaf fondu daxildir. Yüksək texnologiyalar parkı Azərbaycanda öz fəaliyyətinə 2013-cü ilin ortalarında başlamışdır. Bu gün üçün praktiki olaraq personalın formalaşması prosesi başa çatmışdır.

Yüksək texnologiyalar parkına Bakı şəhərindən çox da uzaqda olmayan Pirallahı adasında 50 hektar ərazi ayrılmışdır.

İnkişafın Baş planı ilə yanaşı, potensial investorlar üçün biznes-planların işlənib-hazırlanması prosesi gedir. Hazırkı dövrdə bu inkubator mərkəzinin reallaşdıracağı layihələrin siyahısı dəqiqləşdirilməsi prosesi gedir. Onlar arasında planlaşdırma ərəfəsində olan iki layihə də vardır. Statistikaya görə, 400 belə texnoparklardan təxminən dünya üzrə 56 % dövlət mülkiyyətindədir. Belə təcrübə dövlət himayədarlığının vacibliyini bir daha vurğulayır.

Yuxarıda deyilənlər respublikada ciddi və məqsədli şəkildə iqtisadiyyatın innovasiya inkişafının məsələlərinin həllinə yanaşmadan xəbər verir. Biz də pozitiv nəticələri gözləyək.

## klasterin quruluşu və təhsil

İnkişaf etmiş sektorun əsaslı klasterləşmiş quruluşlarında (məsələn, Norveç Dəniz Nəqliyyatı Klasteri, İtaliya Mərmərçilik Klasteri, Amerika Film Klasteri) həm fiziki infrastruktur, həm də təhsil proqramları kimi hökumət vəya digər dövlət orqanları tərəfindən həyata keçirilən investisiyalar, KOS-ların effektivliyini artırmaqdadır.

# NEFT GƏLİRLƏRİNİN "QAYDA"sı

i.e.d.prof., Ə.Ə.Ələkbərov

Ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasəti nəticəsində xalq təsərrüfatının bütün sahələri böyük sürətlə inkişaf etmişdir. Qeyri-neft sektoru ümumi iqtisadi artımın başlıca amili olmuşdur. Həyata keçirilmiş iqtisadi islahatlar yaradılmış potensial xarici mühitdən gələn risklərə və çağırışlara adekvat cavab verməyə imkan yaratmışdır. İqtisadiyyatda və xarici ticarətdə neft sektoru çox böyük rol oynamışdır.

2015-ci il ərzində Azərbaycanda xarici ticarət dövriyyəsinin həcmi 20,6 milyard ABŞ dolları, o cümlədən ixracın həcmi 11,4 milyard ABŞ dolları, idxalın həcmi 9,2 milyard ABŞ dolları təşkil etmiş, nəticədə 2,2 milyard dollarlıq müsbət saldo yaranmışdır. Qeyd edilən dövr ərzində qeyri-neft məhsullarının ixracı 1,6 milyard dollar təşkil etmişdir. Deməli, 19 milyard dollar xarici ticarət dövriyyəsi neft və neft məhsullarının payına düşmüşdür.

2006-cı ildə 18,7 milyard manatlıq ÜDM-nin 7,6 milyard manatını, yəni 40,7 faizi, 2015-ci ildə isə bu rəqəm uyğun olaraq 54,4 milyard manatlıq ÜDM-nin 37,7 milyard manatı, yəni 69,3 faizi qeyri-neft

**SON İLLƏRDƏ QLOBAL İQTİSADİYYATDA GEDƏN MÜRƏKKƏB PROSESLƏR FONUNDA AZƏRBAYCAN İQTİSADİYYATI İNKİŞAFINI DAVAM ETDİRMİŞ, SABİTLİK VƏ DAYANIQLILIQ NÜMAYİŞ ETDİRMİŞDİR.**

sektorunun payına düşmüşdür. Göründüyü kimi, qeyri-neft sektorunun ÜDM-dəki xüsusi çəkisi illər üzrə yüksəlmişdir. Buna səbəb ölkənin neft sektorundan əldə olunan gəlirlərin Dövlət Neft Fondunda mərkəzləşərək düzgün idarə olunması nəticəsində neft gəlirləri qeyri-neft sektoruna yönəldilmiş və bu sahədə yüksək iqtisadi artıma nail olunmuşdur.

Ölkədə neft və qaz hasilatının həcmini, həmçinin Dövlət Neft Fondundan Dövlət Büdcəsinə transferləri illər üzrə müqayisə etsək belə bir nəticəyə gəlmək olar ki, son 10 il ərzində iqtisadiyyatın qeyri-neft sektoruna qoyulan investisiyalar öz real nəticələrini son bir neçə ildə göstərmiş və qeyri-neft sektorunun əhəmiyyətli artımı ilə özünü ifadə etmişdir. Cədvəl 1-in məlumatlarından görünür ki,2006-cı və 2015-

**NORVEÇİN NEFT FONDU OLAN NORVEÇ DÖVLƏT PENSİYA FONDUNDAN DÖVLƏT BÜDCƏSİNƏ İLDƏ 4 % TRANSFERT ETMƏYƏ İCAZƏ VERİLİR**

**BEYNƏLXALQ TƏCRÜBƏ**



# "QIZIL

ci ilиərdə xam neftin və təbii qazın hasilatının artması ilə bərabər Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlər üyğun olaraq 585 milyon manatdan 8130 milyon manata çatmışdır.Eyni zamanda, neft sektorundan əldə olunan vəsait maliyyə aktivləri formasında da ölkənin makroiqtisadi təhlükəsizliyinin qorunması istiqamətində valyuta ehtiyatlarının artırılmasına yönəldilmişdir. Azərbaycanın qızıl-valyuta ehtiyatları 2015-ci ilin sonunda ilkin məlumatlara əsasən, 38 milyard ABŞ dollarından yuxarı məbləğdədir.

Qeyd edək ki, 10 il öncə ölkəmizin valyuta ehtiyatları yox dərəcəsində idi. Aparılan uğurlu iqtisadi siyasət respublikamızın dünya ölkələri arasındakı bu yüksək mövqeyi qazanmasına gətirib çıxarmışdır. Valyuta ehtiyatları ÜDM-in 71 faizini təşkil etməklə, 4 illik idxalın maliyyələşdirilməsi həcmindədir. Eyni zamanda, valyuta ehtiyatları xarici dövlət borcundan 5,6 dəfə çoxdur. Qeyd olunan göstəricilər Azərbaycanın dayanıqlı makroiqtisadi durumunu əks etdirir.

Azərbaycan iqtisadiyyatının əsas göstəricilərindən hesab olunan neft və qaz hasilatı 2015-ci ildə əsas etibarilə öz stabilliyini qorumuş, az həcmdə azalma ilə müşahidə olunmuşdur. Belə ki, neft

## CƏDVƏL 1. XAM NEFT, TƏBİİ QAZ HASİLATI, VALYUTA EHTİYATLARI, ÜDM, NEFT VƏ QEYRİ-NEFT ÜDM-İ BARƏDƏ MƏLUMATLAR

| İllər | Xam neft hasilatı (mln. tonla) | Təbii qaz hasilatı (mlrd. m³) | DNF-dən Dövlət büdcəsinə transfertlər (mln. manatla) | Valyuta ehtiyatları (mln. ABŞ dolları) | ÜDM (mln. manatla) | ÜDM neft sektoru (mln. manatla) | ÜDM qeyri-neft sektoru (mln. manatla) |
|---|---|---|---|---|---|---|---|
| 2006 | 32,3 | 9,0 | 585,0 | 3 367,3 | 18 746,2 | 11 116,2 | 7 630,6 |
| 2007 | 42,6 | 17,8 | 585,0 | 3 778,4 | 28 360,5 | 17 784,4 | 10 576,1 |
| 2008 | 44,5 | 23,4 | 1 100,0 | 17 337,9 | 40 137,2 | 24 836,8 | 15 187,3 |
| 2009 | 50,4 | 23,7 | 4 915,0 | 20 061,7 | 35 601,5 | 16 871,5 | 18 730,0 |
| 2010 | 50,8 | 26,3 | 5 915,0 | 29 207,8 | 42 465,0 | 21 301,2 | 22 385,8 |
| 2011 | 45,6 | 25,8 | 9 280,0 | 40 281,5 | 52 082,0 | 26 656,5 | 25 431,3 |
| 2012 | 43,0 | 26,8 | 9 905,0 | 41 624,4 | 54 743,7 | 25 481,7 | 29 262,0 |
| 2013 | 43,5 | 29,5 | 11 350,0 | 50 039,5 | 57 708,2 | 23 676,3 | 32 637,9 |
| 2014 | 42,0 | 29,6 | 9 337,0 | 54 000,0 | 59 014,1 | 22 824,9 | 36 189,2 |
| 2015 | 41,6 | 29,3 | 8 130,0 | 38 000,0 | 54 352,2 | 16 482,3 | 37 870,0 |

hasilatı 0,8 faiz azalmaqla 41,7 milyon ton (351,5 milyon barel) təşkil etmişdir.

Son bir neçə ilin hasilatının təhlili onu göstərir ki, 2015-ci ildə neft hasilatı əvvəlki illərə nisbətən azalma tempi ilə müşahidə olunmuşdur (2015-ci ildə 0,8 faiz azalma, 2014-cü ildə 3,4 faiz azalma, 2013-cü ildə 0,2 faiz artım).

2015-ci ildə dünya bazarında neftin qiymətinin düşməsi nəticəsində 2014-cü illə müqayisədə əhəmiyyətli qiymət fərqi yaranmışdır. 2014-cü ildə "Azeri light" markalı neftin orta FOB qiyməti 101,6 ABŞ dolları təşkil etmişdir. Həmin qiymət hesabat ilində 53,2 ABŞ dolları olmuşdur. Göründüyü kimi, neftin qiyməti 1,9 dəfə aşağı düşmüşdür.

Manatın devalvasiyasından sonra neftin qiymətində olan fərq manat nisbətində nisbətən azalmışdır. Belə ki, 2014-cü ildə analoji qiymət 79,7 manat olduğu halda, 2015-ci ilin müvafiq dövründə qiymət 54,4 manat təşkil etmişdir. Bu da manat nisbətində 1,5 dəfə azalma deməkdir.

## QRAFİK 1. DÖVLƏT BÜDCƏSİNƏ DAXİLOLMALARIN STRUKTURU




Neftin qiymətinin dəyişməsi neft sektorunda yaranan ÜDM və bu sektordan daxil olan vergilərin həcminə də təsir göstərməkdədir. Bu öz əksini 2016-cı il üzrə neft sektorundan daxil olmuş vergilərdə də öz əksini tapmışdır. Belə ki, neft sektoru üzrə vergi daxilolmaları ümumi vergi daxilolmalarının 2014-cü ildə 39,5 faizini, 2015-ci ildə 29,4 faizini təşkil etməklə, 2016-cı ildə isə 23 faiz təşkil etmişdir.

Cədvəl 1-in məlumatlarında da büdcə daxilolmalarının strukturunda Neft Fondundan transferlərin azaldığı müşahidə olunur. 2013-cü ildə DNF-dən dövlət büdcəsinə 11350 milyon manat transfer edilmişdirsə, bu rəqəm 2015-ci ildə 8130 milyon manat olmuşdur. Belə ki, əgər 2014-cü ildə Neft Fondundan transferlərin büdcə daxilolmalarında xüsusi çəkisi 50,7 faiz olmuşdursa, 2015-ci ilin yanvar-dekabr ayları ərzində bu rəqəm 3,3 faiz bəndi azalaraq 47,4 faizə bərabər olmuşdur.

Vergilər Nazirliyinin xətti ilə büdcə daxilolmalarında müsbət tendensiya davam edərək 2015-ci ildə 2014-cü illə müqayisədə 4,7 milyon manat artmışdır. 2015-ci ildə dövlət büdcəsinə daxilolmaların strukturuna nəzər salaq.

1-ci qrafikin məlumatlarından göründüyü kimi, dövlət büdcəsinin 47,4 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondunun hesabına formalaşmışdır.

Aparılan tədqiqatlardan belə nəticə cıxarmaq olar ki, Dövlət Neft Fondundan daha səmərəli istifadə edilməsi indi də, gələcəkdə də aktual problem olaraq gün-dəmdə olacaqdır. Neftdən gələn gəlirdən daha səmərəli istifadə etmək məqsədi ilə 1999-cu ildə Dövlət Neft Fondu yaradıldı. Ayrı-ayrı illərdə neftdən gələn gəlirlərdən az olduqda az, çox olduqda çox istifadə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək "qızıl qayda"nın qəbul edilməsi üçün əsasnamə və istiqamətlər verilmişdir.

Dünyada makroiqtisadi dəyişikliklər nəticəsində baş verə biləcək problemlərin qarsısının alınması, gələcək nəsillər üçün ehtiyat fondunun yaradılması və inteqrasiya edilmiş fiskal idarəetmə prinsiplərinin effektivliliyi ölkə üşün mühüm əhəmiyyət kəsb edir. Dövlət büdcəsinə DNF-dən trasfertlərin sabitliyini təmin etmək üçün "qızıl qayda"nın tətbiqi nəzərdən keçirilir. "Qızıl qayda" adlanan daha ciddi köçürmə mexanizmi fond ilə Dövlət büdcəsi arasında köçürülən məbləğin sabitləşdirilməsini təmin edər, dövlət xərclərinin neftin qiymətindəki dəyişkənliklərdən asılılığını daha yaxşı qoruya bilər, manatın uzunmüddətli sabitliyini təmin edər.

İqtisadiyyatı təbii ehtiyatlardan asılı olan ölkələrin təcrübəsinə qısaca nəzər salaq. Norveçin neft fondu olan Norvec Dövlət Pensiya Fondundan dövlət büdcəsinə ildə 4 faiz transfert etməyə icazə verilir. Botsdvananın Pula Fondu ölkənin almaz ehtiyatlarından əldə edilən gəlirləri gələcək nəsillər ücün saxlayır. Çili mis ehtiyatlarından əldə edilən gəlirlərindən iki fond yaratmışdır. Pensiya Ehtiyat Fondu və İqtisadi Sosial Stabilləşdirmə Fondu. İstənilən müsbət saldo bu fondlara köçürülür.

DNF-dən səmərəli istifadənin "qızıl qayda"larının tətbiqi ilə əlaqədar Strateji Yol Xəritəsində dörd variant təklif edilmişdir. Sabit köçürmə məbləği, sabit neft qiymətinə əsasən hesablanan köçürmələr, investisiyalardan əldə ediləcək sabit gəlirlər, investisiyaların maliyyələşdirilməsi. Yuxarıda aparılan tədqiqatlardan bələ nəticə çıxarmaq olar ki, Azərbaycan iqtisadiyyatı üçün dördüncü variant hal-hazırkı dövr üçün daha effektli görünür.

Yekunda bir daha göstərək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi möhkəm və dönməz siyasi iradənin labüd nəticəsi olaraq milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafında, ölkə əhalisinin sosial və mədəni rifahının daim yüksəldilməsində müstəsna milli əhəmiyyətli bir tədbir olacaqdır.

# KOS klasterləri və beynəlxalq dəyər zəncirləri

Dos. Fariz Əhmədov

KLASTERLƏŞMƏ (CLUSTER), DƏYƏR ZƏNCİRİ (VALUE CHAIN) KİMİ YANAŞMALAR RƏQABƏT STRATEGİYALARININ HƏYATA KEÇİRİLMƏSİNDƏ VƏ NƏTİCƏ ƏLDƏ OLUNMASINDA İSTİFADƏ OLUNAN ƏN EFFEKTLİ VASİTƏLƏRDƏNDİR.



01

Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatlarında və həmin iqtisadiyyatların inkişafında kiçik və orta sahibkarlığın (KOS) rolu və əhəmiyyəti danılmazdı. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə iqtisadiyyatda yeni artım yanaşmasına keçidlə əlaqədar, özəl təşəbbüskarlıq üçün imkanları genişləndirmək hesabına biznes mühitinin yaxşılaşdırılması əsas prioritetlərdən biri kimi qeyd edilmişdir. Bundan əlavə, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə isə, KOS subyektlərinin maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışının asanlaşdırılması, biznes bilik və bacarıqlarının artırılması ilə rəqabət gücünün təmin olunması, onların iqtisadi inkişafdakı rolunun artırılması, gündəlik istehlak malları ilə təminatın əsasən KOS subyektləri vasitəsilə həyata keçirilməsi, KOS subyektlərinin ÜDM və məşğulluqda payının əhəmiyyətli dərəcədə artırılması və qlobal dəyər zəncirlərinə qoşulmuş yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaq hədəf baxışlar kimi müəyyən edilmişdi. Beynəlxalq təcrübə göstərir ki, KOS rəqabət gücünün təmin olunması da həyata keçirilən ən uğurlu strategiya klasterləşmə siyasətini həyata keçirtməkdir.

Klasterləşmənin formalaşması üçün tarixi və mədəni təcrübə ilə yanaşı, tədqiqat-inkişaf və əmək məhsuldarlığı, tədarükçülərə yaxınlıq, təhsil-tədris infrastrukturu, iqtisadi investisiya, şəbəkələr və birliklər, sahibkarlıq mühiti, innovasiya və xarici əlaqələri özündə əhatə edən müəyyən bir strategiyanın olmağıvacib şərtdir. Klasterləşmənin meydana gəlməsi istiqamətində ilk pillə klasterləşmə prosesinin formalaşmasıdır. Buna görə, klasterləşmənin formalaşma prosesi aşağıdakı mərhələləri özündə əks etdirir:




02

- **Embrion mərhələsi** – bu mərhələ sıx olan sektorun kəşf edilməsi, onun strukturunun formalaşmasında istifadə olunan daxili investisiyaların təmin olunduğu mərhələdir.
- **Struktur mərhələsi** – bu mərhələ bazarı canlandırmaq üçün əsas firmalardan ayrılan kiçik firmaların bazarda qalmasını və təşəbbüskarlıq fəaliyyətlərini dəstəkləyərək, onların əsas sektor firmalarının tədarükçüsünə çevrilməyinin təmin edildiyi mərhələdir.
- **Yetkinlik mərhələsi** – bu mərhələdə sektorun əsas iştirakçılarının təklif etdiyi məhsul və xidmətlər standartlaşmaqdadır. Sektora daha çox firmanın daxil olması nəticəsində xərclər rəqabətdə əsas meyara çevrilir.



03







• **Tənəzzül mərhələsi** – bu mərhələdə sektorun istehsal etdiyi məhsulların daha effektiv əvəzləmələrlə daha az xərclə təklifi həyata keçirilir.

Ümumi tərif olaraq qeyd edə bilərik ki, əgər bir məhsul vəya xidməti ixrac edə bilirsinizsə, bu o deməkdir ki, həmin məhsulla rəqabət edə bilirsiniz, yəni rəqabət gücünüz var. Əlbəttə ki, rəqabət gücü əldə etmək ixracatın əsas dinamikasını formalaşdırır. Belə ki, yalnız rəqabət gücünü əldə etmiş KOS ixracat həyata keçirmək iqtidarına malikdir.

Rəqabət gücü əldə etmək üçün aşağı qiymət və yüksək keyfiyyət kimi iki əsas şərt ön plana çıxır. Məhz bu məqamda, klasterlər rəqabət gücünə həm qeyd olunan bu iki şərt, həm də digər dəyişkənlər baxımından çoxtərəfli təsir edir.

İnkişaf etmiş ölkələrin əsaslı klasterləşmiş quruluşlarında (məsələn, Norveç Dəniz Nəqliyyatı Klasteri, İtaliya Mərmərçilik Klasteri, Amerika Film Klasteri) həm fiziki infrastruktur, həm də təhsil proqramları kimi hökumət və ya digər dövlət orqanları tərəfindən həyata keçirilən investisiyalar, KOS-ların effektivliyini artırmaqdadır. Məsələn, universitetlərin klasterləşməsi həm tələb olunan işçi qüvvəsinin təmin edilməsi, həm də işə götürülmüş işçilərin ortaq yerli proqramlarla inkişaf etdirilməsi (kurs, seminar, xüsusi təhsil və s.) təhsil xərclərini azaltmaqdadır. Yalnız dövlət sektorunun deyil, klasterlərin daxilində fəaliyyət göstərən KOS və iri müəssisələrin də təhsil proqramları həm firmaların, həm də bütövlükdə sektorun daha səmərəli fəaliyyət göstərməyini təmin edir. Bu baxımdan, klasternəzdində fəaliyyət göstərən bir KOS, klasterdən kənarda fəaliyyət göstərən bir tədarükçüdən xammal əldə etmək əvəzinə klaster daxilindəki bir tədarükçüdən faydalanaraq əməliyyat xərclərini azaltmaq imkanına malik olur.

Klasterlər, dövlət orqanlarının xidmətlərini əldə etməkbaxımından da mühüm töhfələr verir. Məsələn, dövlət tərəfindən həyata keçirilən və təqdim olunan bütün fiziki infrastruktur, keyfiyyət mərkəzləri, tədqiqat institutları, test laboratoriyaları, agentliklər və təhsil kimi xidmətlər klaster daxilində yerləşən KOS-ların

**KLASTERLƏŞMƏ REGIONAL VƏ BEYNƏLXALQ RƏQABƏTLİLİK SİYASƏTİNİN MÜHÜM HİSSƏSİDİR**

*İNKİŞAF ETMİŞ VƏ İN ETMƏKDƏ OLAN ÖL PLANLAŞDIRMA FƏA FOKUSLANDIĞI* ***ƏSA*** *RƏQABƏTLİLİKDİR*





**dünyanın istənilən yerində sıxlaşmalar və klasterlər haqqında məlumatları əldə etmək mümkündür**

KİŞAF
KƏLƏR ÜÇÜN
LİYYƏTİNİN
**S MƏSƏLƏ**



və ticarətin yüksək sürətli inkişafı, dəyərlər zəncirinin bölünməsinin analizi bu əlaqələrdə qazananları və məğlub olanları müəyyən edir. Bundan əlavə, adıçəkilən sahə ilə maraqlanan bəzi tədqiqatçılar ticarət ortaqlıqlarının iqtisadi rifaha olan təsirini araşdırmışdır. Məlum olmuşdur ki, beynəlxalq dəyərlər zəncirinin bölünməsi ilə ticarət ortaqlıqları "Hansı aralıq məhsulların istehsalına və hansı bölgələrə fokuslanmaq lazımdır?" sualına görə həyata keçirilir. Bunun üçün bölgələrdəki istehsal ilə bağlı elementlər mühüm rol oynayır. Belə ki, klasterlərin quruluşu da məhz buna əsasən formalaşır. Qlobal rəqabətə davamlı olmaq və iqtisadi fürsətlərin əldə edilməsi üçün istehsal faktorları ilə bağlı ərazilərin malik olduğu imkanlar nəzərə alınır. Eyni zamanda, aralıq məhsulların istehsalı üçün coğrafi yerləşmə ilə bağlı empirik analizlərin həyata keçirilməsi çox faydalı olmuşdur. Analizlərdə insan kapitalı və texnoloji inkişafın gücü də nəzərə alınmışdır. Bundan əlavə, beynəlxalq istehsal şəbəkəsi metodologiyası, istehsalın quruluşundakı texnoloji irəliləyişləri və məlumat transferini də əhatə edir. Beynəlxalq ticarətin həcminin müxtəlif yollarla sərhədsiz şəkildə genişlənməsi isə ən ucqar ərazilərdə yerləşən bazarları belə bir-birinə yaxınlaşdırmışdır.

adıçəkilən imkanları daha rahat və ucuz əldə etməyi üçün əlverişli şərait yaradır.

Bütün bunların uğurla həyata keçirilməsi üçün beynəlxalq istehsal şəbəkəsində beynəlxalq dəyərlər zəncirinin bir hissəsi olmaq lazımdır.Dəyər zənciri, bir xidmət və ya məhsulun, istehsalın ilkin mərhələsindən istehlakçıya çatdırılmasına qədər həyata keçirilən fəaliyyətləri və satışdan sonrakı xidmətləri əhatə edən bir prosesdir. Bu məfhum, tədqiqat-inkişaf, məhsul və xidmətlərin dizaynı, istehsal, marketinq və satış, məhsulun paylanması və müştəri xidmətləri mərhələlərinin hər birini əhatə edir. Dəyər zənciri anlayışı fərdi müəssisələr üçün istifadə olunduğu kimi, tədarük zənciri və paylama kanallarını da əhatə etməklə bütöv bir sektora da şamil edilə bilər.

Müasir dövrdə çoxtərəfli sənaye əsaslı məhsulların dünyanın bir ucundan digər ucuna nəqledilməsinin mümkün olduğu qlobal iqtisadi bir mərhələ müşahidə edilməkdədir. Belə qlobal iqtisadi şəraitdə istehsalı formalaşdıran dəyərlər zəncirinin halqaları hissə-hissə ayrılmaqdadır. Bu dəyərlər zəncirinin hissələri istehsal şəbəkəsində iştirak edir. İstehsal şəbəkəsinin əsasında isə məlumat hərəkətliliyi ilə yanaşı, eyni zamanda, texnoloji kontent də meydana çıxır. Qısa şəkildə ifadə etsək, şəbəkə, istehsalda əvvəl və sonra mövcud olan bütün əlaqələri özündə ehtiva edən dəyərlər zənciri bağlantısıdır. İstehsalın

KLASTERLƏR ÖLKƏNİN **RƏQABƏT GÜCÜNƏ** ÇOXTƏRƏFLİ TƏSİR EDİR



# İNVESTİSİYA MÜHİTİNİN

## İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İNVESTİSİYA QOYULUŞLARI** sahəsində hüquqi xarakterli problemlərin həlli mexanizminin təkmilləşdirilməsi istiqamətində "Apelyasiya Şuraları"nın təşkili və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qəbul edilmiş qərarlar, lisenziya tələb olunan fəaliyyət növləri və onların verilməsində edilmiş ciddi dəyişikliklər biznes mühitinə öz müsbət təsirini göstərəcəkdir.



Müasir dövrdə sosial-iqtisadi inkişafın hansı mərhələsində olmasından asılı olmayaraq, istənilən ölkə üçün investisiya qoyuluşlarının həcmi və onun iqtisadiyyatın sahələri üzrə paylanmasının optimallığının təmin edilməsi, mühüm iqtisadi vəzifələrdən hesab edilir. Bu vəzifəni doğuran obyektiv səbəb qismində insanların tələbatlarınnın durmadan artması və buna müvafiq olaraq davamlı iqtisadi artımın təmin edilməsi zərurəti çıxış edir.

Ümumilkdə investisiya mühitinin formalaşmasında birbaşa və dolayı yolla təzahür edən siyasi, iqtisadi, sosial və qlobal amillərin təsiri kontestindən yanaşdıqda respublikamızda müxtəlif tarixi inkişaf mərhələlərində fərqli şərait formalaşmışdır. Müstəqilliyin ilk illərində ölkədə mövcud olan şərait, xüsusilə də dövlətçiliyin zəifliyi, ölkə iqtisadiyyatının qısa müddət ərzində böhran vəziyyətinə düşməsi, hiperinflyasiyanın mövcudluğu və s. investisiya mühiti üçün cəlbedicilik baxımından ciddi problemlər yaratmışdır. Yalnız 1993-cü ildən ölkədə siyasi sabitliyin bərpa edilməsi və dövlətçiliyin möhkəmləndirilməsi sahəsində görülən tədbirlər sayəsində investisiyaların cəlb edilməsi üçün əlverişli zəmin yaranmışdır. Statistik məlumatlara əsasən, 1995-2015-ci illər ərzində ölkə iqtisadiyyatına ümumilikdə 184 milyard manatdan çox investisiya qoyulmuşdur. Onların təqribən yarısı və ya 90,6 milyard manatı xarici, 93,4 milyard manatı isə daxili investisiyalar hesabına reallaşdırılmışdır.

Araşdırmalara əsasən, ölkə iqtisadiyyatına yönəldilmiş daxili investisiyalar ilə yanaşı olaraq, xarici investisiyaların mövcud reallıqlar baxımından kifayət qədər yüksək həcmdə paya malik olmasında investisiya mühitinin mühüm rolu olmuşdur. Belə ki, 90-cı illərin ortalarından başlayaraq, respublikamızda investisiya qoyuluşları baxımından "Açıq Qapı" siyasəti həyata



keçirilməkdədir. Bu siyasət ümumilikdə biznes üçün daha əlverişli mühitin yaradılması baxımında pozitiv təsir göstərməklə, qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından da əhəmiyyətli rol oynayır. Bununla yanaşı, investisiya mühitinin cəlbediciliyinin qorunub saxlanılması onun dəyişən şəraitə adekvat olaraq daima təkmilləşdirilməsini tələb edir. Odur ki, yeridilən iqtisadi siyasətin mühüm məqsədlərindən biri kimi bu məqam

# SON 12 İLDƏ ÖLKƏ İQTİSADİYYATINA 184 MİLYARD MANATDAN ÇOX İNVESTİSİYA QOYULUB




daima hökumətlərin diqqət mərkəzində saxlanılmaqdadır.

İstənilən ölkə timsalında investisiya mühitinin təkmilləşdirilməsi ilə bağlı konkret fəaliyyət istiqamətlərinə qanunvericilik bazasının, müxtəlif iqtisadi fəaliyyət növləri üzrə lisenziyaların, xüsusilə də onların verilməsi mexanizmlərinin, habelə müasir texniki və texnoloji imkanlardan istifadə etməklə investorlar üçün əlverişli xidmətlərin təşkili, eynilə də xarici iqtisadi fəaliyyət üçün əlverişli şəraitin formalaşdırılması və s. bu kimi istiqamətlərdə təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi misal göstərilə bilər.

Respublikamızda yuxarıda qeyd olunan istiqamətlərdə son dövrlərdə həyata keçirilən və özündə daha çox keyfiyyət dəyişikliklərinə yönəlik məqamları əks etdirən tədbirlər təqdirəlayiqdir. Bu baxımdan, investisiya qoyuluşları sahəsində hüquqi xarakterli problemlərin həlli mexanizminin təkmilləşdirilməsi istiqamətində "Apelyasiya Şuraları"nın təşkili və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qəbul edilmiş qərarlar, habelə lisenziya tələb olunan iqtisadi fəaliyyət növləri və onların verilməsində edilmiş ciddi dəyişikliklər biznes mühitinə öz müsbət təsirini göstərəcəkdir. Digər tərəfdən isə elektron xidmətlər, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə, tranzit yükdaşımaların artırılması, gömrük rejimlərinin təkmilləşdirilməsi, vergitutmaya dair yeni mexanizmlərin işlənməsi və s. bu kimi investisiya mühitinə təsir göstərən sahələrdə həyata keçirilən kompleks tədbirlər özlüyündə müsbətə doğru dəyişikliklər hesab edilir. Təsadüfi deyildir ki, son illər "Doing business" hesabatlarında respublikamız bir sıra göstəricilərə görə MDB ölkələri arasında ilkin yerlərdə qərarlaşır.

Azərbaycan Respublikası iqtisadiyyatında son illərdə baş verməkdə olan hadisə və proseslərin səbəbləri içərisində xarici təsir faktorlarının təsiri danılmazdır. Belə ki, bütövlükdə dünya iqtisadiyyatında, xüsusilə də enerji resursları bazarında baş verən dəyişikliklər ölkə iqtisadiyyatına öz neqativ təsirlərini göstərmişdir. Milli iqtisadiyyatın bu kimi "şoklara" qarşı dayanıqlılığının təmin edilməsi baxımından sağlamlaşdırma tədbirlərinin bir istiqaməti də, şübhəsiz, investisiya mühitinin daha da təkmilləşdirilməsinin təmin edilməsidir. Təsadüfi deyildir ki, qeyd olunan məsələ "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ində müxtəlif aspektlərdən nəzərdə tutulmuşdur. Belə ki, fiskal dayanıqlığın təmin edilməsi, dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, insan kapitalının inkişafı kimi mühüm əhəmiyyətə malik olan hədəflərlə yanaşı olaraq, biznes mühitinin əlverişliliyinin daha da artırılması konkret hədəf kimi nəzərdə tutulmuşdur.

2004-2014-cü illərdə iqtisadi inkişafın əsas amili neft-qaz sektoruna xarici investisiyaların cəlb edilməsi və dövlətin birbaşa və dolayı iştirakı ilə sərmayə qoyuluşu olmuşdur . Bu sahədə mühüm keyfiyyət dəyişikliyinin təmin olunması baxımından, yol xəritəsində xüsusi bölmənin qeyri-neft sektoruna investisiya qoyuluşlarının stimullaşdırılması məqsədilə hökumətin konkret təşviq siyasətinin davam olunması və paralel olaraq institusional xarakterli islahatların reallaşdırılması nəzərdə tutulmuşdur. Başqa sözlə ifadə etmiş olsaq, Strateji Yol Xəritəsində ümumilkdə biznes mühitinin daha da yaxşılaşdırılmasına yönəlik və 11 müxtəlif sektorun (hər bir sektorun ayrılıqda yol xəritəsi müəyyən olunmaqla) inkişaf konsepsiyasını özündə ehtiva edən aşağıdakı məsələlər öz əksini tapmışdır :

- əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi;
- azad rəqabət mühitinin inkişaf etdirilməsi;
- səmərəli vergi sisteminin təşviq edilməsi;
- azad ticarət sazişlərinin bağlanması;
- milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması və onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi.

Beləliklə, yaxın perspektivdə respublikamızda investisiya mühitinin inkişaf etdirilməsi istiqamətində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" konseptual baza rolunu oynamaqla öz müsbət töhvələrini verəcəkdir.

**dos. Söhrab İsayev**

# Xarici tica

# və investesiyaların

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ HƏR HANSI BİR ÖLKƏNİN İQTİSADİ İNKİŞAFI DAXİLİ İQTİSADİ, SOSİAL VƏ İNSTUTSİONAL STRUKTURDAN ASILI OLMAQLA YANAŞI, EYNİ ZAMANDA DA XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏN ASILIDIR.

**dos. Elşən Bağırzadə**



Belə ki, beynəlxalq ticarət nəzəriyyələri və dünyanın iqtisadi inkişaf tarixi göstərir ki, xarici ticarətin genişlənməsi nəticəsində ortaya çıxan sahədaxili və sahələrarası ixtisaslaşma, miqyas effektləri, rəqabətin artması, ölkədaxili inhisarların zəifləməsi, ölkəyə yeni texnologiyaların transferti və bütövlükdə resurslardan daha səmərəli istifadə hesabına iqtisadi inkişaf sürətlənir. Bu baxımdan dövlətlərin xarici ticarətdən iqtisadi inkişaf istiqamətində daha effektli istifadə etmək məqsədilə tətbiq etdikləri idxalı əvəzləyən və ixrac yönümlü strategiyalar mövcuddur. İdxalı əvəzləyən strategiyalar daha çox "böyük iqtisadiyyatlar"da inkişafın ilk mərhələlərində fayda verir. İxrac yönümlü strategiyalar isə daxili bazar həcmləri məhdud olan "kiçik iqtisadiyyatlar" üçün daha effektli hesab olunurlar.

Hazırda makroiqtisadi stabilliyin mühüm elementi olan valyuta gəlirlərinin uzunmüddətli dövrdə davamlılığının təmin olunması baxımından ixrac gəlirlərinin artırılması və neftdən asılılığının azaldılması istiqamətində Azərbaycan hökuməti tərəfindən yeni aktiv xarici ticarət strategiyası həyata keçirilir. "Daha asan ticarətin daha çox ticarət, daha çox ticarətin isə daha sürətli iqtisadi artım və iqtisadi inkişaf doğurması" prinsipinə əsaslanan bu yeni strategiyada Azərbaycanın "kiçik iqtisadiyyat" olma xarakteri də nəzərə alınaraq idxalı əvəzləyən və ixrac yönümlü iqtisadi inkişaf strategiyalarının optimal kombinasiyasından istifadə nəzərdə tutulur. Qəbul edilmiş strateji yol xəritələri göstərir ki, ortaya qoyulan bu yeni xarici ticarət strategiyası ixracın genişləndirilməsi, daxili bazarın qorunması və ticarət gəlirlərinin ölkə daxilində ədalətli bölüşdürülməsi prinsiplərini gözləməklə xarici ticarətin liberallaşdırılmasına əsaslanır. Eyni zamanda da təhlilimiz göstərir ki, qeyd olunan xarici ticarət strategiyasında əsas reallaşdırma vasitələri kimi aşağıdakılar seçilmişdir:

1. Xarici bazarlara çıxışın təmin edilməsi üçün bazarların təhlili və dəyər zəncirində mövqelərin gücləndirilməsi üzrə aparılan qiymətləndirmələrə əsaslanan azad ticarət sazişlərinin bağlanması, viza rejiminin sadələşdirilməsi, texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması;

2. Ölkənin tranzit ticarətdən aldığı payın artırılması məqsədilə Şərq-Qərb və Şimal-Cənub dəhlizi üzrə milli iqtisadiyyatın nəqliyyat-logistika aktivlərinin daim inkişaf etdirilməsi və rəqabətədavamlılığının təmin edilməsi;

3. MDB ölkələri, Türkiyə, Gürcüstan və İran kimi mühüm region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının formalaşdırılması;

4. Ticarətin asanlaşdırılması, keyfiyyətin dəqiq qiymətləndirilməsi, eləcə də ixrac edilən malların rəqabətədavamlılığı üçün Azərbaycan

# rət
# təşviqi






şirkətlərində beynəlxalq standartlar və sertifikatların tətbiqinin stimullaşdırılması;

5. İxrac yönümlü istehsal sahələrinə qarşılıqsız pul yardımları, aşağı faizli kreditlər, "vergi qaytarılması" kimi maliyyə təşviqlərinin verilməsi;

6. İxrac firmalarının beynəlxalq bazar araşdırmalarına dəstək verilməsi, ölkə ixracçıları və ixrac yönümlü istehsal sahələri ilə bağlı mükəmməl informasiya bazalarının formalaşdırılması;

7. Beynəlxalq bazarlarda "Made in Azerbaijan" brendinin təşviqi üzrə kompleks və sistemli tədbirlərin həyata keçirilməsi;

8. Gündəlik tələbat malları üzrə yerli istehsalın stimullaşdırılması və bu sahədə idxalı mümkün ölçüdə əvəzləmək məqsədilə aktiv gömrük siyasətindən istifadə edilməsi.

Təhlilimiz göstərir ki, qeyd olunan strategiya dünya təcrübəsində mövcud olan analoji uğurlu strategiyaların demək olak ki, bütün elementlərini özündə birləşdirir. 17 aprel 2017-ci il tarixində Yevlax şəhərində keçirilən "Qeyri-neft ixracatçılarının Respublika müşavirəsi"ndə ictimaiyyətə təqdim edilən məlumatlar da göstərir ki, Azərbaycan hökumətinin həyata keçirdiyi yeni xarici ticarət strategiyası qısa müddət ərzində artıq müsbət nəticələrini verir. Belə ki, cari ilin ilk rübündə iqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz, qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı isə 3,5 faiz artmışdır. Üç ay ərzində səksən mindən çox yeni iş yeri yaradılmış, xarici ticarət dövriyyəsi 15 faiz, ixrac 50 faiz, qeyri-neft ixracı 8,6 faiz artmış, idxal isə 17 faiz azalmışdır. Eləcə də kənd təsərrüfatı məhsullarının ixracı 44 faiz, sənaye məhsullarının ixracı isə 25% artmışdır. Nəticədə tədiyyə balansının cari əməliyyatlar hesabı 1 milyard dollardan artıq müsbət saldo vermişdir. Fikrimizcə, qeyd olunan strategiyanın uğurla davam etdirilməsi qarşıdakı dövrlərdə də müsbət nəticələrini verəcəkdir. Eyni zamanda onu da qeyd etməliyik ki, həyata keçirilən bu strategiyanın uğurlarını daha da artırmaq məqsədilə paralel olaraq, ölkəyə xarici investisiyaların cəlb edilməsi istiqamətindəki tədbirlərin də genişləndirilməsi zəruridir. Əgər davamlı olaraq qeyri-neft ixracı artarsa, ölkəyə xarici investisiya axını genişlənərsə, o zaman idxalın müəyyən qədər artması da iqtisadiyyatda hər hansı bir çətinlik yaratmaz. Hətta, deyərdim ki, investisiya məhsulları hesabına artan idxal orta və uzunmuddəli dövrdə ölkənin iqtisadi inkişafına da xidmət etmiş olar.

**<< önəmli**

**XARİCİ TİCARƏT STRATEGİYASI İNVESTİSİYALARIN STİMULLAŞDIRILMASI TƏDBİRLƏRİ İLƏ BİRLİKDƏ DAHA UĞURLU OLA BİLƏR**

# AZƏRBAYCAN BRENDİ

## İLƏ XARİCİ BAZARLARA ÇIXARILACAQ QEYRİ-NEFT SEKTORU MƏHSULLARININ ARTIRILMASI İMKANLARI

əməkdar elm xadimi, i.e.d., prof. **A.Ş.Şəkərəliyev**

Azərbaycanda son dövrdə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş həcmli tədbirlər görülmüş, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş, çoxlu sayda Prezident Fərmanları və Sərəncamları verilmiş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. Xüsusi olaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 16 mart 2016-cı ildə təsdiq etdiyi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" ölkəmizdə qeyri-neft sektorunun inkişafında müstəsna rol oynayan bir strateji sənəddir. Bu strategiya Azərbaycanda qeyri-neft sektorunun mövcud durumunu, inkişaf potensialını, qeyri-neft sektorunun inkişafında hökumətin rolunu, maraqlı tərəflər arasında potensial əməkdaşlıq formalarını, bu əməkdaşlığın uğurla həyata keçirilməsi metodlarını və bir sıra digər mühüm inkişaf istiqamətlərini əks etdirən çox vacib sənəddir. Hal-hazırda qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib-hazırlanmış və reallaşdırılmışdır. Belə ki, regionların inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilmiş, lizinq yolu ilə texniki təminat təşkil edilmiş, gübrələrlə təchizat sistemi yaradılmış, inşaat, turizm, informasiya texnologiyaları, anbarlar istifadəyə verilmiş, yollar çəkilmiş, modern müəssisələr istismara verilmiş, biznes layihələri üzrə güzəştli kreditlər ayrılmış və s. stimullaşdırıcı tədbirlər görülmüşdür. Bütün bunlara baxmayaraq, qeyri-neft sektoru hələlik davamlı və yüksək artım sürəti toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azaldılmasını təmin etməmiş və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemləri tam həll edə bilməmişdir.

**"MADE IN AZERBAIJAN"** brendinin xarici bazarlarda təbliğinə, yeni məsələlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər olmasına, ixracla əlaqəli çəkilən xərclərin dövlət büdcəsindən ödənilməsi nəzərdə tutulur.



Azərbaycanın beynəlxalq miqyaslı ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasıdır. Ölkə ixracının quruluşunda rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidinin məhdudluğu ciddi problem olaraq qalmaqdadır. Bir çox ənənəvi sənaye sahələrinin ixrac potensialından (kimya, neft və neft-kimya maşınqayırması, metallurgiya və s.) zəif istifadə davam edilir. Güclü ixrac potensialına və bu sahədə beynəlxalq müqayisəli üstünlük komponentlərinə malik olan bir sıra kənd təsərrüfatı və aqrosektor məhsullarının ixrac potensialının cüzi bir hissəsi dövriyyədədir (təzə tərəvəz və meyvələr, üzüm şərabı, bitki yağları və s). Ölkənin qeyri-neft sektorunun ixrac potensialının ümumi vəziyyəti ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır. Bu sahənin inkişafının sürətləndirilməsi, ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin, dövlət dəstəyi mexanizmlərinin mövcudluğuna baxmayaraq, bu işlərin səmərəliliyi aşağıdır. Sahənin ixrac potensialının daha obyektiv qiymətləndirilməsi və səmərəli ixrac istiqamətlərinin müəyyənləşdirilməsi problemləri həll edilməmiş qalmaqdadır.

Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının

obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir.

Azərbaycanın qeyri-neft sektorunun inkişaf meyilləri, onun ixrac potensialından istifadənin tənzimlənməsi problemləri, xarici ticarətin strukturunun diversifikasiyalaşdırılması, ixracın, xüsusilə qeyri-neft ixracının stimullaşdırılması, ixrac əməliyyatlarının sadələşdirilməsi, genişləndirilməsi, bu sahəyə investisiyaların cəlb edilməsi ilə sıx bağlıdır.

Azərbaycanda qeyri-neft sektorunun müasir vəziyyəti bu sahənin diversifikasiyalaşdırılmasının intensivləşdirilməsi ilə xarakterizə edilsə də, təəssüf ki, bu proseslər sektorun potensialının cüzi bir hissəsi kimi çıxış edir. Qeyri-neft sektorunun ölkə ÜDM-dəki və digər makroiqtisadi göstəricilərdə artım dinamikasının intensivləşdirilməsi üçün, ilk növbədə, bu sahənin ixrac potensialının genişləndirilməsi zəruridir.

Hal-hazırda ölkəmizdə qeyri-neft sektorunda istehsal edilən bəzi məhsullar dünyanın bir sıra ölkələrinə ixrac edilir. Respublikamızdan ixrac edilən məhsullar alıcıların geniş marağına səbəb olub. Belə ki, artıq gələcəkdə "Made in Azerbaijan" adı altında istehsal və ixrac olunan məhsullar dünya bazarında layiqli yerini tutacaqdır. Məhz buna görə də respublikada ayrı-ayrı qeyri-neft sektoru sahələrinin ciddi potensiala malik ixrac yönümlü məhsulların istehsalının təşkili və xarici bazarlara çıxarılması məsələləri diqqətlə öyrənilməli, dünya təcrübəsinin tətbiqinə geniş yer verilməli, milli iqtisadiyyatın inkişaf xüsusiyyətləri nəzərə alınmalı, ölkənin xarici ticarət konsepsiyasının daha işlək, səmərəli fəaliyyət mexanizmləri hazırlanmalı və həyata keçirilməlidir.

Hal-hazırda Azərbaycan brendi ilə "Gilan construction materials" qrupunun, "Az Nar" konserninin, Azərbaycan şərabları, konservləri, balıq kürüsü, qoz, fındıq, çay, şirniyyat məhsulları xarici ölkələrə ixrac edilir. Gələcəkdə xarici ölkələrin bu məhsullara olan tələbatı bu çeşidin daha da çoxaldılmasına səbəb olacaqdır.

Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı məsələləri "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndə özünün geniş izahını tapıb.

Belə ki, Ölkə Prezidenti İlham Əliyev ölkədə kiçik və orta sahibkarlığı inkişaf etdirmək üçün Prezidentin ehtiyat fondundan İqtisadiyyat Nazirliyinə 3 milyon manat vəsait ayırıb. Bu vəsait ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı üçün maliyyə dəstəyi rolunu oynayır.

Hal-hazırda Azərbaycan məhsullarının xarici ölkə bazarlarına çıxarılması üçün reklam, marketinq məsələlərinə

## MADE IN AZERBAIJAN





xüsusi diqqət yetirilir. "Made in Azerbaijan" brendinin xarici bazarlarda təbliğinə, yeni məsələlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər olmasına, ixracla əlaqəli çəkilən xərclərin dövlət büdcəsindən ödənilməsi nəzərdə tutulur. Bu işlər Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fonduna (AzPROMO) həvalə edilib.

Bu işdə məhsulların beynəlxalq sərgi və yarmarkalarının təşkili, KİV-lərdə reklamların aparılması olduqca vacibdir. Bundan əlavə, Azərbaycan məhsullarının xarici ölkələrin mağaza şəbəkələrinə və rüsumsuz ticarət mağazalarına çıxışını təmin etmək üçün vəsaitlər dövlət büdcəsindən maliyyələşdirilir. Hal-hazırda qarşıda qoyulan əsas vəzifə qlobal iqtisadi mühitdə xam neft, təbii qaz ixracının verdiyi maliyyə imkanlarından bəhrələnərək, geniş çeşidli, dayanıqlılıq və rəqabət qabiliyyətlilik meyarlarına söykənmiş qeyri-neft malları ixracı potensialının yaradılmasıdır. Başqa sözlə, "ixrac strategiyasının qurulması zamanı karbohidrogen və qeyri-karbohidrogen ixracının optimal tarazlaşdırılması vacib şərtdir" prinsipi nəzərə alınmalıdır. Bu məqsədlə, Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi yollarının çoxvektorluluğu əsas prioritet kimi götürülməlidir.

i.e.n.,dos. Ə.V.Hacıyev

# AĞIR SƏNAYENİN 2020

## REGİONAL BAZARDA PAYININ ARTIRILMASI POTENSIALI

ARALIQ HƏDƏFLƏR

### AĞIR SƏNAYE

sahəsində əmək məhsuldarlığının 20 faizədək artırılması

məhsul istehsalında zay məhsul istehsalının 17 faiz azaldılması

**AZƏRBAYCAN RESPUBLİKASINDA AĞIR SƏNAYE VƏ MAŞINQAYIRMANIN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİNDƏ" 2020-ci İLƏDƏK AĞIR SƏNAYE VƏ MAŞINQAYIRMA SEKTORUNA STRATEJİ BAXIŞ AŞAĞI VƏ ORTA DƏYƏR MƏHSULLARI SEQMENTİNDƏ AĞIR SƏNAYE VƏ MAŞINQAYIRMA MÜƏSSİSƏLƏRİNİN DAXİLİ İRİ İSTEHLAKÇILARIN EHTİYACLARININ DAHA BÖYÜK HİSSƏSİNİ ÖDƏMƏLƏRİNƏ NAİL OLMAQ, REGİONAL BAZARDA AZƏRBAYCAN MƏHSULLARININ PAYINI ARTIRMAQDIR.**









Bu dövrdə strateji baxışa uyğun olaraq cari dəyər zənciri boyu ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün ağır sənaye və maşınqayırma sahəsi iqtisadiyyatın təməl sütunlarından birinə çevriləcəkdir. 2020-ci ilədək bu məqsədlərə nail olmaq üçün nəzərdə tutulmuş ilkin aralıq hədəflər aşağıdakı kimi müəyyən edilmişdir:

- ağır sənaye sahəsində əmək məhsuldarlığının 20 faizədək artırılması;
- məhsul istehsalında zay məhsul istehsalının 17 faiz azaldılması;
- 2020-ci ilədək fəaliyyət göstərməyən ən azı 5 müəssisənin işə salınması və rəqabət qabiliyyəti zəif olan 10 müəssisənin istehsal yönümünün dəyişdirilməsinə nail olunması.

Regional bazarda Azərbaycan məhsullarının payının artırılması üçün aşağıdakı strateji hədəflər müəyyən olunmuşdur: mövcud aktivlərin

ARALIQ HƏDƏFLƏR

### YENİ TİP MÜƏSSİSƏLƏR

2020-ci ilədək fəaliyyət göstərməyən ən azı 5 müəssisənin işə salınması və rəqabət qabiliyyəti zəif olan 10 müəssisənin istehsal yönümünün dəyişdirilməsinə nail olunması

optimallaşdırılması, rəqabətədavamlı sektorun yaradılması və maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Bunların içərisində rəqabətədavamlı sektorun yaradılmasının əhəmiyyətini xüsusi olaraq vurğulamaq lazımdır. Çünki rəqabətə davamlı sektorun yaradılması hədəfi regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması, ixrac potensialının artırılması və idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi ilə bilavasitə əlaqədardır.

Hazırda beynəlxalq təmayüllərlə müqayisədə Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsində mövcud olan imkanlarının reallaşdırılması üçün daha intensiv tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir. Nəzərə alınmalıdır ki, qabaqcıl ölkələr artıq yeni "Sənaye 4.0" mərhələsinə daxil olmuşlar. Bu sahəyə investisiya qoyuluşunun daha da artırılması, texnoloji avadanlıq və istehsal proseslərinin yenilənməsi, əmək məhsuldarlığının artırılması, həmçinin ümumi satışda innovativ məhsulların payının beynəlxalq göstəricilər səviyyəsinə qaldırılması aktualdır.

Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsi regional dəyər zəncirlərində qismən iştirak etdiyinə görə, regional bazarlara ixrac həcmi yüksək deyildir. Ölkənin, ilk növbədə, dəyər zəncirinin hansı seqmentlərinə inteqrasiya edilməsini müəyyənləşdirərkən bazarın cəlbediciliyi, rəqabətədavamlılıq və rentabellilik kimi amillər rəhbər tutulmalıdır. Digər tərəfdən, ölkə sənayesinin mövcud potensialı, qeyd olunan malları qısa zamanda istehsal edəbilmə imkanları nəzərə alınmalıdır.

Dəyər zəncirində iştirak üçün regional tələb həcmi və rəqabətqabiliyyətliliyi yüksək olan sektorlar üzərində mərkəzləşmə, beynəlxalq təcrübəyə əsasən, daha münasib strategiya hesab edilir. Əlavə dəyəri yüksək hesab edilən premium mallara ölkənin yerləşdiyi region nöqteyi-nəzərindən xüsusi növ polad, maşın və avtomobil, ehtiyat hissələr, yarımfabrikatlar, nəqliyyat avadanlıqları, kompressorlar, nasos, kran, klapan hissələri kimi malları aid etmək mümkündür. Bu məhsulların böyük həcmdə keyfiyyətli istehsalı üçün ölkə sənayesində mövcud potensial qiymətləndiriləcək və müvafiq tədbirlər nəzərdən keçiriləcəkdir.

Azərbaycanda regional tələbin və rəqabətədavamlılıq səviyyəsinin yüksək olduğu sektorlar qlobal dəyər zəncirində regiona fokuslaşmaqla iştirak etmək imkanına malikdir. Rəqabətədavamlı məhsul istehsal etmək üçün diqqət, ilk növbədə, çox tələb olunan spesifik məhsulların (məsələn, xüsusi növ polad) və spesifik yarımfabrikatların (məsələn, maşınqayırma və avtomobil hissələrinin) dəyər zəncirində iştirakına yönəldilə bilər. Nəqliyyat maşınqayırması və digər ağır sənaye məhsullarına regionda (məsələn, Rusiyada, Türkiyədə, Gürcüstanda, Qazaxıstanda və s.) böyük tələbat vardır.

Əlbəttə ki, qlobal elmi-tədqiqat məhsullarının dəyər zəncirində iştirak üçün də imkanlar vardır. Burada əsas prioritet Azərbaycanın qlobal dəyər zəncirinə inteqrasiyasının təmin edilməsi və bu zaman əsas diqqətin yarımfabrikatların və hazır məhsulların, o cümlədən nəqliyyat vasitələri və onların ehtiyat hissələrinin istehsalına yönəldilməsidir. Eyni zamanda, region ölkələrinə ixrac məqsədləri üçün yerli istehsalın miqyası genişləndirilə bilər ki, buna da, ilk növbədə, güclü yerli təsərrüfat subyektlərinin formalaşdırılması vasitəsilə başlana bilər. Uzunmüddətli perspektivdə qlobal miqyaslı elmi-tədqiqat məhsullarının istehsalı həyata keçirilə bilər.

Ağır sənaye və maşınqayırmanın regional bazarda payının artması potensialının reallaşdırılması üçün ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması zəruridir.

Daxili imkanların və regional bazarın təhlili nəticəsində, əsaslandırmada sözügedən mallar daxil olmaqla, ölkədə istehsal edilə biləcək, əlavə dəyər zəncirində nisbətən yüksək yer tutan və regional rəqabət qabiliyyətinə malik malların ümumi siyahısı



# Sənaye 4.0 mərhələsi

**İXRAC PERSPEKTİVİ OLAN MALLARIN SİYAHISININ HAZIRLANMASI VƏ TƏHLİLLƏR APARILMASI ZƏRURİDİR**

2025

# statistika

2014-CÜ İLDƏ AĞIR SƏNAYE VƏ MAŞINQAYIRMA MƏHSULLARI ÜZRƏ 4 MİLYARD 300 MİLYON MANAT HƏCMİNDƏ YERLİ TƏLƏBAT İDXAL HESABINA TƏMİN EDİLMİŞDİR

STRATEJİ HƏDƏFLƏR

## REGİONAL BAZARDA

Azərbaycan məhsullarının payının artırılması üçün aşağıdakı strateji hədəflər müəyyən olunmuşdur: mövcud aktivlərin optimallaşdırılması, rəqabətədavamlı sektorun yaradılması, maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

hazırlanacaqdır. Hazırlanmış siyahı üzrə Azərbaycanda rəqabətli şəkildə istehsal edilə biləcək məhsullar (məsələn, yerli xammal hesabına və yüksək texnologiya tələb etmədən istehsal oluna bilən məhsullar) müəyyənləşdiriləcəkdir. Bu növ məhsullara nümunə kimi boruları, klapanları, nasosları və kompressorları göstərmək olar.

İdxalın əvəzedilməsi fəaliyyətinin dəstəklənməsi də öz növbəsində ağır sənayenin regional bazarda payının artırılmasının mühüm prioritetlərindəndir. Buna görə də Azərbaycanda yerli tələbata əsaslanan yanaşma işlənib-hazırlanmaqla əsas diqqət yarımfabrikatların (aralıq məhsulların) və son istehlak məhsullarının istehsalına yönəldiləcəkdir. Statistik məlumatlara əsasən, 2014-cü ildə ağır sənaye və maşınqayırma məhsulları üzrə 4 milyard 300 milyon manat həcmində yerli tələbat idxal hesabına təmin edilmişdir. İdxal olunan sənaye maşın və avadanlıqlarının dəyəri 800 milyon ABŞ dollarına bərabər olmuşdur. Daha ətraflı təhlil predmeti olacaq məhsullara aşağıdakıları misal göstərmək olar: qızıl, maşın hissələri, nasos və kompressorlar, borular üçün klapan və digər cihazlar, boru və borucuqlar, yayma məmulatları (prokatlar), elektrik maşın və avadanlıqları, onların hissələri.

İdxalın yerli istehsalla əvəzlənməsi yerli rəqabətədavamlı şirkətlərə dəyər zəncirinə şaquli inteqrasiya üçün tələb olunan investisiya yatırımlarını həyata keçirə bilmələrindən ötrü kreditlərin verilməsi, məhsul portfelinin tərkibinin genişləndirilməsi, şaquli inteqrasiya məqsədilə seçilmiş sektorlara mütəxəssislərin cəlb edilməsinə maliyyə vəsaitinin ayrılması, yerli istehsala xarici, birbaşa investisiyaların cəlb edilməsi yolu ilə təmin olunacaqdır.

Azərbaycanın dəyər zəncirində iştirakına dəstək ola biləcək digər tədbirlərə məhsullar və sektorlar üzrə hərtərəfli qiymətləndirmə aparılması, seçilmiş ilkin pilot sektorların və layihələrin müəyyən edilməsi, kreditlərin restrukturizasiyası və ya stimullaşdırılması məqsədilə maliyyə mexanizmlərinin təklif olunması, ixtisaslı kadrların cəlb edilməsi istiqamətində tədbirlər görülməsi (məsələn, iş vizası tələblərinin azaldılması) aid ola bilər.

Azərbaycanda ağır sənaye və maşınqayırma müəssisələri idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi baxımından güclü imkanlara malikdir. Bu baxımdan, "İcra hakimiyyəti orqanlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların fəaliyyətində satınalmaların səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 sentyabr tarixli 1046 nömrəli Fərmanı yerli maşınqayırma məhsullarına tələbatın artmasına ciddi təsir göstərəcəkdir.

Bununla belə, 2015-ci ildə ölkəyə idxal olunan bütün mal və məhsulların təqribən 57 faizi qara metallar və onlardan hazırlanan

məmulatlar, maşın, mexanizm, elektrik aparatları, avadanlıqları və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri olmuşdur. Həmçinin, neft maşınqayırması ilə əlaqədar avadanlıq, modul və komponentlərin əksər hissəsi idxal edilir.

Eləcə də tekstil istehsalı avadanlığı, çap maşınları, yeyinti və qablaşdırma avadanlığı, ağac emalı avadanlığı, mal və material yükləmə avadanlığı ölkəyə idxal edilən maşın və avadanlıqların strukturunda üstünlük təşkil edir. Tikinti materialları, tikinti maşın və avadanlığı, mədən maşın və avadanlığı, nasos və kompressorlar, mal və material yükləmə avadanlığı və ya onların tərkib hissələrinin və komponentlərinin yerli istehsalla əvəz edilməsi ilkin mərhələdə daha perspektivli görünür.

Ölkə iqtisadiyyatında əhəmiyyətli payını, eləcə də ağır sənaye və maşınqayırma məhsullarından asılılığını nəzərə alaraq, təhlil edilmiş mal kateqoriyaları üzrə dörd sektor – mədənçıxarma (ilk növbədə neft-qaz sektoru), kənd təsərrüfatı, dövlətin nəzarətində olan təbii inhisarlar və müdafiə sənayesi – 2020-ci ilədək olan dövrdə ağır sənaye və maşınqayırmada istehsalın lokomotivi qismində çıxış edə bilər.

Hazırda neft və qaz sənayesinin dəyər zəncirində xeyli ağır sənaye və maşınqayırma məhsulundan istifadə olunur. Onlardan bəzilərinin, məsələn, buruq, nasos, kompressor, daşıma və emal üçün maşın və avadanlıqların Azərbaycanda istehsal olunmasına baxmayaraq, neft-qaz sektorunun dəyər zəncirinin bütün seqmentlərində yerli istehsalın iştirakının genişləndirilməsi üçün potensial mövcuddur. Elektrik maşın və avadanlıqları istehsalı sahəsində də oxşar vəziyyət mövcuddur. Ötürücü və paylama sisteminin təşkilində Azərbaycanın müəyyən maşın və avadanlıqları iştirak edir, lakin elektrik enerjisinin istehsalı və pərakəndə satış mərhələlərində də ölkənin milli maşın və avadanlıqla iştirak potensialı vardır.

Bununla belə, ölkədə inkişaf etmiş neft-qaz sektoru kimi iri təchizatçının olmasına baxmayaraq, maşınqayırma sektorunun daha da inkişafı üçün potensial imkanlar mövcuddur. Ölkənin neft-qaz sahəsində fəaliyyət göstərən transmilli şirkətlərin yerli maşınqayırma məhsullarının istehsalçıları ilə istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi beynəlxalq standartlara və bununla da təchizat tələblərinə uyğunluğunun təmin edilməsi məqsədilə birgə əməkdaşlıq səylərini və əlaqələndirməni həyata keçirməsi bu sahədə olan məsələlərin həllinə əhəmiyyətli dərəcədə kömək edə bilər. Yerli məhsulların imici və sifarişçilər arasında tanınması da yeni tələblər nəzərə alınmaqla həyata keçirilməlidir. Eyni zamanda, yerli müəssisələrin əksəriyyəti yüksək texnoloji həll tələb edən kompleks avadanlıq istehsalını da yetərli səviyyədə mənimsəməlidirlər.

Beləliklə, aparılmış təhlil göstərir ki, ağır sənayenin regional bazarda payının artması potensialının reallaşdırılması üçün öncə:

- İdxalı yerli istehsalla əvəzlənə bilən məhsulların müəyyən edilməsi;
- Milli kontentin normativ bazasının gücləndirilməsi;
- Maşın və avadanlıq, qoşqu və yarımqoşqular, elektrik avadanlığı və digər nəqliyyat vasitələri istehsalı üzrə sahəvi işçi qrupların yaradılması və fəaliyyətinin təmin edilməsi;
- Neft maşınqayırması sahəsində birgə istehsal sahələrinin yaradılması;
- Müdafiə sənayesi sahəsində birgə istehsal güclərinin yaradılması zəruridir.

Qeyd edilən tədbirlərin tam həcmdə icrasının 2020-ci ildə real ÜDM-in 145 milyon manat artmasına və 5700 yeni iş yerinin açılmasına səbəb olacağı proqnozlaşdırılır.

## idxalın əvəzedilməsi istiqamətləri

Yerli tələbata əsaslanan yanaşma işlənib hazırlanmaqla əsas diqqət yarımfabrikatların (aralıq məhsulların) və son istehlak məhsullarının istehsalına yönəldiləcəkdir.

Tikinti materialları, maşın və avadanlığı, mədən maşın və avadanlığı, nasos və kompressorlar, yükləmə avadanlığı və ya onların tərkib hissələrinin və komponentlərinin yerli istehsalla əvəz edilməsi ilkin mərhələdə daha perspektivli görünür.

Neft-qaz sektorunun dəyər zəncirinin bütün seqmentlərində yerli istehsalın iştirakının genişləndirilməsi üçün potensial mövcuddur.

YERLİ MƏHSULLARIN İMİCİ VƏ SİFARİŞÇİLƏR ARASINDA TANINMASI DA YENİ TƏLƏBLƏR NƏZƏRƏ ALINMAQLA HƏYATA KEÇİRİLMƏLİDİR.

RAMİL CABBAROV

# SƏNAYEMİZ BRENDLƏRİ NECƏ CƏLB EDƏ BİLƏR?

ABŞ VƏ AVROPA BRENDLƏRİNİN AZƏRBAYCANDA NÜMAYƏNDƏLİKLƏRİNİ YARATMASI VƏ ÖLKƏ ƏHALİSİNİ POTENSİAL MÜŞTƏRİ QİSMİNDƏ DƏYƏRLƏNDİRMƏSİ AŞKAR GÖRÜLMƏKDƏDİR.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərində xüsusi vurğulanan məqamlardan biri kimi məhz Azərbaycanda dayanıqlı iqtisadi artımı təmin edəcək investisiya qoyuluşlarını təşviq edilməsi, o cümlədən ölkədə əlverişli biznes mühiti təmin edilməsi və özəl sahibkarlığın inkişafı daha da stimullaşdırılması qeyd edilmişdir.

Bu anlamda ölkədəki bazar şərtlərinin qlobal brendlər üçün maraqlı ola biləcək şəkildə qurulması ehtiyacı ortaya çıxmış olur. Sənayenin ayrı-ayrı sektorlarının cari vəziyyətini marketinq prizmasından təhlil etdikdə aydın olur ki, dünyaca məşhur brendlərin Azərbaycana maraqlarının artımı sezilir. Son illərdə ABŞ və Avropanın öndə gələn brendlərinin Azərbaycanda nümayəndəliklərini yaratması və ölkə əhalisini potensial müştəri qismində dəyərləndirməsi aşkar görülməkdədir. Davam edən proseslər fonunda bu marağın sürətləndirilməsi ilə biznes mühitinin yaxşılaşdırılması uzlaşmış şəkildə davam edəcəyi gözlənilməkdədir.

Qlobal brendlərin hər bir bazar üçün özəl tələblərinin olduğu aşkardır. Qərb şirkətlərinin bazara daxilolma prinsiplərinin əsasında dayanan məqamlar arasında vergi-gömrük idarəetməsinin keyfiyyəti, azad rəqabət mühitinin təmini, o cümlədən dövlət sektorunun kommersiya fəaliyyətinin minimumlaşdırılması mövcuddur. Strateji Yol Xəritəsində xüsusilə diqqət çəkilən bu məqamların reallaşdırılması ilə qlobal brendlərin Azərbaycan sənayesinə uzunmüddətli perspektiv nəzəri ilə baxışı proqnozlaşdırılır. Əsas iqtisadi indikatorların müsbət göstəricilərinin artım dinamikası ilə paralel olaraq, dünyanın aparıcı brendləri üçün strateji məqamlardan hesab oluna bilər.



# "WİN-WİN" MODELİNİN TƏDBİQİ ZƏRURİDİR

Bazara daxilolma məhdudiyyətlərinin minimuma endirilməsi və dövlət tənzimlənmə mexanizmlərinin effektivliyinin artırılması, həmçinin mütərəqqi hüquqi bazanın yaradılması fonunda qlobal brendlər ölkə sənayesində təmsil olunması istəyi ciddi şəkildə artım yarada bilər. Bundan əlavə olaraq, qlobal brendlərin ölkəyə investisiya qoyuluşunda maraqlı tərəf kimi yerli bazarda əlavə imtiyazların verilməsi məqsədəuyğun hesab edilə bilər. Dünya səviyyəli şirkətlərin ölkədə marketinq və reklam fəaliyyəti üçün güzəştli prinsiplərin tətbiqi bu addımlardan biri kimi misal ola bilər. Brend nüfuzunun qorunması, imicin formalaşdırılması, təlbiğat-təşviqat işlərinə çəkilən xərclərin azaldılması ilə şirkətlər yerli bazarda daha dayanıqlı strategiyalarının tətbiqini reallaşdırmaq imkanına sahib olacaqdır. Bu da öz növbəsində sənayedəki qlobal brendlərin universiteti" statusu qazanılmış olur, həm də qlobal brendlər üçün bazar mühitini daha yaxşı anlamağa zəmin yaradacaq, araşdırma və təkmilləşdirmə (R&D) istiqaməti müəyyən edəcəkdir.

Ölkə iqtisadiyyatında canlanma yarada biləcək qlobal brendlərin sənayeyə cəlb edilməsinin bir digər istiqaməti isə yerli şirkətlərlə müştərək fəaliyyətdir. Belə ki, stimullaşdırıcı şərtləri təmin etməklə həm müştərək bizneslərin qurulması, həm də birbaşa investisiya ilə brendlərin istehsalı qurulması mümkündür. "Win-Win" modeli üzərində düşündükdə həm yerli sahibkarların qlobal markalarla bağlı təcrübəsi yaranır, həm də xarici şirkətlərin lokal bazarda qarşılaşa biləcəyi maneələrdə riskli addımları minimumlaşdırılmış olur.

Bir digər stimullaşdırıcı istiqamət isə qlobal brendlərə "vasitəli ixrac" sisteminə təşviq etməkdir. Başqa sözlə desək, bazardakı şirkətlərin mövcud distrübusiya kanallarından istifadə etməklə yerli bazara daha məsrəfli giriş strategiyasının əldə olunması qlobal brendlər üçün ciddi maraq kəsb edə bilər.




**Qlobal şirkətlərin bazara daxilolma prinsiplərinin** əsasında dayanan məqamlar arasında vergi-gömrük idarəetməsinin keyfiyyəti, azad rəqabət mühitinin təmini, o cümlədən dövlət sektorunun kommersiya fəaliyyətinin minimumlaşdırılması mövcuddur. Strateji Yol Xəritəsində xüsusilə diqqət çəkilən bu məqamların reallaşdırılması ilə qlobal brendlərin Azərbaycan sənayesinə uzunmüddətli perspektiv nəzəri ilə baxışı proqnozlaşdırılır. Əsas iqtisadi indikatorların müsbət göstəricilərinin artım dinamikası ilə paralel olaraq, dünyanın aparıcı brendləri üçün strateji məqamlardan hesab oluna bilər.

Göstərilən bir sıra məqamlar qlobal brendlərin ölkə sənayesinə cəlbinin baza istiqaməti olmaqla yanaşı, gələcək addımların strateji istiqamətini də müəyyən etməyə yardım edəcəkdir. Əminliklə qeyd etmək olar ki, Azərbaycanın regionda və dünya bazarlarında investisiya qoyuluşu baxımından səmərəli ölkə kimi brendləşməsinin sürətləndirilməsi ilə qlobal brendlərin diqqətini özünə çəkməyə nail olacaqdır.

# qlobal KİMYA SƏNAYESİ

DƏYƏR ZƏNCİRİNƏ İNTEQRASİYA İSTİQAMƏTLƏRİ

dos. S.M.Məmmədov, dos. L.A.Həmidova



HAZIRDA DÜNYA TİCARƏTİNİN DEMƏK OLAR Kİ, 80%-Ə QƏDƏRİ QLOBAL DƏYƏR ZƏNCİRLƏRİNİN PAYINA DÜŞÜR

Qlobal əlavə dəyər zənciri coğrafi əlamətlər üzrə mövcud nisbi rəqabət üstünlüyünə əsasən ticarətin, investisiya və istehsal proseslərinin bölünməsinə təkan verir. QDZ-də iştirak istehsal olunan əmtəələrə çəkilən xərclərin azaldılması yolu ilə rəqabətqabiliyyətliyin yüksəldilməsinə imkan verir. Prinsipcə qlobal bazarlarda hər bir ölkənin rəqabət üstünlüyünün təmin olunması iki yolla mümkündür:

- iqtisadiyyatın şaxələnməsi üzrə səylərin artırılması. Bu əməktutumlu yol olmaqla xərctutumlu və uzun müddət tələb edir;
- istehsal kooperasiyası sahəsində bir sıra dövlətlərin inteqrasiya səyləri. Bu analoji inteqrasiya quruluşunda bütün iştirakçı ölkələr üçün daha faydalı yoldur.

Azərbaycan üçün mövcud və formalaşan QDZ-nə fəal qoşulması strategiyasının işlənilməsi və mümkün imkanlardan istifadə etməklə xüsusi QDZ-nin yaradılmasına alternativ mövcud deyildir.

Azərbaycan üçün hər iki yolun bərabər istifadəsi ideal hesab edilə bilər: milli iqtisadiyyatın şaxələndirilməsinin ardıcıl inkişafı əsasında və onun rəqabət üstünlüyünün gücləndirilməsi – bu həlqələrdə mövqeyini daha faydalı dəyişməsi, həmçinin üçüncü ölkələrin cəlb edilməsi ilə xüsusi həlqənin formalaşdırılması.

Milli sənayenin şaxələndirilməsinin inkişafına təkan verən və qlobal zəncirlərə inteqrasiya edə biləcək sahələrdən biri kimi kimya sənayesi çıxış edir.

Dünya iqtisadiyyatında kimya sənayesinin yeri və rolu bu sahənin əlavə dəyərin formalaşma zəncirində qlobal xarakter almasına səbəb olmuşdur. Belə ki, istehsal olunan (son və aralıq), həmçinin istehsal prosesində istifadə olunan məhsulların digər sahələrlə müqayisədə sayca əsas hissəsi kimya sənayesi tərəfindən təmin edilir.

Neft və qaz əsas kimyəvi xammal olmaqla neft-kimyaya transformasiya olunaraq bu sahə istehsalında baza kimya məhsulları, xüsusi kimyəvi və aktiv inqredientlərə çevrilir. Kimya sənayesində iqtisadiyyatın, demək olar ki, əksər sahələri üçün xammal və aralıq məhsulları istehsal edilir.

Kimya sənayesində QDZ-nin erkən mərhələsinin məhsulu əmtəə



➔ *Qlobal dəyər zəncirləri*

**➔ İstiqamət...**

Azərbaycan üçün mövcud və formalaşan QDZ-nə fəal qoşulması strategiyasının işlənilməsi və mümkün imkanlardan istifadə etməklə xüsusi QDZ-nin yaradılmasına alternativ mövcud deyildir.

xarakterinə malik olmaqla böyük həcmdə istehsal olunaraq kütləvi bazarlarda aşağı qiymətlə satılır. QDZ-nin ayrı-ayrı mərhələlərində bazarın şərtləri də müxtəlif olur. Bəzi ölkələr (Cənubi Koreya, Çin, Malayziya) əlavə dəyər zəncirinin ilkin mərhələsində baza kimyəvi məhsul, digərləri isə (İrlandiya, İsveçrə) zəncirin son mərhələsində xüsusi kimyəvi (aralıq və son istifadə) məhsulların istehsalı üzrə ixtisalaşırlar.

Bir sıra kiçik ölkələr aralıq kimya məhsullarının ixracı hesabına QDZ-də fəal iştirakı ilə fərqlənir. Digər bir qrup ölkələr kimya sənayesinə investisiya yatırımı, özlərinin kimya sənayesinin aralıq məhsullarının başqa ölkələrin sənayesində istifadəsi, üçüncü qrup ölkələr isə baza kimya məhsullarının daşınması vasitəsilə QDZ-də iştirak edirlər.

Bütün bu kimi imkanlardan yararlanaraq ölkə iqtisadiyyatının şaxələndirilməsi müəyyən tarixi ənənələr və potensiala malik olan kimya sənayesinin QDZ-yə inteqrasiyasının aktuallığını ortaya qoyur.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına uyğun olaraq ayrı-ayrı sektorlar üzrə 12 strateji yol xəritəsi təsdiq edilib. Bu strateji yol xəritəsinə əsasən, yalnız ölkə iqtisadiyyatının inkişafı üzrə məqsədlər, hədəflər, strategiyalar müəyyən edilməli, tədbirlər planı hazırlanaraq reallaşdırılmalı deyil, həmçinin iqtisadiyyatın digər mühüm sahələri ilə yanaşı, kimya sənayesinin QDZ-yə inteqrasiyasının təmin edilməsi əsas məsələlərdəndir. Ən mühüm məsələlərdən biri dəyər zəncirinin elə bir həlqəsində birləşməyi təmin etmək lazımdır ki, ölkə üçün maksimum fayda versin. Bunun üçün isə təhlil və inkişaf, yeni texnologiyanın mənimsənilməsi üzrə, həmçinin marketinq və xidmət sferasında daimi iş aparılmalıdır. Yalnız bu kimi mühüm tədbirlərin planlı şəkildə həyata keçirilməsi ilə dəyər həlqəsində maksimum fayda əldə etmək olar.

"Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd olunduğu kimi, ölkəmizdə kimya sənayesinin perspektiv inkişafı üçün real şərait və ixtisaslı kadr potensialı var, infrastruktur təzələnir, müvafiq təhsil sahələrinin olması, uyğun biznes mühiti sahənin uğurlu gələcəyi üçün zəmin yaradır.

Beləliklə, strateji yol xəritəsi üzrə hazırlanan tədbirlərin reallaşdırılması ölkə iqtisadiyyatının, özəlliklə kimya sənayesinin regional və QDZ-yə inteqrasiya prosesini asanlaşdıracaqdır. İnteqrasiya proseslərinin sürətlənməsi və geniş imkanlara malik olan kimya sənayesinin QDZ-yə inteqrasiya olunması üçün inteqrasiyanın bütün istiqamətlərindən istifadəyə səy göstərməlidir.

- **BİR SIRA KİÇİK ÖLKƏLƏR** aralıq kimya məhsullarının ixracı hesabına QDZ-də fəal iştirakı ilə fərqlənirlər.
- **DİGƏR QRUP ÖLKƏLƏR** kimya sənayesinin investisiya yatırımı, özlərinin kimya sənayesinin aralıq məhsullarının başqa ölkələrin sənayesində istifadəsi vasitəsilə QDZ-də iştirak edirlər.
- **ÜÇÜNCÜ QRUP ÖLKƏLƏR** isə baza kimya məhsullarının daşınması vasitəsilə QDZ-də iştirak edirlər.

……………………………………..

- **KİMYA SƏNAYESİNDƏ** QDZ-nin erkən mərhələsinin məhsulu əmtəə xarakterinə malik olmaqla böyük həcmdə istehsal olunaraq kütləvi bazarlarda aşağı qiymətlə satılır.



***Kimya sənayesi tərəfindən iqtisadiyyatın, demək olar ki, əksər sahələri üçün xammal və aralıq məhsulları istehsal edilir.***



**strateji yol xəritəsi**

**üzrə hazırlanan tədbirlərin reallaşdırılması ölkə iqtisadiyyatının, özəlliklə kimya sənayesinin regional və QDZ-yə inteqrasiya prosesini asanlaşdıracaqdır.**

innovasiya

# STARTAPLARIN təsərrüfat subyektinə çevrilməsi



> "STARTAP YENİ YARANMAQDA OLAN VƏ HÜQUQİ ŞƏXS KİMİ QEYDİYYATDAN KEÇMƏMİŞ MÜƏSSİSƏDİR"

STARTAPIN TƏSƏRRÜFAT SUBYEKTİNƏ ÇEVRİLMƏSİ İLK ÖNCƏ HƏYAT QABİLİYYƏTLİLİNİN TƏMİN EDİLMƏSİ, BAŞQA CÜR DESƏK, SƏRBƏST İQTİSADİYYATIN AĞUŞUNDA YAŞAMAĞI BACARMASIDIR. STARTAPIN ƏSAS HƏDƏFLƏRİNDƏN İLKİ DEMƏK OLAR Kİ, HƏYAT QABİLİYYƏTLİ ARTIMA NAİL OLMAQDIR. BURADA "HƏYAT QABİLİYYƏTLİ" İFADƏSİ MÜŞTƏRİLƏRİN SAYINI TEZ BİR ZAMANDA ARTIRMAĞA İMKAN VERƏN VƏ ANCAQ UZUNMÜDDƏTLİ SABİT NƏTİCƏLƏR ƏLDƏ EDİLMƏSİ MƏNASINI NƏZƏRDƏ TUTUR. MƏSƏLƏN, AYRI-AYRI REKLAM AKSİYALARI, ENDİRİM KAMPANİYALARI VƏ YA "PR" GEDİŞLƏRİNDƏN ARTIM PROSESİNİ İŞƏ QOŞMAQ ÜÇÜN İSTİFADƏ ETMƏK OLAR, LAKİN BU ÜSULLAR SÖZÜGEDƏN PROSESİ UZUN MÜDDƏT ƏRZİNDƏ DƏSTƏKLƏMƏYƏ QADİR DEYİL.

Mircavid Həsənov

Həyat qabiliyyətli artımın belə mənbələri artım mexanimzi adlandırılan əks-əlaqə tsiklini işə qoşur. Bu tsikl öz-özünü tənzimləmə prinsipilə işləyir. Tsikli nə qədər tez baş tutsa, startap da bir o qədər sürətlə böyüyəcək və səbəst fəaliyyəti həyata keçirmək iqtidarında olacaqdır. Tsikl mexanizminin hər bir mərhələsində əvvəlcədən müəyyənləşdirilmiş dəyərlər dəsti vardır. Bu dəstin göstəricilərindən istifadə edilməsi təqdirində startapın sürətlə böyüməsi və sərbəst sahibkarlıq fəaliyyətini göstərməsi startapın sahibkarlıq subyektinə çevrilməsinin əsas şərtlərdən biri sayılır.

## Həyat qabiliyyətli artımın sadə bir qaydası mövcuddur

**Sərbəst şəkildə fəaliyyət göstərən kiçik biznes strukturları üçün PR çox önəmli rol oynayır. Burada yeni müştərilər əvvəl gəlmiş müştərilərin sayəsində qazanılır. Əvvəl gəlmiş müştərilər həyat qabiliyyətli artımı dörd üsulla təmin edirlər:**

1. Şayiələr. Məhsullar çox vaxt təbii yolla, məhsulla qane olan müştərilərin yaxşı fikirləri sayəsində geniş populyarlıq qazanır.
2. Məhsuldan istifadənin kənar effektləri. Dəbdə olan və statuslu əşyalar, məsələn, dəbdəbə predmetləri hər zaman diqqət cəlb edir. Misal üçün, kiminsə hər hansı markalı avtomobil və ya hər hansı elektronika məhsulları brendindən istifadə etdiyini gördükdə həmin əşyaları almaq arzusu meydana çıxır.
3. Reklam məsrəfləri. Bir çox şirkətlər yeni müştəriləri məhsullarından istifadə etməyə həvəsləndirmək üçün reklamdan yararlanır. Reklamın həyat qabiliyyətli artımı təmin etməsi üçün reklam xərcləri sərmayə kapitalı kimi kənar mənbələrdən deyil, gəlirlərdən ödənilməlidir. Yeni müştəri əldə edilməsinin dəyəri, müştərinin qazandırdığı gəlirdən aşağı olduğu müddətdə yerdə qalan vəsaitləri yeni müştərilərin əldə olunmasına yönəltmək olar.
4. Təkrar satınalma və ya təkrar müraciət. Bəzi məhsulları əldə etdikdə həmin məhsulun imzaatma (peyk televiziyası, internet) və ya könüllü surətdə (batareya ilə işləyən əmtəələr, lampalar) təkrar əldə olunması nəzərdə tutulur.





həyat qabiliyyətli artım

artım mexanizmi

nizamnamə qoyuluşu






## ARTIM MEXANİZMİ

Startapın uğurunun qiymətləndirilməsində düzgün, həqiqi göstəricilərdən istifadənin nə qədər vacib olduğu hamıya aydındır. Ancaq bu göstəricilərdə böyük fərqlilik ola bilər, çünki ən müxtəlif rəqəmləri qiymətləndirmək zərurəti yaranır. Startapın məhsulu artıq bazara çıxarılmış olduğu təqdirdə startap üçün faktiki olaraq ən əhəmiyyətli potensial məsrəflər yeni tərtibat üçün prioritetləri necə müəyyən etməklə əlaqədar mübahisələrə sərf edilən vaxt itkisidir. Təcrübə göstərir ki, belə prioritetlərlə bağlı müzakirələr həddən artıq çox zaman ala bilər. İstənilən şirkət öz vəsait və resurslarını yeni müştərilərin cəlb edilməsinə, artıq möcvud olan istehlakçılara xidmət səviyyəsinin yaxşılaşdırılması, keyfiyyətin yüksəldilməsinə və ya məsrəflərin azaldılmasına yönəldir. Bu da startapçıların diqqət edəsi məqamlarından sayılır.

Tanınmış biznes təlimçisi, vençur kapitalı sərmayəçisi Şon Kerolanın dediyi kimi, "startaplar aclıqdan yavaş-yavaş ölmür, tez bir zamanda batırlar"[4]. Startapın yaxşılaşdırmağa dair çoxsaylı təkliflər hər zaman vardır, lakin acı həqiqət ondan ibarətdir ki, bu ideyaların əksəriyyəti heç nəyi dəyişdirmək iqtidarında deyildir. Bu ideyalar çox vaxt az miqdarda optimallaşdırma ilə əlaqədar olur. Startap isə diqqətini, hər hansı fenomen və ya hadisəni faktlarla təsdiqləyə bilən ciddi təcrübələrə yönəltməlidir. Bu və ya digər artım mexanizmi diqqəti, həqiqətən, vacib olan göstəricilərdə cəmləşdirməyə kömək edir.

## NİZAMNAMƏ QOYULUŞU

Nizamnamə qoyuluşu müəssisənin fəaliyyətini təşkil və təmin etmək üçün mülkiyyətçilər (təsisçilər) tərəfindən verilən vəsaitləri əks etdirir. Startapın təsərrüfat subyektinə çevrilməsi üçün nizamnaməsinin formalaşması diqqət edilsi mərhələlərdən biridir. Nizamnamə mühüm hüquqi sənəd olmaqla, onun tərtib olunmasına son dərəcə ehtiyatlı yanaşmaq lazımdır. Nizamnamənin tərtib edilməsi zamanı Azərbaycan Respublikası ərazisində qüvvədə olan, təsərrüfatçılıq fəaliyyətinin həyata keçirilməsi prosesində mülkiyyət hüququ, həmçinin təşkilatın hüquq və öhdəliklərini müəyyənləşdirən qanunvericilik aktlarının tələblərindən irəli gəlmək zəruridir. Startapın təsərrüfat subyekti kimi nizamnamə quruluşuna aşağıdakı müddəalar ehtiva edilir:

- təşkilatın təşkilati-hüquqi forması göstərilməklə təşkilatın adı, əmlak mülkiyyətçisinin soyadı və şirkətin adı. Təşkilatın adında təsərrüfatçılıq fəaliyyətinin "kommersiya", "istehsal" kimi növləri göstərilməyə bilər;
- təsisçilər barədə məlumatlar; təşkilatın yaradılmasında bir neçə ailə üzvü iştirak etdiyi təqdirdə onların adları, soyadları, atalarının adı, yaşayış yeri;
- təşkilatın ünvanı;
- fəaliyyətin predmet və növləri;
- mülkiyyətin yaradılması qaydası, o cümlədən təşkilatın əmlakı üzərində mülkiyyət hüququ;
- mənfəət bölgüsü və zərərlərin ödənilməsi qaydası;
- təşkilatın idarə edilməsi və idarəetmə orqanlarının səlahiyyətləri; təşkilatın fəaliyyətinə xitam verilməsi və yenidən təşkil olunması şərtləri.

**STARTAPIN ƏSASINDA ORİJİNAL İNNOVASİYA İDEYASI DAYANIR**

**>>>>>>> STARTAPÇILAR ADƏTƏN 20-35 YAŞ ARASI OLAN AMBİSİYALI ADAMLARDIR**



# Aqro BİZNESƏ Doğru

i.e.d. Müslüm İbrahimov

Son illər ərzində olkəmizdə kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı böyük əhəmiyyət kəsb edən sənədlər qəbul olunmuş, geniş tərkibli tədbirlər keçirilmişdir. Bunların arasında ən ön siyahıda "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair "Strateji Yol Xəritəsi"ni qeyd etmək mütləqdir. Cəmiyyətdə belə bir strateji marağın oyanmasının əsas generatoru və təşəbbüskarı olmuş ölkəmizin başçısı cənab Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etmişdir ki,

**"...KƏND TƏSƏRRÜFATI İLƏ BAĞLI MƏSƏLƏLƏR XÜSUSİ DİQQƏT TƏLƏB EDİR. ONA GÖRƏ MƏN BU SAHƏYƏ BU GÜN DƏ, ÜMUMİYYƏTLƏ ÇOX BÖYÜK DİQQƏT AYIRIRAM. ÇÜNKİ BU SAHƏ HƏM MƏŞĞULLUQDUR, HƏM İNKİŞAFDIR, HƏM İXRACDIR".**

Bu o deməkdir ki, cənab Prezident milli iqtisadiyyatın əlavə dəyərinin formalaşması prosesində kənd təsərrüfat sahəsinin aktiv iştirakçısı olmasına böyük ümidlər bəsləyir. Əsasən, dünya neft bazarında büruzə vermiş qlobal geoiqtisadi qeyrisabitliyinin yaranması fonunda, tədiyə balansına resessiya təzyiqi məsələsinin həll olunmasında kənd təsərrüfatının intensivləşdirilməsi böyük rol oynaya bilər. Bununla əlaqədar olaraq Prezident İlham Əliyevin sədrliyi ilə 28 mart 2017-ci ildə Saatlıda keçirilmiş pambıqçılığın inkişafı məsələlərinə dair Respublika müşavirəsində pambıqçılıq sahəsində yüksək istehsala nail olunması məsələləri müzakirə olunmuşdur. Bu ildə pambıq əkinlərinin keçən illə müqayisədə 51 min hektardan 136 min hektar artırılması və ümumi yığımın 3 dəfə artmasının gözlənilməsi haqqında məlumat verilmişdir.

Belə bir yanaşma ümumilikdə kənd təsərrüfatı sahəsinə, digər sahələrdən təkcə iqlim və mövsümlük xüsusiyyətləri ilə fərqlənməsi yanaşma çərçivəsindən çıxmağa bizi vadar edir.

İlk növbədə kənd cəmiyyətinin xüsusiyyətləri, nəticə etibarilə makroiqtisadi konstruktivizm yanaşmanın mövcudluğunu əks etdirir. Belə ki, kənd ərazilərində işsizlik, kənd təsərrüfatı inflyasiyasının xüsusiyyətləri və iqtisadi artım problemləri makroiqtisadiyyatın əsas kontenti olaraq aqrar sahədə bu problemləri yaradan səbəblər kəskin şəkildə fərqlənir. Paradoksal dixotomik əlaqələri yaradır. Belə ki, payız və qış mövsümündə işsizliklə bərabər, demək olar ki, eyni vaxtda aqro ərzaq inflyasiyası da artır. Kənd təsərrüfatı mövsümündə əkstendensiya baş



*Payız və qış mövsümündə aqro ərzaq inflyasiyası təzyiqləri artır*

### Aqrobiznes sistemi

Aqrobiznes sistemi müxtəlif tipli bizneslərin, xammal istehsalçılarından pərakəndə satıcılarına qədər elmi tədqiqat mərkəzləri və dövlət strukturları daxil olmaqla, iri və mürəkkəb şəbəkəni ehtiva edir.

## funksional sxem

verir. Bu kateqoriyaların arasında qısa müddət ərzində yaranan tam uyğunsuzluq səbəbindən iqti-sadi artımda digər sahələrlə müqayisədə aşağı temp müşahidə olunur. Kənd cəmiyyətində tam fərqli sosial multifunksional əlaqələr sisteminin mövcudluğu və kənd yerlərində qeyri-monetar münasibətlərin çoxluğu aqrar sahədə biznes tsiklini uzadır və ümumilikdə üzun müddət perioduna makroiqtisadi analizini həyata keçirilməsinə bizi vadar edir.

Bundan başqa, əsasən, xalis rəqabət tipli bazara malik olan kənd təsərrüfatı bazarında qiymət yaranması situasiyası özünəməxsus xüsusiyyətlərə malikdir və ümumilikdə qeyd olunmalıdır ki, burada bazar iqtisadiyyatı rəmzləri özünü daha qabarıq şəkildə göstərir. Azərbaycan Respublikası Kənd Təsərrüfatı naziri Heydər Əsədovun sözlərinə görə, "məhsulların qiymətinə bir çox amillər təsir edir. Bəzi məhsullar bahalaşır, lakin bəzi məhsullar ucuzlaşır". Əslində, burada təəccüblü heç bir şey yoxdur, kənd təsərrüfatı məhsulları yüksək çarpaz elastik təsirə malikdirlər. Bundan başqa, kənd təsərrüfatı istehsalı, tələbatdan daha elastikdir, ona görə də bazar tarazlığın nöqtələri qeyri sabit olur. Belə bir qiymət müxtəlifliyi sabit və eyni zamanda artan templərlə istehsalın davam etməsini məhdudlaşdırır ki, bu da nəticə etibarilə istehsalın dayanmasına səbəb olur. Bu onunla izah olunur ki, marjinal gəlirin və xərclərin (MR=MC) bərabər olması şərtinin mövcudluğu əmtəə istehsalçılarını daimi qeyri-mənfəət nöqtəsinə yaxınlaşdırır və bu zaman dövlətin müdaxiləsi bazarda neqativ dəyişikliklərin yaranmasına gəlib çıxaracaq ki, bu nəinki aqrar sektorda, bütövlükdə cəmiyyətdə itkilərə səbəb verəcəkdir. Bu situasiyanı biz riyazi üsulla belə də göstərə bilərik: Göründüyü kimi, bu sahə belə paradokslu məsələlərin mövcudluğu ilə digər sahələrdən fərqlənir.

$$\frac{\partial U^2}{\partial x_i^2} < 0 \Rightarrow \lim_{x\to\infty} \frac{\partial U}{\partial X_i} = 0$$






Yuxarıda qeyd etdiyimiz bütün incəlikləri nəzərə alaraq belə nəticəyə gələ bilərik ki, bu gün kənd təsərrüfatı sferasında aqrobiznes sisteminin yaradılmasına böyük ehtiyac var. Şəkil 1-də Florida Universitetinin professoru Jefrey Burkhart tərəfindən hazırlanmış aqrobiznesin funksional sistemi təqdim olunmuşdur. Gördüyümüz kimi, bu sistemdə bütün iştirakçılar ayrılmaz şəbəkədə fəaliyyət göstərir və hər hansı bir hissədə problemin yaranması bütövlükdə sistemin dayanması ilə nəticələnəcəkdir. Ona görə də bu sistemin fasiləsiz fəaliyyətinin əsas şərti kontrakt münasibətlərin işlənməsidir.

Aqrobiznes sistemində kontrakt tipli əməkdaşlıq prinsipi, əsasən, işgüzar etikaya arxalanır. Lakin kənd təsərrüfatı istehsalı sisteminin xüsusiyyətlərini nəzərə alaraq burada işgüzar etikanın ümumi prinsiplərindən fərqli olan məsələlər də var. Digər bir ifadə ilə, yuxarıda göstərilən aqrar sahənin makroiqtisadi və institusional xüsusiyyətləri, kontrakt bazasında daha konkret etik qaydaların öz əksini tapmasını tələb edir. Bu ondan irəli gəlir ki, aqrobiznesdə kontrakt təkcə istehsal sistemində iştirak edən agentlər arasında işgüzar qaydalarının yerinə yetirilməsindən başqa, sosial funksiyalarını da yerinə yetirir. Ona görə də bu sahədə böyük işlər aparılmalıdır. Burada kontraktların bağlanması prinsipi və qoyulmuş şərtlərin, öhdəliklərin yerinə yetirilməsi məsələlərinə ciddi qaydada nəzərət olunmalıdır. Aqrobiznes təkcə hər hansısa qısa tsikli biznesi ifadə etmir. Aqrobiznes sistemi müxtəlif tipli bizneslərin, xammal istehsalçılarından pərakəndə satıcılarına qədər, elmi-tədqiqat mərkəzləri və dövlət strukturları daxil olmaqla iri və mürəkkəb şəbəkəni ehtiva edir. Buna görə də aqrobiznes sistemi üçün geniş işgüzar etik prinsipləri tətbiq olunmaqla, bu sistemdə kənd təsərrüfatı istehsalının xüsusiyyətləri çərçivəsində iştirak edən agentlərə daha konkret öhdəliklər tədbiq olunmalıdır.

# AZƏRBAYCANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

## REALLAŞDIRILAN İQTİSADİ SİYASƏT KONTEKSTİNDƏ

i.e.n., dos. Mənsur Bərxudarov






Ərzaq təhlükəsizliyi bütün dünya ölkələrinin milli-iqtisadi təhlükəsizlik sisteminin ən mühüm tərkib hissəsi kimi dəyərləndirilir və hər hansı bir ölkənin ərzaq təhlükəsizliyi aşağıdakı şərtlər daxilində təmin edilmiş hesab edilir:

- Kütləvi istehlak üzrə qida məhsullarının 85%-dən çoxu yerli aqrar sektor tərəfindən istehsal edilirsə;
- İstehlak olunan qida məhsulları ekoloji cəhətdən təmizdirsə;
- Qida məhsullarının qiymətinin əhalinin əsas kütləsi üçün əlyetərliliyi;
- Qida məhsulunun kaloriliyi və qidalılıq dəyəri insan orqanizminin tələbatını orta sutka qida rasionuna adekvatlığı təmin edilirsə;
- Fövqəladə hallar baş verən zaman əhalinin davamlı şəkildə qida məhsullarına olan tələbatının ödənilməsi üçün strateji ərzaq ehtiyatı mövcuddursa.

2001-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nda deyilir: "Ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca amili olmaqla, əsas insan hüquqlarından biridir. Ona görə də bu hüququn təmin edilməsi Azərbaycan Respublikasının Hökumətinin mühüm vəzifələrindən sayılır". Ərzaq təhlükəsizliyi hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir. Bu problemin həlli, ilk növbədə, yoxsulluğun azaldılması, ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin artırılması ilə bağlıdır.

Sözügedən proqramın reallaşdırılması iki mərhələni əhatə edən bir proses kimi səciyyələnirdi. Qısamüddətli və ortamüddətli dövrdə özəl fermer təsərrüfatlarının yaradılması və ikinci mərhələdə isə kənd təsərrüfatının gəlirliliyinin və raqabət qabilliyyətliliyinin artırılması. Beynəlxalq iqtisadi sistemə inteqrasiyanı özündə ehtiva edən bu prosesin monitorinqi göstərir ki, ölkəmiz ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində müəyyən uğurlar əldə edə bilmişdir. 2004 – 2013-cü illərdə kənd əhalisinin sayının təqriben 11% artması fonunda ümumi kənd təsərrüfatı məhsulları həcminin 3,3 dəfə artması bu sahədə əldə edilən uğuru əks etdirir.

Ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində 2015-ci ildə əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi cədvəldə göstərilmişdir.

Cədvəldən göründüyü kimi, Azərbaycanda artıq ərzaq təhlükəsizliyi tam şəkildə təmin oluna bilmişdir. Buna baxmayaraq, dövlətimiz ərzaq təhlükəsizliyi sahəsində davamlılığı və

**"ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İNSAN LƏYAQƏTİNİN BAŞLICA AMİLİ OLMAQLA ƏSAS İNSAN HÜQUQLARINDAN BİRİDİR".**

**ƏRZAQ TƏHLÜKƏSİZLİYİ HƏR BİR İNSANIN SAĞLAM VƏ MƏHSULDAR HƏYAT TƏRZİ ÜÇÜN ƏRZAQLA KİFAYƏT QƏDƏR TƏMİN EDİLMƏSİ DEMƏKDİR.**

**PROBLEMİN HƏLLİ İLK NÖVBƏDƏ YOXSULLUĞUN AZALDILMASI, ƏRZAQ TƏMİNATININ VƏ ƏRZAQ MƏHSULLARINDAN İSTİFADƏNİN SƏMƏRƏSİNİN ARTIRILMASI İLƏ BAĞLIDIR.**




dayanıqlılığı təmin etmək məqsədilə ardıcıl olaraq kompleks tədbirlərin həyata keçirilməsi siyasətini reallaşdırır.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" 2015-ci ilə qədər ölkəmizi kənd təsərrüfatının əsas növləri ilə təmin etməni və istehsalın artığını isə xarici bazarlara ixrac edilməsi məqsədlərinə çatmağı nəzərdə tuturdu ki, bu sahədə Azərbaycan bir sıra uğurlara imza ata bilmişdir.

6 dekabr 2016-cı il tarixində Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində ölkənin ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institutsional potensialın gücləndirilməsi strateji hədəf kimi elan edilmiş və sözügedən hədəfə çatmaq üçün aşağdakı prioritetlər müəyyənləşdirilmişdir:

- ərzaq təhlükəsizliyinin dayanıqlılığı və əhalinin ərzağa əlyetərliyi ilə bağlı məlumat və monitorinq sisteminin qurulması;
- əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması mexanizminin formalaşdırılması;
- dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşması.

Əminliklə qeyd edə bilərik ki, bu sahədə reallaşdırılan tədbirlər nəticəsində Azərbaycanda ərzaq təhlükəsizliyi sisteminin fəaliyyəti daha da gücləndiriləcəkdir. Bununla belə, onu da deməliyik ki, bu istiqamətdə əhalinin etibarlı ərzaq təminatına nail olunması mexanizminin formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Belə bir məsələnin xüsusi olaraq vurğulanmasının əsas iki səbəbi var. Birincisi, xalqın genefondunun qorunması və ikincisi, ekoloji təmiz qida məhsulları istehsalının və onun bazarının formalaşdırılması. Göründüyü kimi, sözügedən məsələnin uğurlu həlli istiqamətində Azərbaycan Respublikasının Prezidentinin 13 iyun 2008-ci il tarixli Sərəncamı ilə Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Odur ki, yuxarıda qeyd olunan məsələ dövlətimizin təxirəsalınmaz tədbirləri sıralarına daxil edilir.

Fikrimizcə, Azərbaycanın ekoloji təmiz ərzaq məhsulları istehsalı sahəsində çox böyük potensial imkanları mövcuddur. Bir məsələni də qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi ilbəil və yüksək sürətlə artır. Belə ki, 1980-ci illərdə yaranan inkişaf etmiş ölkələrin ərzaq məhsulları bazarında satılan ərzaq məhsullarının strukturunda ekoloji təmiz ərzaq məhsullarının xüsusi çəkisi bu gün 10%-dən 20%-ə qədər dəyişir.

Beynəlxalq bazarlar sistemində ekoloji təmiz kənd təsərrüfatı məhsulları bazarının xüsusi çəkisinin dinamik artması trendi Azərbaycanda sözügedən məhsulların ixrac potensialının artırılması üçün əlverişli şərait kimi çıxış edə bilər. Bu baxımdan, ölkəmizdə ekoloji təmiz ərzaq məhsulları istehsalı yeni bir sahəvi klasterin formalaşdırılmasını tələb edir. Ona görə də, sözügedən istiqamətdə ciddi elmi təhlillər aparılmalı, irəli sürülən yeni nəzəri müddəa bazarına əsaslanan proqnoz modellər qurulmalı və alınan yeni elmi-tədqiqat nəticələri əsasında xüsusi dövlət proqramı qəbul olunmalıdır. Çünki dövlətimizin ciddi, sistemli-kompleks və ardıcıl dəstəyi olmadan sözügedən məqsədə nail olmaq qeyri-mümkündür.

| Məhsullar | Özünütəminetmə səviyyəsi, faizlə |
|---|---|
| Mal əti | 92,0 |
| Qoyun əti | 99,0 |
| Quş əti | 98,0 |
| Yumurta | 99,0 |
| Süd və süd məhsulları | 80,0 |
| Taxıl | 60,0 |
| Tərəvəz | 103,0 |
| Kartof | 90,0 |
| Bostan məhsulları | 100,0 |
| Meyvə və giləmeyvə | 120,0 |
| Üzüm | 98,0 |
| Şəkər və şəkərdən hazırlanan məhsullar | 170,0 |
| Bitki yağları və marqarin | 77,0 |
| Kərə yağı | 60,0 |

**Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi (2015-ci il)**

Qeyd: Şəkər və yağların istehsalında ciddi idxal komponenti mövcuddur.

DİNAMİKA VƏ TRENDLƏR

# AĞQIZIL BAZARI

TƏHMASİB ƏLİZADƏ

Cədvəl 1. Pambıq istehsalı (min ton)

| Ölkə | Pambıq istehsalı |
|---|---|
| Hindistan | 5748 |
| Çin | 4790 |
| ABŞ | 2806 |
| Pakistan | 1525 |
| Braziliya | 1285 |




Dünyada çox az sayda ölkədə təbii olaraq pambıq sənayesinin inkişaf etdirilməsi mümkün olduğundan, dünya istehsalının 80%-i cəmi bir neçə ölkə tərəfindən gerçəkləşdirilir. Məhz bu səbəbdəndir ki, artıq uzun illərdir dünya pambıq bazarında lider ölkə olaraq Çin güclü mövqedən çıxış edirdi. Lakin son illərdə artıq Hindistan pambıq istehsalında Çin ilə rəqabət apara biləcək bir mövqeyə sahib olmuşdur və hətta son göstəricilərə görə Çindən öndədir. Dünya pambıq bazarında ən böyük paya sahib ilk 5 ölkə - Hindistan, Çin, ABŞ, Pakistan və Braziliyadır.

Bu yazıda hazırda dünya pambıq bazarında mövcud dinamika və trendlər təqdim olunacaqdır. Təqdim olunan dinamika və trendə əsasən hazırda bu bazarın vəziyyətinin necə olduğu, perspektivlərinin və gələcək proqnozlarının nələrdən ibarət olduğu qeyd ediləcəkdir.

Hazırda dünya pambıq ehtiyatında 2010-cu ildən bu ilə qədər müəyyən dövrlərdə enişlər və müəyyən dövrlərdə yüksəlişlər müşahidə olunur.







“ARQUMENT”

**PAMBIQÇILIQ ƏMƏK TUTUMLU SAHƏDİR**

Sahənin inkişafı regionlarda işsizliyin azalmasına müsbət təsir göstərəcəkdir.



“ARQUMENT”

**PAMBIQ BİRJALARDA SATILIR**

Pambığın dünya bazarında satışını həyata keçirərkən əlavə marketinq tədbirlərinə ehtiyac olmur

# DÜNYA PAMBIQ EHTİYATI



Qrafikdə qeyd olunduğu kimi, 2016/2017-ci illər üzrə dünyada pambıq ehtiyatında digər ilə nisbətən yüksəliş müşahidə olunacaq. Bunun ən əsas səbəbi dünyada pambıq istehsalının artmasıdır. Belə ki, 2016/2017-ci illər üzrə dünya üzrə pambıq istehlakında elə də ciddi dəyişikliyin olacağı gözlənilməsə də, pambıq istehsalında trend yüksələrək davam edəcək. Xüsusilə də ilk beşlikdə olan pambıq istehsalçısı ölkələr qlobal bazarda bir-birilə sərt rəqabət içində olduqları üçün dünya üzrə pambıq istehsalında növbəti 2 il artım proqnozlaşdırılır. Bu isə pambıq bazarına daxil olmaq istəyən kiçik ölkələrin bu sahədə böyük bazar payı əldə etməsini daha da çətinləşdirir. Hazırda dünya pambıq istehsalının ilk beşliyində olan Hindistan, Çin, ABŞ, Pakistan və Braziliyanın 2016-cı il ərzində pambıq istehsalının həcmi Cədvəl 1-də göstərilib.

Cədvəldən də görsəndiyi kimi, hazırda dünya pambıq istehsalının böyük həcmi 5 ölkənin əlində cəmləşir – Hindistan (5 748 min ton) Çin (4 790 min ton), ABŞ (2 806 min ton), Pakistan (1 585 min ton) və Braziliya (1 285 min ton). Digər diaqramda təqdim olunan faiz nisbətləri isə bu beş ölkənin dünya pambıq istehsalındakı faiz nisbətlərini yox, beş ölkənin istehsal həcmi arasındakı faiz nisbəti fərqini ifadə edir. Digər ölkələrin isə dünya pambıq istehsalında payı xeyli aşağıdır. Xüsusən də kiçik ölkələrin hazırki bazar şərtləri daxilində bu bazarda qazanc əldə etməsi xeyli çətindir. Hətta Türkiyə, Özbəkistan, Türkmənistan kimi pambıqla zəngin olan və böyük həcmdə istehsala malik olan ölkələr qlobal bazar şərtlərində böyük bazar payına sahib ola bilməyiblər. Onların üstünlüyü yalnız öz regionlarında daha böyük şəkildə ortaya çıxır.



Dünya pambıq bazarında ümumi dinamikanı və trendi təqdim etdikdən sonra onu qeyd etmək lazımdır ki, ayrı-ayrı ölkələr üzrə artan pambıq istehsalı pambıq bazarında təklifin çoxalmasına və nəticədə qiymətlərin enməsinə səbəb olur. Məsələn, 2015-ci ildə pambığın 1 poundunun qiyməti 70.41 ABŞ dolları senti dəyərində idisə, artıq 2016-cı ildə qiymət biraz daha enərək, hər 1 pound pambıq üçün 68.08 ABŞ Dolları Senti təşkil etmişdir.

Pambıq ixrac edən kiçik ölkələr və dünya bazarında özünə yer tutmağa çalışan ölkələr adətən öz xammallarını ölkəyə cəlb etdikləri investorlar vasitəsilə emal sənayesinə yönləndirirlər. Yəni, sahib olduqları xammalın istehsala cəlb olunmasına çalışırlar. Azərbaycan da bu təcrübədən istifadə edərək, həm iş yerlərinin açılmasına, həm də emal sənayesinin güclənməsinə nail ola bilər. Təklif olaraq, onu qeyd etmək olar ki, dünya bazarında mövcud trendi də nəzərə alaraq, Azərbaycana tekstil sənayesində xarici investorları cəlb etmək və son məhsul istehsalını yüksəltmək hər anlamda müsbət nəticələr verə bilər. Çünki, bunun dünyada real tətbiqini və uğurlu nəticələrini görmək mümkündür.

i.e.d., prof. ZAHİD MƏMMƏDOV



Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin



# Bank sektorunun RİSKLƏRİ

Birinci devalvasiyadan sonra depozit və kredit portfelinin dollarlaşması milli valyutaya inamın azalmasını göstərdiyi halda, ikinci devalvasiyadan sonra maliyyə vəsaitlərinin bank sistemindən kənarlaşması sektorda risk ehtimalını gücləndirmişdir. Manatın ucuzlaşması borcalanların xarici valyutada kreditləri üzrə ödəmə qabiliyyətinə təsir etmiş və bankların kredit portfelinin keyfiyyətinin pisləşməsinə səbəb olmuşdur. Bu isə öz növbəsində borcalanların ödəmə qabiliyyətinin zəifləməsi kredit risklərinin artmasını şərtləndirmişdir. Mövcud risklərin idarə edilməsi, o cümlədən borcalanların borc yükünün azaldılması məqsədilə banklar kreditlərin restrukturizasiyasına start verilmiş və görülmüş tədbirlərin müəyyən müsbət nəticələri olsa da, makroiqtisadi qeyri-müəyyənliklərin davam etməsi bankların kredit riskləri üzrə ehtiyatlanma xərclərini yüksəltmişdir. Nəticədə, iqtisadi artım dövründə yaradılmış kapital yastığının bir hissəsi itirilmiş, məcmu kapitalın adekvatlıq əmsalı müəyyən olunmuş minimum normativlərə yaxınlaşmış və AMB-nin məlumatına əsasən, 2015-ci ildə ötən illə müqayisədə 4,2 faiz bəndi azalaraq 14,7 faiz təşkil etmişdir.

**ekspert rəyi**

Bankların kredit risklərinin operativ və dolğun qiymətləndirilməsini, iqtisadi subyektlərin maliyyə intizamının gücləndirilməsini təşviq etmək məqsədilə kredit məlumatlarının mübadiləsi sisteminin elementləri formalaşdırılmışdır. Kredit risklərini qiymətləndirmə mexanizmlərinin, skorinq modellərinin, korporativ idarəetmə strukturunun və risklərin idarə edilməsinin beynəlxalq standartlara uyğunlaşdırılması maliyyə institutlarında risklərin idarə edilməsi bacarıqlarını artıracaqdır.

Bazel III standartlarına uyğunlaşma və yüksək keyfiyyətli məlumatlar təklif edən kredit bürosunun mövcud olması maliyyə institutlarına qeyri-işlək və gecikdirilmiş kreditlər üzrə potensial itkiləri qabaqcadan qiymətləndirməyə, anderraytinq və monitorinq sistemlərini təkmilləşdirməyə imkan verəcəkdir. Nəticədə, sağlam kredit portfelinin həcmi xeyli artacaq və qeyri-işlək kreditlərin (QİK) xüsusi çəkisi azalacaqdır. Skorinqdən əlavə, kredit risklərinin idarə olunması üçün istifadə olunan daha qabaqcıl alətlərdən biri şirkətlərə verilən kredit reytinqidir. Kredit reytinqlərindən qiymətli kağızların emitentləri, investisiya strategiyasının müəyyənləşdirilməsi zamanı fərdi və institusional investorlar, habelə tənzimləmə və nəzarət məqsədilə aidiyyəti qurumlar istifadə edir.

Lakin Azərbaycanda milli reytinq agentliklərinin olmaması ilə əlaqədar bu xidmətlər yalnız beynəlxalq reytinq agentlikləri tərəfindən göstərilir. Nəticədə, az sayda iri şirkət qeyd edilmiş xidmətlərə çıxış əldə edə bilir.

Bununla belə, mövcud iqtisadi şəraitdə bankların risklərə həssaslığının artması və yeni risk zonalarının yaranması risklərin idarə edilməsi ilə bağlı təcrübələrin təkmilləşdirilməsini zəruri edir. Banklarda risklərin idarə edilməsinin təkmilləşdirilməsi üçün mövcud prudensial tələblərin mərhələli şəkildə Bazel Komitəsinin müəyyən etdiyi tənzimləmə prinsiplərinə uyğunlaşdırılması, habelə korporativ idarəetmə ənənələrinin təkmilləşdirilməsi məsələsini aktuallaşdırır.

Bazar risklərinin, xüsusən məzənnə risklərinin idarə edilməsi üçün hedcinq alətlərinin məhdud olması bankların risklərə həssaslığını yüksəltmişdir. Nəticədə, öhdəliklərin aktivlərlə müqayisədə daha sürətlə dollarlaşması 2015-ci ildə baş vermiş devalvasiyalar zamanı sektorun böyük zərərlə üzləşməsinə səbəb olmuşdur. Bu isə bazar risklərinə görə əlavə kapital buferinin tələb edilməsini aktuallaşdırır. Banklarda sağlam risk idarəetmə təcrübələrinin tətbiq edilməsinin 2020-ci ildə real ÜDM-ə təsiri 205 milyon manat birbaşa və 30 milyon manat dolayı olmaqla, ümumilikdə 235 milyon manat həcmində qiymətləndirilir.

## Xarici iqtisadi şoklar...

2015-ci ildən etibarən xarici iqtisadi şoklar və milli pul vahidi manatın devalvasiyası şəraitində maliyyə sisteminin risk həssaslığı artmış və maliyyə göstəriciləri pisləşmişdir. Lakin artan risklər fonunda bəzi maliyyə institutlarının dayanıqlı və uzunmüddətli hədəflərə fokuslanmış biznes modeli və strateji menecment sisteminin olmaması, habelə bəsit risk idarəetməsi maliyyə sisteminin yeni iqtisadi konyunktura və bazar şərtlərinə uyğunlaşmasını çətinləşdirmiş və maliyyə vasitəçiliyini məhdudlaşdırmışdır. Mövcud iqtisadi mühitdə maliyyə institutlarının risklərə həssaslığının artması və yeni risk zonalarının yaranması sektorda risklərin idarə edilməsi təcrübələrinin təkmilləşdirilməsini zəruri etmişdir.

## Müşahidə edilən proseslərə çevik adaptasiya...

inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanmış və bu Strateji Yol Xəritəsi qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri əsasında hazırlanmışdır.



# Sığorta şirkətlərinin

Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına əsasən, 2015-ci ilin sonuna sığorta sektorunun maliyyə dərinliyini ifadə edən sığorta haqlarının ÜDM-ə nisbəti cəmi 0,8 faiz təşkil etmişdir. Sığorta haqlarının ÜDM-ə nisbətinin aşağı olmasının səbəblərindən biri sığorta şirkətlərinin müəyyən sektorlar və həmin sektorlar ilə bağlı risklər haqqında tam məlumatlı olmamasıdır. Bu isə sığorta şirkətlərinin həmin qruplar üçün müxtəlif məhsul təklifləri hazırlamağa maraqlı olmamasına gətirib çıxarır.

Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri mövcud qanunvericiliyə əsasən, "ənənəvi", yəni kommersiya əsaslı sığorta fəaliyyətini həyata keçirsə də, qeyri-kommersiya əsaslı müştərək sığorta məhsulu təklif etmirlər. Ənənəvi sığorta riskin ötürülməsinə, əməkdaşlıq sığortası isə risklərin bölüşdürülməsinə əsaslanan sığorta münasibətləri sistemidir. Azərbaycanda qeyri-kommersiya əsaslı əməkdaşlıq sığortasının formalaşdırılmasına ehtiyac vardır.

Bank sektorundan yüksək asılılıq sığorta şirkətlərinin başlıca riski hesab olunur. Sığorta sektorunda nəzarətin risk əsaslı yanaşmaya uyğun aparılması sağlam maliyyə sisteminin formalaşdırılması baxımından faydalı ola bilər.

Məsələn, kənd təsərrüfatı üzrə sığorta ən mürəkkəb və çətin sığorta seqmenti olmaqla, risklərlə bağlı xüsusi biliklərin olmasını tələb edir. Kənd təsərrüfatı risklərinin sığortası ən mürəkkəb sahələrdən biri olub sektor üzrə xüsusi bilik tələb edir. Bu səbəbdən sığorta şirkətləri bu seqmenti yüksəkriskli fəaliyyət sahəsi olaraq dəyərləndirir və risk götürməkdən çəkinirlər. Bu sahə üzrə statistik və analitik məlumatların aşağı səviyyədə olması sektorun kreditləşməsini çətinləşdirir.

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə bir sıra sığorta təşkilatlarının yeni prudensial tələblərin tətbiqinə hazır olmaması, yeni tələblərə uyğunlaşmaq üçün tələb olunan investisiya qoyuluşunu təmin etmək potensialının aşağı olması, tənzimləyici tələblərin qısamüddətli dövrdə sığorta şirkətlərinin mənfəətliliyinə və kapital mövqeyinə mənfi təsiri kimi amillər aid edilə bilər.

Eyni zamanda, əksər sığorta şirkətləri yüksək riskləri olan və ya investisiya qoyuluşu aşağı səviyyədə olan müəyyən iqtisadi qrupların və ya sektorların sığorta tələblərini qarşılamaq üçün məhsulların hazırlanmasına çox da maraqlı deyillər. Məsələn, sığorta şirkətləri müflisləşmə səviyyəsi daha yüksək olduğu üçün kiçik və orta sahibkarlıq subyektləri və aşağı gəlirə malik fərdi təsərrüfatlara münasibətdə ümumi risklərdən yayınmağa çalışırlar. Xüsusən də aşağı gəlirə malik fərdi təsərrüfatlar, kiçik və orta sahibkarlıq subyektləri üçün sığorta məhsullarına maliyyə əlçatanlığının zəif olması bu qruplarda sığortalanma səviyyəsinin aşağı olmasının başqa bir səbəbi kimi qeyd edilə bilər.

Son illərdə sığorta sektorunun maliyyə dərinliyinin artmasına baxmayaraq, Asiya İnkişaf Bankının maliyyə inklüzivliyi üzrə sorğusunun nəticələrinə görə, müştərilərin 58%-i sığorta xidmətləri barədə məlumatlı deyil və müştərilərin 49%-i sığorta şirkətlərinə inamı aşağıdır. Bu hal sığorta fəaliyyətini məhdudlaşdırmaqla, bir çox müştəriləri, kiçik və orta sahibkarlıq subyektlərini yüksək riskə məruz qoyur.

## Qiymətli kağızlar bazarının başlıca riski

Qiymətli kağızlar bazarında başlıca risk - şirkətlərin fəaliyyəti və maliyyə vəziyyətinə dair şəffaflığın aşağı olması, şirkətləri listinqə cəlb etmək üçün stimullaşdırıcı tədbirlərin yetərli olmaması, iqtisadi mühitin şirkətlərin listinqi üçün əlverişli olmaması, sahiblik düşüncə tərzinin dəyişdirilməsi ilə bağlı tədbirlərin uzun müddət tələb etməsi və bazarda risklərin yüksək olması səbəbindən marketmeyker institutunun tam təşəkkül tapmaması kimi amillər aid edilə bilər. Mövcud vəziyyət yeni mütəxəssislərin cəlb edilməsini və mövcud mütəxəssislərin peşəkarlığının artırılmasını zəruri edir. Eyni zamanda, maliyyə xidmətləri istehlakçılarının rasional davranışı və məsuliyyətli borclanması üçün maliyyə savadlılığının yüksəldilməsi istiqamətində işlər davam etdirilməlidir.



**ÜÇÜNCÜ ÖLKƏNİN VALYUTASININ VASİTƏÇİLİYİNİN ARADAN QALDIRILMASI**

**...**
**TÜRKİYƏ TƏRƏFİNDƏN TİCARƏTİN MİLLİ VALYUTALARLA MALİYYƏLƏŞDİRİLMƏSİ TƏKLİFİ İRƏLİ SÜRÜLÜB**

statistika

# Milli valyuta ilə ticarətin perspektivi

**Əhliman Abbasov**



01



İdxal, 2016, yanvar-iyun

02



İxrac, 2016, yanvar-iyun

Azərbaycanın xarici ticarət strukturuna nəzər yetirsək görərik ki, 2016-cı ilin yanvar-iyun aylarında ölkənin idxal etdiyi məhsulların tərkibində daha çox müxtəlif maşınlar, elektrik aparatları, ərzaq məhsulları, avtomobil və hissələri, avadanlıqlar, əczaçılıq məhsulları, tütün məmulatları, mebel məhsulları üstünlük təşkil etmişdir. Həmin dövr üçün idxal olunmuş məhsulların cəmi dəyərində Rusiyanın payı 18,4 %, Türkiyənin payı 13%, Çinin payı 6,4%, Birləşmiş Krallığın payı 6,3%, ABŞ-ın payı 6,1%, İtaliyanın payı 4,5% təşkil etmişdir. Bundan başqa, idxalın edildiyi ölkələr arasında Yaponiya (4,1%) , Ukrayna (3%), Norveç (2,8%), Fransa (1,8%), Braziliya (1,7 %), İran (1,6 %) və Qazaxıstanı (1,6 %) da göstərə bilərik.

İxrac isə daha çox xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, plastik kütlə, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar olmuşdur. 2016-cı ilin ilk 6 ayında Azərbaycanın ixracının 76,15 faizini xam neft, 5,33 faizini neft məhsulları, 2,98 faizini təbii qaz təşkil edib. 2016-cı ilin birinci altı ayı ərzində neft məhsullarının ixracı üzrə 52,15 faiz, təbii qaz ixracı üzrə 20,79 faiz azalma olmuşdur. 2016-cı ilin yanvar-iyul aylarında ixracın payında İtaliya (19,9%), Fransa (9%), Almaniya (8,7%), Tayvan (7,9%), İsrail (6,2 %) kimi ölkələr üstünlük təşkil etmişdir. Bu dövrdə edilən ixracın 5,0 faizi Rusiyaya, 4,8 faizi isə Türkiyəyə edilmişdir.

Son zamanlar Azərbaycanın önəmli ticarət partnyorlarından olan Türkiyə tərəfindən ticarətin milli valyutalarla maliyyələşdirilməsi təklifi irəli sürülüb. Türkiyə rəsmiləri hesab edirlər ki, bu yolla xarici valyutalara olan tələbin azalması ilə öz milli valyutalarının dəyərinin yüksəlməsinə nail ola bilərlər. Digər tərəfdən də bu yolla valyuta məzənnələrinin volatilliyinin ikitərəfli ticarət üzərindəki neqativ təsirlərinin ortadan qalxacağını düşünürlər.

Milli valyutalarla ticarətin aparılması bəzi ölkələrdə beynəlxalq dönərliliyi olan valyuta ehtiyatlarında çatışmazlıqların mövcud olduğu zaman irəli sürülən alternativlərdən biridir. Bu zaman iqtisadi hədəflərdən biri ticarət zamanı üçüncü ölkənin valyutasının vasitəçiliyinin aradan qaldırılmasıdır. Eyni zamanda, bununla həm də ehtiyat valyutanın məzənnə risklərindən

qorunmaq da hədəflənə bilər. Milli valyutalarla ticarət mexanizmi həm də ehtiyat valyuta kimi çıxış edən valyutanın mənsub olduğu ölkədən iqtisadi və siyasi asılılığın da ortadan qaldırılması məqsədilə də formalaşdırıla bilər. Yəni bu mexanizmin motivində təkcə iqtisadi yox, eyni zamanda, geopolitik səbəblər də dayanır. Bu baxımdan, bu ideya daha çox ehtiyat valyutaya nəzarət edən iri iqtisadiyyatlarla rəqabət aparmaq istəyən və ya ehtiyat valyutaya nəzarət edən ölkələrlə maraqlar toqquşması yaşayan ölkələrin müraciət etdikləri alternativdir.

Ölkələr arasında beynəlxalq ticarətin milli valyutalarla aparılması mexanizminin formalaşdırılması 5 önəmli razılaşdırmaya əsaslanır. Bu razılaşmaların əldə olunduğu ölkələrin milli valyutalarının dönərliliyinin olması önəmli amillərdən biridir. Eyni zamanda, ölkələr arasında klirinq əməliyyatını həyata keçirən banklar da təsis edilməlidir. Mərkəzi bankların formalaşdırdığı bu bankların cari ilin sonunda ticarət partnyorları arasında müvafiq yerli valyutaların qarşılıqlı dəyişdirilə bilməsi imkanını yaradır. Bundan başqa, ölkələrdə birbaşa valyuta ticarətini həyata keçirilə bilməsi üçün banklararası xarici valyuta bazarının təşkil edilməsi də lazımdır. Ölkənin milli valyutası ilə yığım əldə etmiş ixracatçılar üçün həmin yığımı istifadə etmək üçün bu ölkədə müvafiq investisiya alətlərinin formalaşdırılması da önəmli addımlardan biridir. Göründüyü kimi, milli valyutalarla ticarətin texniki olaraq təşkil edilməsi və bu mexanizmin işləkliyinin təmin edilməsi o qədər də asan bir proses deyil.

ABŞ dolları və avrodan imtina edərək ikitərəfli ticarətdə milli valyutalara keçid bu günə qədər bəzi ölkələr tərəfindən həyata keçirilib. Bu bəzən həmin ölkələrdə beynəlxalq dönərliliyi olan xarici valyuta ehtiyatlarının azalması səbəbindən müəyyən edilib. Bundan başqa, regional iqtisadi inteqrasiyanı dərinləşdirmək, öz milli valyutalarının beynəlmiləl status qazanması məqsədi ilə də bu siyasət nəzərədən keçirilə bilər (məsələn Şərqi Asiya ölkələri). Baxmayaraq ki, milli valyutalarla ödəmə ticarətin asanlaşdırılması baxımından, valyutadəyişmə xərclərinin ortadan qaldırılması baxımından əlverişlidir, burada ehtiyatla nəzərə alınmalı başqa amillər də vardır. Qeyd edilməlidir ki, zəif dəyərliliyi olan və ya potensial dəyərsizləşmə ehtimalı olan valyutalarla qarşılıqlı ticarətin aparılması hər iki ölkənin biznes subyektləri üçün risklər doğurur. Ortaya çıxan bu qeyri-müəyyənlik isə ölkələrin idxal-ixrac əməliyyatları həyata keçirən özəl sahibkarların stimulunun azalmasına səbəb ola bilər. Bundan başqa, ekspertlər hesab edirlər ki, milli valyutalarla enerji ticarəti müəyyən çətinliklər doğura bilər. Təbii resurslar Azərbaycanın ixracında önəmli pay tutduğundan, ölkənin başlıca xarici valyuta ehtiyatları neft və qaz ixracından formalaşır. Bu baxımdan, təbii resursların avro, yaxud dollar əvəzinə yerli valyuta ilə satışı xarici valyuta ehtiyatlarının da əldə olunmasında müəyyən çətinliklər yarada bilər.



# Perspektiv: Bakı regional maliyyə mərkəzi kimi

Fəxri Məmmədov

BAKININ STRATEJİ MÖVQEYİ ARTIQ ONUN TƏKCƏ ŞƏRQ VƏ QƏRB ARASINDA DEYİL HƏM DƏ ŞİMAL VƏ CƏNUB ARASINDA DA MÜHÜM BİR MƏRKƏZ KİMİ FORMALAŞDIRMAQDADIR. BELƏ MƏRKƏZLƏRİN BİR ÇOXU ARTIQ DÜNYADA TƏKCƏ TRANZİT YOX HƏMÇİNİN MALİYYƏ VƏ ƏMTƏƏ BİRJALARININ FORMALAŞDIĞI REGİONAL MƏRKƏZLƏRƏ ÇEVRİLMİŞDİR.

Ticarət zamanı əsasən fiziki məhsullar bir tərəfə gedən zaman kapital da digər tərəfə axır. Alıcı və satıcının neytral, güvənli və əlverişli bir zonada mal mübadiləsini həyata keçirəcək bir mərkəzə həmişə ehtiyacı vardır. Belə mərkəzlərin formalaşması üçün isə aşağıdakı kriteriyaları olması şərtdir:

Bazar tənzimlənməsi

Investorların qorunması

Beynəlxalq standardların tətbiqi

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli sərəncamı ilə "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı təsdiq edilmişdir. Bu proqramın başlıca məqsədi müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitalizasiya imkanları təqdim edən və risklərin etibarlı idarə edilməsini təmin edən, yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılmasıdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- qiymətli kağızlar bazarının tənzimlənməsi mexanizmlərinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, qiymətli kağızlar bazarının institusional inkişaf səviyyəsinin yüksəldilməsi və onun beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi;
- ölkə iqtisadiyyatında kapitallaşma dərəcəsinin yüksəldilməsinə nail olunması, iqtisadi layihələrin maliyyələşdirilməsində qiymətli kağızlar bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli



investisiya vəsaitlərindən istifadənin genişləndirilməsi;
- iqtisadi subyektlərin və əhalinin yığımlarının fond bazarında səmərəli yerləşdirilməsi üçün investisiyaların qorunduğu və risklərin etibarlı idarə olunduğu müvafiq şəraitin yaradılması;
- ölkənin qiymətli kağızlar bazarının tədricən beynəlxalq kapital bazarlarına inteqrasiya olunması üçün müvafiq şəraitin formalaşdırılması.

Göründüyü kimi Dövlət proqramı maliyyə mərkəzinin formalaşması üçün lazım olan kriteriyaların formalaşmasını təmin edir.

Zəngin resurslara malik və inkişaf etməkdə olan Afrikanın da artıq qitələrarası ticarət matriksinə qoşulması,

## QÜVVƏLƏR BALANSI

Rusiya, İran və Türkiyə kimi nəhəng iqtisadiyyatların bu regionda ticarət dövriyyəsinə nəzər salsaq görərik ki, hər üç ölkə üçün də neytral zonada yerləşən, valyuta likvidliyini, məxfiliyi və təhlükəsizliyi təmin edə biləcək maliyyə mərkəzinin olmasına böyük ehtiyacı vardır. Əgər bu bölgəyə Afrika, Ərəb dünyası, və Asiyanın ticarətini əlavə eləsək dövriyyə bir neçə dəfə böyüyə bilər. Azərbaycan bölgədə və regionda balanslı siyasət həyata keçirir. Bu balanslı siyasət maliyyə mərkəzi kimi məhz Bakının seçilməsi şansını artıra bilər.

ÇİN, Rusiya və İran arasında, eynii zamanda SSRİ-dən ayrılmış Mərkəzi Asiya və Şərqi Avropa ölkələri arasındakı ticarət dövriyyəsi artıq bu regionda güclü bir maliyyə mərkəzinin formalaşmasını labüd edir. Bakı inkişaf etməkdə olan ölkələrin ticarət şəbəkəsinin episentrində olarsa artıq London, Nyu York, Çikaqo, Tokyo və Şanxaydan sonra 6-cı qlobal Dünya Əmtəə və Derivativlər Birja mərkəzinə çevrilə bilər. Sadəcə bir faktı qeyd etmək olar ki, bütün Xəzər hövzəsi ölkələri öz xammallarının dünya birjalarında satışını həyata keçirmək üçün külli miqdarda vəsait sərf eləyirlər. Əmtəə və Derivativlər Birjasının Bakıda formalaşması burada olan gündəlik pul dövriyyəsini, həmçinin valyutaya olan tələbatı artıracaq. Bu da öz növbəsində Bakıda iri investisiya banklarının və broker şirkətlərinin yaranması, həmçinin dünya maliyyə nəhənglərinin Bakıya marağının artmasına səbəb olacaqdır. Bakı belə bir ssenari ilə inkişaf edərsə tezliklə həm də Orta şərq və Mərkəzi Asiya regionunun ən böyük maliyyə mərkəzinə çevrilə bilər. Hazırda buna yeganə əngəl kimi dünya bazarlarında neft qiymətlərinin düşməsi nəticəsində Azərbaycan və ona qonşu ölkələrin iqtisadiyyatında durğunluğun yaranmasıdır. Hazırda neft satışı üzərində formalaşmış iqtisadiyyatların hər birində olduğu kimi Azərbaycanda da sürətlə qeyri neft sektoruna investisiyaların yatırımı davam edir. Bu özünü maliyyə və kənd təsərrüfatın sahəsində daha aydın göstərir ki, bu sahələr birjanın formalaşması üçün özül rolunu oynayır. Azərbaycanın cənub qonşusu İranın üzərindən embarqonun götürülməsi ilə İran məhsullarının dünyaya satışı bərpa olundu.



Qonşu Türkiyə iqtisadiyyatı artıq dünyanın ən böyük 10 iqtisadiyyatından birinə çevrilməkdədir. Sadəcə olaraq Rusiya, İran və Türkiyə kimi nəhəng iqtisadiyyatların bu regionda ticarət dövriyyəsinə nəzər salsaq görərik ki, hər üç ölkə üçün də neytral zonada yerləşən, valyuta likvidliyini, məxfiliyi və təhlükəsizliyi təmin edə biləcək maliyyə mərkəzinin olmasına böyük ehtiyacı vardır. Əgər bu bölgəyə Afrika, Ərəb dünyası, və Asiyanın ticarətini əlavə eləsək dövriyyə bir neçə dəfə böyüyə bilər. Azərbaycan bölgədə və regionda balanslı siyasət həyata keçirir. Bu balanslı siyasət maliyyə mərkəzi kimi məhz Bakının seçilməsi şansını artıra bilər.

## 2020-Cİ İLƏDƏK OLAN DÖVR ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ UYĞUN QİYMƏTƏ MƏNZİL TƏMİNATI SAHƏSİNDƏ AŞAĞIDAKI STRATEJİ HƏDƏFLƏR MÜƏYYƏN EDİLMİŞDİR:

01

**STRATEJİ HƏDƏF**

Uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi

02

**STRATEJİ HƏDƏF**

Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi




# İpoteka.

Müasir dövrdə "İpoteka kreditlərinin" mahiyyəti nisbətən daha geniş və sosial anlam ifadə etməkdədir. İpoteka, gələcəkdə ehtimal edilən gəlirlərinin qarşılığında əldə etdiyi yaşayış mənzilinin birbaşa dövlət və yaxud banklar tərəfindən maliyyələşdirilməsini ifadə edən iqtisadi termindir. Dəyişməkdə olan "kapitalist dövlət" anlayışı öz yerini "sosial dövlət"-ə verdiyi hazırkı dövrdə, ipoteka kreditləri dövlət tərəfindən vətəndaşların sosial rifahının yaxşılaşdırılması, yaşayış şərtlərinin zamana uyğun təmin edilməsi, insanların haqqı olan ədalətli gəlir bölgüsünə nail olunması və dövlətin sosial mahiyyətinin təzahürü hesab edilə bilər.

2005-ci ildən etibarən isə ipoteka kreditləşməsi sektoru üzrə ilkin addımlar atıldı və bunun nəticəsi olaraq "İpoteka haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi və Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 2005-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu (AİF) yaradıldı. Fondun yaradılmasından keçən 10 il ərzində statistikaya nəzər salsaq, görə bilərik ki, Azərbaycan vətəndaşlarına 2007-ci ildən etibarən təxminən 18 min ipoteka krediti verilmişdir (qrafik 1). Kredit alan şəxslərin əksəriyyəti evli və Bakı sakinidir. poteka krediti alan şəxslərin gəlirlərini bölüşdürdükdə belə nəticəyə gəlmək olar ki, belə kreditləri alan ortagəlirli sakinlərin sayı azdır. Faktiki olaraq, ipoteka krediti alan şəxslərin 8 faizinin aylıq məvacibi 500 manatdan aşağıdır. İpoteka krediti alanlar arasında ən böyük qrup

## TƏSDİQ EDİLSİN

03

**STRATEJİ HƏDƏF**

Uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi

**İPOTEKA SOSİAL DÖVLƏTİN MÜHÜM ATRİBUTUDUR**

# Yeni siyasət.

**DƏYİŞMƏKDƏ OLAN "KAPİTALİST DÖVLƏT" ANLAYIŞI ÖZ YERİNİ "SOSİAL DÖVLƏT"Ə VERDİYİ HAZIRKİ DÖVRDƏ İPOTEKA KREDİTLƏRİ DÖVLƏT TƏRƏFİNDƏN VƏTƏNDAŞLARIN SOSİAL RİFAHININ YAXŞILAŞDIRILMASI, YAŞAYIŞ ŞƏRTLƏRİNİN ZAMANA UYĞUN TƏMİN EDİLMƏSİ, İNSANLARIN HAQQI OLAN ƏDALƏTLİ GƏLİR BÖLGÜSÜNƏ NAİL OLUNMASI VƏ DÖVLƏTİN SOSİAL MAHİYYƏTİNİN TƏZAHÜRÜ HESAB EDİLƏ BİLƏR.**

**Rövşən Camalov**

isə aylıq məvacibi 1100 manatdan yuxarı olanlardır.

Mövcud ipoteka bazarında güzəştli (aşağıfaizli) ipoteka kreditləri "AİF" ASC-nin təklif etdiyi digər ipoteka kreditləri ilə müqayisədə daha çox alınır (qrafik 2). 2011– 2015-ci illər ərzində bu kreditlərin orta illik artım tempinin 50 faizdən yüksək olması uyğun qiymətə mənzil təminatı üçün nəzərdə tutulan ipoteka kreditlərinə tələbatın yüksək olmasından xəbər verir. Hazırda adi ipoteka kreditləri üçün 8, güzəştli ipoteka kreditləri üçün isə 4 faiz dərəcəsi tətbiq edilir. Güzəştli ipoteka kreditlərinin 78 faizi hərbi qulluqçulara verilmişdir.

Sosial siyasətin əsas göstəricilərindən biri olaraq ev təminatını artırmaq üçün ipoteka siyasətində yeni addım məhz Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Mənzil İnşaatı Dövlət Agentliyi) yaradılması ilə başladı. 2020-ci ilədək strateji baxışda ölkədə mənzil ehtiyacının ödənilməsi və bu məqsədlə yaşayış binalarının və müvafiq sosial infrastrukturun (məktəb, xəstəxana və s.) tikilməsində Mənzil İnşaatı Dövlət Agentliyinin mövqeyinin gücləndirilməsi, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışda şəhərlərin əsaslı və planlı şəkildə yenidən qurulması, 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışda isə rayonlarda da uyğun qiymətə mənzil sektorunun davamlı inkişafı ilə bağlı çatışmazlıqların aradan qaldırılması nəzərdə tutulur. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri rəhbər tutulmaqla, 2020-ci ilədək olan dövr üçün Azərbaycan Respublikasının uyğun qiymətə mənzil təminatı sahəsində aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

- uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi;
- Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi;
- uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi.

# SOSİAL EVLƏR KİMLƏRƏ VERİLƏCƏK?

ÖLKƏDƏ AZTƏMİNATLI AİLƏLƏRİN GÜZƏŞTLİ ŞƏRTLƏRLƏ MƏNZİLLƏR ƏLDƏ ETMƏLƏRİNƏ ŞƏRAİT YARATMAQ MƏQSƏDİLƏ ÖLKƏ PREZİDENTİ TƏRƏFİNDƏN ÖTƏN İL APRELİN 11-DƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA MƏNZİL İNŞAATI DÖVLƏT AGENTLİYİNİN YARADILMASI HAQQINDA FƏRMAN İMZALANMIŞDIR.

**Səbuhi M. Tanrıverdiyev**

Ötən ilin dekabrın 6-da Ölkə Prezidenti tərəfindən əsas məqsədləri kimi azgəlirli ailələrin mənzil şəraitinin yaxşılaşdırılması və vətəndaşların yaşayış sahəsinə olan ehtiyacının ödənilməsi, tikinti sektorunda inkişaf dinamikasının sürətləndirilməsi və tikinti sektorunda rəqabət mühitinin gücləndirilməsi, dövlət vəsaitindən səmərəli istifadənin təmin edilməsi, həmçinin şəhərsalma və tikinti sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsi olan "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi" də təsdiqləndi. Yol Xəritəsinin qəbul olunması sosial mənzil fondunun formalaşdırılması və vətəndaşlara uyğun qiymətə mənzil təminatının həyata keçirilməsini nəzərdə tutur.

Hesablamalara görə, Azərbaycanda gənc ailələrin ehtiyaclarının qarşılanması üçün hər il təqribən 30 min yeni mənzil satılır. Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsində Mənzil İnşaatı Dövlət Agentliyinin ilkin məqsədi daşınmaz əmlak bazarının hər il 10 faizini təşkil edən güzəştli yeni mənzillərin (təxminən 3 min mənzil) satılmasından ibarət olmalıdır. Strategiya daxilində aztəminatlı ailələrə birinci il 2 min mənzil, növbəti illərdə hər il 3 min mənzilin təklif edilməsi nəzərdə tutulur.

Güzəştli şərtlərlə aztəminatlı ailələrin mənzillər əldə edə bilməsi istiqamətində ilk layihə ötən ilin dekabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Yasamal Yaşayış Kompleksində reallaşdıırlmağa başlanmış və layihə çərçivəsində 29 yaşayış binasının, uşaq bağçasının, məktəbin tikintisi nəzərdə tutulur. Bu yaşayış kompleksində 1800-dən çox mənzil inşa ediləcək.

Bu zaman ortaya çıxan ən vacib suallardan biri bu mənzillərin – sosial evlərin kimlərə, əhalinin mənzilə daha çox ehtiyac duyan hansı kateqoriyasına veriləcəyi ilə bağlıdır.

Əslində bu sualın cavabını ölkə başçısı Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin birinci layihəsi olan Yasamal Yaşayış Kompleksində inşa ediləcək ilk doqquzmərtəbəli binanın və məktəb binasının təməlqoyma mərasimindəki öz çıxışında bildirmişdir: "İmkanlı vətəndaşlar özlərini mənzillərlə, evlərlə təmin edirlər, ancaq buna imkanı olmayanlar üçün dövlət öz yardımını əsirgəməməlidir. Bu



gün bu layihənin başlanması bunun əyani sübutudur. İlk növbədə, şəhid ailələrinə, müharibə veteranlarına, gənc mütəxəssislərə, müəllimlərə, alimlərə, hərbçilərə, bu kateqoriyadan olan vətəndaşlara bu yaşayış kompleksində güzəştli şərtlərlə mənzillər veriləcək. Şərtlər, doğrudan da, çox güzəştlidir, uzunmüddətli ödəmə şərti ilə insanlar yeni mənzillərə köçəcəklər".

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında

## MÜHÜM STATİSTİKA

2003-2015-ci illərdə dövlət vəsaiti hesabına tikilmiş mənzillərin ümumi sahəsi 3 milyon 200 min kvadratmetr olmuşdur. Hər sakinə düşən orta yaşayış sahəsi son 15 ildə tədricən 9,3 kvadratmetrdən 12 kvadratmetrə kimi artmışdır.

İpoteka Fondu vasitəsilə 18 mindən çox ailəyə 730 milyon manatdan çox ipoteka krediti verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydasının 2-ci hissəsində mənzilləri güzəştlə əldə etmək hüququ olan şəxslər kimi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3.2-ci bəndində nəzərdə tutulmuş şəxslər göstərilmişdir. Müvafiq qaydaya əsasən, sosial evlər adlandırdığımız güzəştli evləri əldə etmək hüququna malik şəxslər kimi aşağıdakı şəxslər göstərilir: şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxs, ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs, ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs, idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer), elmlər doktoru elmi dərəcəsi olan şəxs, ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs, ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları və ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslər.

Göründüyü kimi, sosial evlərdən faydalanacaq kateqoriya sosial ipoteka almaq imkanı və səlahiyyəti olanlardır ki, bu da sosial evlərin tikintisində sosial ipoteka üçün ayrılacaq vəsaitlərdən istifadə olunacağı ilə bağlıdır. Bütün bunlarla yanaşı, əhalinin digər aztəminatlı kateqoriyalarının, yeni ailə qurmuş, lakin birdəfəlik ödəniş imkanı olmayan gənc ailələrin də bu imkanlardan istifadə edə bilmələrinin də gələcəkdə nəzərə alınması çox zəruridir. Ümumiyyətlə, "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd olunduğu kimi, gələcəkdə dövlət sifarişi əsasında müəyyən mənzillərin tikintisi nəzərdə tutula bilər. Yəni sosial evlər göstərilmiş konkret güzəştli kateqoriyalarla yanaşı, hər hansı sahədə fəaliyyət göstərən insanlar, peşə üzrə və ya digər kateqoriyalar üzrə müvafiq dövlət orqanının təşəbbüsü ilə belə bir mənzillər inşa oluna bilər.

Strateji Yol Xəritəsinə əsasən, 2025-ci ilədək və ondan sonrakı dövrdə aşağı və ortatəminatlı gənc ailələr mənzillə təmin edilmiş olacaqlar. Yol Xəritəsində 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışda Azərbaycan əhalisinin "MİDA" MMC vasitəsilə keyfiyyət standartlarına cavab verən mənzillərlə təmin ediləcəyi və urbanizasiyanın dəstəklənəcəyi nəzərdə tutulur. Bu dövrdə uyğun qiymətə mənzil təminatı layihələrinin və hər il tikilən mənzillərin aşağı və ortagəlirli gənc ailələrin və müəyyən edilmiş sosial qrupların mənzil ehtiyaclarının ödənilməsinə xidmət edəcəyi göstərilir.

Ölkəmizdə güzəştli mənzillərin tikilməsi yerli iqtisadiyyatın inkişafına təkan verməklə yanaşı, vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılmasına, tikinti sektorunun inkişafına müsbət təsir göstərəcək, məşğulluğun artmasına xidmət edəcək, tikinti materialları istehsalını stimullaşdıracaqdır

## 5 MÜHÜM TARİXİ FAKTLAR

**1. 2005-ci il 16 sentyabr**
"Azərbayca İpoteka Fondu" ASC yaradıldı

**2. 2016-cı il 11 aprel**
Mənzil İnşaatı Dövlət Agentliyi yaradıldı

**3. 2016-cı il 6 dekabr**
"Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi" təsdiqləndi.

**4. 2016-cı il 16 noyabr**
Güzəştli evləri əldə etmək hüququna malik şəxslər müəyyən edildi.

**5. 2016-cı il 24 dekabr**
İlk layihə olaraq, Yasamal Yaşayış Kompleksi reallaşdırılmağa başlandı.





# Sosial evlərin daşınmaz əmlak bazarına təsiri necə olacaq?



İ.e.n., dos.MİRAĞA ƏHMƏDOV

Mənzilə əlçatarlığın təmin edilməsi insanın sosial inkişafının ən mühüm problemlərindən biridir. Belə ki, ictimai müqaviləyə görə, mənzil əsas insan hüquqlarının zəruri zərfinə daxildir ki, bunun da reallaşdırılması üzrə öhdəliyini yerli və dövlət hakimiyyəti orqanlarının şəxsində dövlət öz üzərinə götürür. Məhz dövlət ictimai maraqlar, sosial ədalət və iqtisadi imkanlar baxımından vətəndaşların mənzilə konstitusiya hüquqlarının reallaşdırılmasında özünün iştirakının prioritetlərini, forma və vasitələrini müəyyən edir.

Ölkə Prezidenti İlham Əliyevin 2016-cı ilin 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilədək olan dövrdə əhalinin uyğun qiymətə mənzil təminatı sahəsində aşağıdakı strateji hədəflər qarşıya qoyulmuşdur:

- uyğun qiymətə mənzil təminatını layihələndirmək və həyata keçirmək;
- Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) üçün konkret strategiya və hədəfləri özündə ehtiva edən səlahiyyətləri müəyyən etmək;
- uyğun qiymətə mənzil bazarı üçün əlverişli fəaliyyət şəraiti yaratmağa qabil olan vacib mexanizmlər formalaşdırmaq.

Hesablamalar göstərir ki, respublikada gənc ailələrə onların ehtiyacları daxilində il ərzində satılan yeni mənzillərin təxmini sayı 30 min civarındadır. MİDA-nın öncül məqsədi daşınmaz əmlak bazarında ildə 10% paya (təxmini 3 min mənzilə) malik əlçatan qiymətə yeni mənzillər satmaqdan ibarətdir.

Belə hal məhz inşaat şirkətlərində tikinti sektoruna marağı artırmağa stimul yaratmaqla bərabər, bu sahədə rentabelliyin artmasına səbəb olacaqdır. Mənzillərin inşaası dövlət sifarişləri əsasında tender yolundan istifadə etməklə aparılacaqdır. Tenderin iştirakçısı olan şirkətlərə dövlətin sifarişi əsasında aparılan mənzil tikintisinin iştirakçısı olmağa icazə veriləcək. İlkin mərhələ üzrə bu aspektdə 150 milyon manatın ayrılmasını nəzərdə tutsaq, onda bundan tikinti şirkətlərinin yararlanması mümkün olacaqdır. Beləliklə də, tikinti sektorunda canlanma, mənzil ehtiyacının ödənilməsində isə əlverişli şərait yaranacaqdır. Hesab edirik ki, tikintisi aparılan sosial evlərin daşınmaz əmlak bazarına əhəmiyyətli dərəcədə təsiri bu sahənin aktivliyinin xeyli artmasına səbəb olacaq. Təbiidir ki, bazar qiymətlərində müsbət dəyişikliklər baş verəcəkdir. Qiymətin həddən aşağı düşməsi də mümkün deyildir. Qiymətin göstərilən həddən aşağı düşməsi, mənzil tikintisində böhrana səbəb olar və bazar konyunkturunun pisləşməsinə gətirib

## “GÜZƏŞTLİ MƏNZİL” ELEKTRON SİSTEMİ 2017-ci İL MAYIN 1-dən FƏALİYYƏTƏ KEÇƏCƏK.

çıxara bilər. Bununla yanaşı, sosial mənzil tikintisi daşınmaz əmlak bazarında süni qiymət artımına da imkan verməyəcəkdir. Aşağı qiymətlə reallaşdırılan mənzilin qiyməti isə onun maya dəyərindən və tikinti müəssisəsinin 20-30% mənfəətliliyindən yaranır. Odur ki, daşınmaz əmlak bazarında digər dəyişməz şərtlər daxilində qiymətlərin o qədər də aşağı düşməsi gözlənilmir. Bir tərəfdən, burada psixoloji təsiri xüsusilə qeyd etmək lazımdır. Hər halda yeni bir üsulla yeni mənzil bazara təqdim edilir. Digər tərəfdən, iqtisadi təsiri vurğulamaq lazımdır, belə ki, təklif artır, lakin mənzil almaq istəyənlərin bir hissəsi, öz ehtiyacını sosial mənzil hesabına ödəyir və nəticədə tələb azalır. Mənzil bazarında qiymət artımlarının qarşısı alınır. Bu da hətta sosial evlərdən istifadə etməyənlərə də əlverişli qiymətlər ilə mənzil almaq imkanı verir. Aztəminatlı ailələri yüksək kirayə haqları ödəməkdən azad olur, eyni zamanda, kirayə bazarında qiymətlər stabilləşir. Sosial mənzil tikintisinin bazara hansı səviyyədə təsiri, həmçinin onların verilməsi şərtləri ilə müəyyən ediləcək, hansı şərtlərə cavab verən təbəqə ev





### UYĞUN QİYMƏTƏ MƏNZİL TƏMİNATI SAHƏSİNDƏ **STRATEJİ YOL XƏRİTƏSİNDƏ** ƏSAS MƏQSƏDLƏRƏ AŞAĞIDAKILAR AİDDİR:

- vətəndaşların yaşayış sahəsinə olan ehtiyacının ödənilməsi, xüsusilə azgəlirli ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması;
- urbanizasiya prosesinə nəzarət imkanlarının genişləndirilməsi;
- tikinti sektorunda rəqabət mühitinin gücləndirilməsi;
- tikinti sektorunda inkişaf dinamikasının sürətləndirilməsi;
- dövlət vəsaitindən səmərəli istifadənin təmin edilməsi;
- ekoloji cəhətdən təmiz və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli yaşayış massivlərinin tikilməsi;
- şəhərsalma və tikinti sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsi.

növbəsinə götürüləcək. Sosial mənzillərə ayrılan vəsaitin həcmi, sosial evlərin mənzil saylarının mənzil bazarında neçə faiz təşkil etməsi də mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən unutmaq olmaz ki, iqtisadi vəziyyət, iqtisadi şəraitdə olan durğunluq da mənzil bazarındakı qiymətlərə öz təsirini göstərir. Başqa sözlə, mənzil bazarında evlərin qiymətlərinin aşağı düşməsi dünyada mövcud olan iqtisadi böhran nəticəsində yaranmış iqtisadi durumla da bağlıdır. Sosial mənzillər yalnız Bakı və böyük şəhərlərdə deyil, respublikanın bütün bölgələrində tikiləcək. Bununla da ölkədə urbanizasiya prosesləri genişlənəcək. Həm də urbanizasiya prosesinə nəzarət imkanları artacaqdır. Sosial mənzillərin tikintisi ilə əlaqədar olaraq iqtisadiyyatın bir çox sahələrində inkişaf başlayacaq. Tikinti sektorunda canlanma baş verəcək, inkişaf dinamikası sürətlənəcək, rəqabət mühiti güclənəcək, tikinti materiallarının istehsalı inkişaf edəcək. Xüsusilə də qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlər olacaq. Belə ki, aqrar sahənin, turizmin və digər sahələrin inkişafı regionlarla əlaqəli olduğu üçün orada sosial evlərin tikilməsi gənclərin regionlarda məskunlaşmasına stimul yaradacaq.

Sosial evlərin tikintisi gələcəkdə Azərbaycanda dövlət mənzil fondunun artmasına imkan verəcəkdir ki, bu da nəinki tikinti sahəsinin inkişafına, həm də ölkədə işsizliyin azalmasına müsbət təsir göstərəcəkdir. Bu həm də aztəminatlı ailələrin sayının azalmasına, onların sosial rifahının yaxşılaşmasına və bununla da həmin ailələrdə böyüyən uşaqların normal şəraitdə böyüməsinə imkan yaratmaqla, gələcəkdə onların vətən üçün layiqli vətəndaş kimi yetişməsinə səbəb olacaqdır. Dolayısı yolla bütün bunların hamısı da öz növbəsində mənzil bazarında dayanıqlı fəallığın bərqərar olmasına gətirib çıxaracaqdır.

Diqqətin xüsusi olaraq sosial mənzil alınması prosesinin şəffaflığına yönəldilməsi lazımdır. Bu məqsədlə, "e-hökumət" portalında “Güzəştli mənzil” elektron sistemi yaradılacaqdır ki, bu da 2017-ci ilin may ayının 1-dən fəaliyyətə keçməlidir.

# Turizmin iqtisadiyyata multiplikativ Təsiri

dos. İNARA RZAYEVA

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİYYATIN ƏSAS SEKTORLARI ÜZRƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNİN" TƏSDİQ EDİLMƏSİ HAQQINDA FƏRMAN İMZALAYIB. STRATEJİ XƏRİTƏLƏR ÇƏRÇİVƏSİNDƏ "AZƏRBAYCAN RESPUBLİKASINDA İXTİSASLAŞMIŞ TURİZM SƏNAYESİNİN İNKİŞAFI DA NƏZƏRDƏ TUTULUR.



Son illərdə turizm bir çox ölkələrin və regionların prioritet sektoru olaraq iqtisadiyyatın güclənməsində və şaxələndirilməsində, o cümlədən əlavə iş yerlərinin yaradılmasında, ölkələrin yol, nəqliyyat, tikinti sahələrinin inkişafının təsiredici faktoru kimi çıxış edir.

Göstərdiyi birbaşa və dolayı yol ilə təsirlərinin səviyyələrinə görə turizm müasir dövlətin ümumi infrastrukturunda aparıcı mövqelərdən birini tutur.

Turizmin birbaşa göstərdiyi təsir, turistlərin fəaliyyət göstərən turizm müəssisələrinə birbaşa pulların yönəldilməsidir. Bu da turizm sənayesinin komponentlərinin inkişafına və genişlənməsinə təsir edir. Digər tərəfdən, turizmin inkişafı onun ilə bağlı sənayelərin inkişafına təkan verərək, ölkənin iqtisadiyyatında dolayısı, yeni multiplikativ effekti əldə etməyə imkanlar yaradır.

O yeganə sahədir ki, birbaşa və dolayı yollar ilə həm dövlətin iqtisadiyyatına, həm də onun sosial siyasətinə, mədəniyyətinə, adət-ənənələrinə, əhalinin həyat tərzinə, təfəkkürünə, mentalitetinə, sağlamlığına və s. təsir göstərir. Turizmin bu cür təsirlərini ədədi qiymətləndirmək qeyri-mümkündür. Lakin onun iqtisadiyyata dolayı yol ilə göstərdiyi təsiri qiymətləndirmək multiplikatorun vasitəsilə mümkündür. Tərifə görə, turizm multiplikatoru – regional və respublika səviyyələrində iqtisadi və sosial sahələrə turizmin göstərdiyi dolayı təsirin əmsalıdır. Turizmdə multiplikativ effekt daha da əhəmiyyətli dərəcədə öz əksini tapır, bu da onunla əlaqədardır ki, turizm sahəsində "görünməz ixrac" paradoksu mövcuddur.

Qeyd etmək lazımdır ki, turizm multiplikatorunun 6 növü mövcuddur: istehsal multiplikatoru, satış multiplikatoru, gəlir multiplikatoru, məşğulluq multiplikatoru, əməkhaqqı multiplikatoru, idxal multiplikatoru. Turizm sahəsində aparıcı mövqe tutan ölkələrdə bu kimi multiplikatorlar hesablanaraq, ümumi qiymətləndirmə aparılır. Bu da dövlət iqtisadiyyatına turizmin göstərdiyi təsirin daha dəqiq hesablanmasına, onun birbaşa və dolayı yolla təsirinin nəticələrinin proqnozlaşdırmasına və büdcənin formalaşması üçün proqnozlaşdırılan parametrlərin nəzərə alınmasına, ödəniş balansının qiymətləndirilməsinə, ixrac-idxal əməliyyatlarının optimallaşdırılmasına, turizmin dövlət dəstəyi

# TURİST XƏRCLƏRİNİN **BİR** DÖVRİYYƏSİNİN DİNAMİKASI




proqramlarının işlənməsinə, mövcud sahəyə investisiya qoyuluşuna, turizm infrastrukturunun təkmilləşdirilməsinə, turizm ehtiyat-larından istifadəsinə və onların bərpa edilməsinə və s. imkan verir.

Bildiyiniz kimi, turistlərin səyahət etdikləri konkret ərazidə xərcləri turizm müəssisələrinin, nəqliyyat şirkətlərinin, ticarət və məişət xidməti mərkəzlərinin, rabitə qovşağının, əyləncə və istirahət müəssisələrinin və s. gəlirlərini təşkil edir. Həmin gəlirlər əlavə gəlirləri,




**2016 –CI İLDƏ AZƏRBAYCANA GƏLƏN TURİSTLƏRİN ÖLKƏLƏR ÜZRƏ PAYLANMASI**

investisiyaları, əmək haqqlarını, əlavə iş yerlərini və s. yaradır. Bundan əlavə, bütün səviyyəli büdcələr üçün onlar əlavə vergilər, ödənişlər, yığımlar və rüsumlar təşkil edir.

Sonra vəsaitlərin növbəti dövriyyəsində müəssisənin əlavə gəliri onun inkişafına investisiya edilir, bu da öz növbəsində, avadanlıq və materialları təchiz edən, tikintini realizasiya edən və s. müəssisələrin əlavə gəlirini təşkil edir. Vasitələr bu cür dövriyyə edir: xərclər – gəlirlər – xərclər – gəlirlər.

Turizmin dolayı yol ilə iqtisadiyyata təsiri təkcə turistlərin səyahət etdikləri konkret ərazidəki xərclərindən asılı deyil, o həm də mövcud dövriyyədə iştirak edən əhalinin və müəssisələrin qənaət etmək meylindən də asılıdır. Aydındır ki, əhalinin pula qənaət etmək meyli nə qədər çox olarsa, o qədər də multiplikativ effektinin qiyməti aşağı olacaq.

Əgər ayrıca seçilmiş regionda əhalinin və müəssisələrin pula qənaət etmə meyillərini sabit hesab etsək, onda turizmdən əldə olunan multiplikativ effektin artırılması üçün aşağıdakılar zəruri hesab olunur:

- inkişaf etmiş turizm sənayesi və regionda infrastruktur;
- ekoloji cəhətdən təmiz, zəngin turizm ehtiyatlarının mövcudluğu;
- regionun inkişaf etmiş iqtisadiyyatı və onun istehlak sahəsi;
- regionun yüksək turizm imici;
- idxal malları və xidmətləri əvəz edə bilən məhsulların qeyri-məhdud təklifi;
- regionda turistlərin maneəsiz gəlişi və gedişi;
- turistlərin xərclərini maksimal dərəcədə stimullaşdırılmasına yönəldilən regionda iqtisadi və hüquqi siyasətin aparılması.

Onu da qeyd etmək lazımdır ki, turizmdən olan gəlirlər ölkə çərçivəsində nə qədər çox xərclənərsə (ilk növbədə milli məhsullara), bir o qədər çox multiplikativ effekt əldə edilə bilər. Bunun üçün də ölkədə milli məhsulların rəqabətqabiliyyətliyinin yüksəldilməsi təmin olunmalıdır.

Azərbaycanın statistik göstəri-cilərinə nəzər yetirsək, son iki ildə ölkəmizin turizm ixracında müəyyən canlanma müşahidə olunur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2016 –cı ildə ölkəmizə gələn turistlərin sayı 2015 –ci ilə nisbətən 12,1 % artaraq 2248,8 min nəfər təşkil etmişdir. Respublikamıza gələn turistlər əsasən Rusiya, Türkiyə, Gürcüstan və İran vətəndaşları idi.

2015 – 2016-cı illərdə Azərbaycana ərəb ölkələri (Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qətər, Misir) vətəndaşlarının turist qismində gəlməsi müşahidə olunmuşdur. Bunu da bir neçə faktorla əlaqələndimək olar. İlk öncə Azərbaycanda viza rejiminin sadələşdirilməsi, manatın dollara nisbətən ucuzlaşması və ən mühüm faktorlardan biri siyasi sabitlik.

Müşahidə olunan tendensiya onu göstərir ki, ölkəmizin turizm bazarını nəyin ki, qonşu ölkələrdən gələn turistlər, hətta Uzaq Şərq ölkələrindən olan turistlər də formalaşdıra bilər.





# Turizm

## XİDMƏTLƏRİNİN DİVERSİFİKASİYASI

Azərbaycanda turizm sənayesinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək üçün bu vaxta qədər görülən işləri qeyd etməklə yanaşı, göstərmək lazımdır ki, bu yalnız həmin işlərin başlanğıcıdır. Bu işləri uğurla davam etdirmək, qarşıya çıxan maneələri dəf etmək, dünya turizm bazarında ölkənin rəqabət qabiliyyətini təmin etmək üçün Azərbaycanın dövlət orqanları, turizm şirkətləri, habelə turizm problemlərini tədqiq edən elmi ictimaiyyət qarşısında böyük vəzifələr durur. Ölkə turizminin inkişafının vacib şərtlərindən biri onun hazırkı vəziyyətinin dərindən araşdırılması, problemlərin səbəblərinin aşkarlanaraq, onların aradan qaldırılma yollarının müəyyənləşdirilməsidir.

Bu gün əlverişli coğrafi mövqeyi, təbii resursları, insan potensialı, infrastruktur imkanları, sənaye şəhərcikləri və texnoloji inkişaf mərkəzi ilə Azərbaycan investorlar üçün cəlbedici destinasiyadır. Turizmin növlərə ayrılması baxımından bu faktorlar Azərbaycanın güclü istiqamətləridir. Həmçinin turizm sektorunda çeşidlilik və sektordakı xidmətlərin 12 aya çıxarılması, yalnız yay dövründə turizm gəlirlərindəki artım yerinə, digər dövrlərdə də davamlı olaraq gəlir əldə olunmasını təmin edəcək.

Bunlarla yanaşı, regional inkişaf, turizm destinasiyasının inkişafı, yerli əhalinin məşğulluğunun təmin edilməsi, gəlirlərin bərabər bölgüsü və bütövlükdə ölkənin inkişafı üçün turizm sektorunda xidmətlərin diversifikasiyası vacib əhəmiyyətə malikdir. Turizm xidmətlərinin diversifikasiyası turizm fəaliyyətlərinin ilin bütün aylarına və bütün bölgələrinə yayılmasını nəzərdə tutur.

Strateji Yol Xəritəsi iki əsas məqsəd üzərində qurulmuşdur: sektor üzrə əsas stimullaşdırıcı mexanizmlərə əlavə olaraq, ixtisaslaşmış turizm sahələri üzrə Bakı və regionların inkişaf etdirilməsi. Nəzərdə tutulan məqsədlərin əldə olunması və prioritetlərin uğurlu icrası sektorun inkişafına məqsədyönlü yanaşmadan asılıdır. Bundan əlavə, regionların sürətli inkişafına uyğun olaraq effektiv idarəetmənin formalaşdırılması və hər bir regionun coğrafi mövqeyi nəzərə alınmaqla xüsusi tədbirlərin həyata keçirilməsi zəruridir. Bu yanaşmalardan biri də turizm potensialı zəngin olan müvafiq ərazilərdə turizm və rekreasiya zonalarının (TRZ) yaradılmasıdır. TRZ-lərin yaradılması müvafiq ərazilərdə ətraf mühitin və mədəni irsin mühafizəsinə, bölgənin turizm potensialından kompleks və səmərəli istifadə olunmasına, investisiya







## AZƏRBAYCAN PREZİDENTİNİN 2016-cı İL 6 DEKABR TARİXLİ FƏRMANI İLƏ "AZƏRBAYCAN RESPUBLİKASINDA İXTİSASLAŞMIŞ TURİZM SƏNAYESİNİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ" TƏSDİQ EDİLİB.

üçün əlverişli şəraitin formalaşdırılmasına, regionlarda yeni iş yerlərinin açılmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə, məhsul çeşidinin artırılmasına, turizmə dair statistik məlumatların tam şəkildə toplanılmasına, idarəetmə, tənzimləmə və əlaqələndirmə tədbirlərinin daha səmərəli həyata keçirilməsinə, müasir standartlara cavab verən, müxtəlif çeşidli və yüksək keyfiyyətli infrastrukturun yaradılmasına imkan verir.

**Strateji Yol Xəritəsində aşağıdakı strateji məqsədlər qarşıya qoyulmuşdur:**

– Bakı şəhərinin turizm potensialından tam istifadə üzrə səmərəli idarəetmə sisteminin yaradılması, marketinq və brendinq səylərinin gücləndirilməsi, turizm məkanları barədə məlumatlılığın artırılması və turizm infrastrukturunun təkmilləşdirilməsi yolu ilə uzunmüddətli dövrdə Bakı şəhərinə getdikcə daha çox xarici turistlərin cəlb edilməsinə nail olmaq;

– ölkə üzrə əlverişli mühitin yaradılması üçün ölkəyə giriş-çıxışın sadələşdirilməsi, əlaqə vasitələrinin təkmilləşdirilməsi, turizm sektorunun ayrı-ayrı iştirakçıları arasında koordinasiyalı fəaliyyətin qurulması, turizm və rekreasiya zonalarının yaradılması kimi dəstəkverici mexanizmlərin tətbiqi ilə uzunmüddətli inkişafa nail olmaq;

– sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi turizm növlərini əsas götürərək, regional turizmi daha da inkişaf etdirməklə, Azərbaycanın turizm sektoru üzrə təkliflərini diversifikasiya etmək və uzunmüddətli dövrdə ölkəyə daha çox turistin cəlb edilməsinə nail olmaq;

– turizm sektorunda göstərilən xidmətlərin keyfiyyət və kəmiyyət göstəriciləri baxımından təkmilləşdirilməsi məqsədilə turizm keyfiyyət sisteminin yaradılması ilə turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq.

Bu Strateji Yol Xəritəsi ökənin turizm potensialı, imkanları və güclü tərəflərini ortaya qoyan, problemləri prioritetə çevirən və prioritetlərlə bağlı hədəfləri də özündə birləşdirən mühüm bir strateji yanaşmadır.

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" Azərbaycanın turizm potensialının səmərəli və məhsuldar istifadəsinə zəmin yaratmaq məqsədi daşıyır.

Azərbaycan 2025-ci ilədək müxtəlif turizm tədbirlərinə ev sahibliyi edəcək, özünün yüksəkkeyfiyyətli qış idman kompleksləri, xüsusi sağlamlıq turizmi imkanları, unikal təbii gözəllikləri, parkları, dini və kənd turizmi sahəsində mədəni irsinə görə tanınacaq. Bir çox fərqli və etnik mədəniyyət komponentlərinin qorunub saxlanıldığı Azərbaycan kəndləri müasir dünyanın təsirindən kənarda qalmış ənənəvi irsi görməyə maraqlı olan turistlər üçün əsas cəlbedici məkan olacaq. Bununla yanaşı, Azərbaycanda potensial turizm bazasından istifadə etmək üçün dini məkanlar da təşviq ediləcək.

## VACİB

### YOL XƏRİTƏSİNİN

reallaşdırılması üçün bir sıra görülməsi vacib olan işlər də vardır. Belə ki, "Turizm haqqında" yeni qanun layihəsi tezliklə qəbul edilməlidir. Həmçinin, alternativ turizm növlərinin inkişafını dəstəkləyəcək hüquqi-normativ aktlar hazırlanmalı, "turizm xidmətlərinin keyfiyyətinin və təhlükəsizliyin yüksəldilməsi" ilə bağlı, "turizm agentlikləri birliyi" haqqında hüquqi-normativ aktlar qəbul edilməli, eko-turizm fəaliyyətini tənzimləyən normativ sənədlər hazırlanmalı, dağ-xizək turizminin, turizm məqsədi ilə istifadə edilən təbii və mədəni resursların qorunması ilə bağlı maliyyənin cəlb edilməsi üçün tədbirlər görülməli, turistlərin ölkə ərazisində maneəsiz hərəkəti təmin edilməlidir.

**i.ü.f.d., Elşən Məmmədov**

# Milli Turizm Təbliğat Bürosu nə ETMƏLİDİR?

dos.QADİR BAYRAMLI



## FRANSA VƏ İSPANİYA

Bölgələrin turizm imkanlarını tanıtmaqla məşğul olan Fransa Regional Turizm Komitələrinin təcrübəsi isə Azərbaycanın zəngin turizm potensialının geniş malik olan regionlarının turizm imkanlarının geniş miqyasda təbliğatının təşkilində muhim rol oynaya bilər.

İspaniyada turizmin inkişafına önəmli qatqısı olan və ayrı ayrı illərdə keçirilən "Günəşin Altında Hər şey", "Həyatın Tutqusu", "Bravo İspaniya", "İspanya İz Qoyur" və digər turizm kampaniyaları ilə əlaqədar təcrübələrin öyrənilməsi yaxın gələcəkdə Azərbaycana turist axınının artmasına öz töhfəsini verə bilər.

DÜNYA TƏCRÜBƏSİ

"AZƏRBAYCAN RESPUBLİKASINDA İXTİSASLAŞMIŞ TURİZM SƏNAYESİNİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ" ÖLKƏMİZİN TURİZM SƏNAYESİ ÜÇÜN YENİ MƏRHƏLƏNİN BAŞLANĞICIDIR.

Zəngin rekreasiya potansialına malik olan Azərbaycanda turizmin prioritet istiqamətlərdən biri olaraq müəyyən edilməsi bu sahəyə böyük əhəmiyyət verildiyini göstərməkdədir. Turizmin inkişaf etdirilməsi iqtisadiyyatin şaxələndirilməsinə böyük töhfə verməklə yanaşı, neftdən asılılığı azaldılması, yeni iş yerlərinin açılması, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, ölkə gəlirlərinin artırılması və sərmayə qoyuluşunun artırılması baxımından da əhəmiyyət kəsb etməkdədir.

Azərbaycanda turizm sənayesinin sürətli inkişafını təmin etmək məqsədilə 6 dekabr 2016-cı il tarixində "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi ilə ölkəmizin turizm sənayesi üçün yeni mərhələnin başlanğıcı qoyulmuşdur. Strateji Yol Xəritəsinə uyğun olaraq Bakı şəhərinin dünyanın aparıcı turizm mərkəzlərindən birinə çevrilməsi məqsədilə Milli Turizm Təbliğat Bürosunun yaradılması Bakı şəhərinin beynəlxalq imicinin formalaşdırılması, şəhər brendinin istifadəsi üzrə uzunmüddətli fəaliyyət planının hazırlanması ölkəmizdə turizmin daha da canlanmasına gətirib çıxaracaqdır.

Yol xəritəsində təbliğat-təşviqat tədbirlərinin İstanbul, Moskva, Sankt-Peterburq və Frankfurt kimi Azərbaycandan birbaşa uçuşların olduğu şəhərlər prioritetləşdirilməkdədir. Turizm təbliğatının Gürcüstan, İran, Rusiya və Türkiyə kimi yüksək tələbatın



olduğu ölkələrdə başlanması adıçəkilən ölkələrlə əlaqələrimizin güclənməsinə, həmin ölkələrdən Azərbaycana turist axınının artmasına səbəb olacaqdır.

İmkanlardan maksimum istifadə etmək məqsədilə Bakı şəhərinin təbliğat-təşviqat tədbirləri hər bir ölkə və şəhər üçün xüsusi olaraq həyata keçirilməsi bu sahədəki işlərin səmərəliliyini artıracaqdır.

Yol xəritəsində ilk təbliğat-təşviqat tədbirləri Bakıya birbaşa uçuşların olduğu hədəf şəhərlərdən başlanması, daha sonra prioritet ölkələr siyahısına yeni ölkələrin də adları əlavə olunması təbliğat işlərinin mərhələlər üzrə kompleks şəkildə aparılması baxımından əhəmiyyətlidir.

Tanınmış televiziya kanallarında ediləcək reklamların, beynəlxalq sərgilərdə iştirakın, xarici jurnalistlər və turizm sənayesi nümayəndələri üçün tanışlıq səfərlərinin təşkilini, hədəf bazarlarda rəqəmsal marketinq və sosial şəbəkə tədbirlərinin həyata keçirilməsinin Azərbaycanın turizm imkanlarının təbliğatında əhəmiyyətli tədbirlər sistemi kimi qiymətləndirilə bilər.

Ölkənin turizm potensialının təşviqi, turizm məhsullarının dünya turizm bazarına çıxarılması, satışının təşkili və ölkəyə turist axınının artırılmasında hədəf ölkələrdə fəaliyyət göstərən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində turizm nümayəndələrinin təyin edilməsi ölkəmizin turizm təbliğatının miqyasını genişləndirəcək, xarici ölkələrin rəsmi turizm qurumları və şirkətləri ilə əlaqələrin genişləndirilməsini təmin edəcəkdir.

İnkişaf etmiş ölkələrin təcrübələrinin öyrənilməsi və tətbiq edilməsi Azərbaycanın turizm təbliğatının səmərəliliyini artırmaqda əhəmiyyətli rol oynaya bilər. Belə ki, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi nəzdində yaradılmış və vəzifəsi daxildə və xaricdə ölkənin milli, mənəvi, tarixi, mədəni və turistik dəyərlərini təbliğ etmək, bu məqsədlə konqreslər, sərgilər, festivallar, yarışlar təşkil etmək, yerli və xarici müəssisələrlə ortaq layihələr həyata keçirmək, zəruri təbliğat materialları hazırlama və turizm sahəsində tədqiqatlar hazırlamaq olan Təbliğat Baş İdarəsinin təcrübəsindən istifadə edilməsi turizmin təbliğat coğrafiyasının genişləndirilməsini, qurumlar arasında koordinasiyanın güclənməsini və təbliğatının sistemli şəkildə aparılmasını təmin edə bilər.

Azərbaycanın turizm imkanlarının təbliğatında Fransa qurumlarının təcrübəsinin öyrənilməsi bu sahədəki işlərin miqyasının genişləndirilməsi baxımından əhəmiyyətlidir. Belə ki, müasir informasiya texnologiyalarından istifadə edərək Fransa turizm təkliflərinin bütün dünyada görülməsini təmin edən "Fransa Evi"nin (Maison de la France) təcrübəsinin öyrənilməsi Azərbaycanın turizm imkanları haqqında məlumatların qısa müddətdə dünyanın əksər ölkələrinə çatdırılmasını təmin edə bilər. Fransada sayı 3600-dən çox olan Turizm Təbliğat dərnəklərinin (turistlərə daha məqsədəuyğun gecələmə yerləri haqqında məlumat verir, bələdçilərlə təmin edir və broşuralar paylayırlar) təcrübəsi Azərbaycanda qeyri hökumət təşkilatlarının turizm təbliğatına cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb etməkdədir.

Azərbaycanlı mütəxəssislərin dünyanın tanınmış turizm şirkətlərinin nəzdində staj keçmələri, beynəlxalq turizm konqresləri və sərgilərində iştirakı, müəllim və tələbə mübadiləsi çərçivəsində nüfuzlu turizm universitetləri və araşdırma qurumlarına göndərilməsi ölkəmizin turizm təbliğatının səmərəliliyinin artırılmasında və Azərbaycanın dünyanın inkişaf etmiş turizm ölkələrindən birinə çevrilməsində əhəmiyyətli rol oynaya bilər.

Milli Turizm Təbliğat Bürosunun səmərəli və ardıcıl fəaliyyəti ilə yuxarıda bəhs edilən işlərin başarı ilə həyata keçiriləcəyinə inanırıq.

**FRANSADA**

3600-dən çox olan Turizm Təbliğat dərnəkləri var

**YOL XƏRİTƏSİNDƏ İLK TƏBLİĞAT-TƏŞVİQAT TƏDBİRLƏRİ BAKIYA BİRBAŞA UÇUŞLARIN OLDUĞU ŞƏHƏRLƏRDƏN BAŞLANMASI NƏZƏRDƏ TUTULMUŞDUR.**

dos. ANAR RZAYEV

# KƏND TƏSƏRRÜFATININ LOGİSTİK TƏMİNATI

YÜK AXINLARININ İDARƏ OLUNMASINDA BAŞLICA İSTİQAMƏT SÜRƏTLİ MARŞRUTLARIN GENİŞ TƏTBİQİ OLMALIDIR

İstənilən logistik zənciri nəqliyyat və anbarların ardıcıllığı kimi təsəvvür etmək olar, belə ki, bacarıqla təşkil edilmiş nəqletmə prosesi mexanikləşdirilmiş anbarlarda, yəni həm nəqliyyat növləri arasında yük yerlərinin birbaşa bir yerdən başqa yerə yüklənməsi əməliyyatları üçün, həm də digər yükləmə-yığma əməliyyatlarının effektiv şəkildə yerinə yetirilməsi üçün uyğunlaşdırılmış və təchiz edilmiş spesifik obyektlərdə başlamalı və sona çatmalıdır. Onlar yüklərin ən yüksək effektivliklə sonrakı istifadəsi və daşınması məqsədilə yük axınlarının dəyişməsini təmin edirlər.

Müasir yükləmə-yığma infrastrukturunun yaradılması problemini ilk növbədə nəqliyyat, stividor və ekspeditor şirkətlərinin rəhbərləri, eləcə də ixrac məhsulları istehsal edən müəssisələrin rəhbərləri daha yaxşı anlayırlar, çünki anbarlar təkcə yük yerlərinin saxlanması üçün deyil, həm də yük axınlarının transformasiyası üçündür









və beləliklə də, bu yük axınlarının bir nəqliyyat növündən digərlərinə effektiv surətdə ötürülməsinə imkan yaradırlar. Xüsusən də belə anbarlar kənd təsərrüfatı məhsullarının beynəlxalq daşınmasına xidmət edirlərsə, onların əhəmiyyəti daha aktual olur. Bu malların daşınması paketləmə, konteynerləşmə, yük

partiyalarının yarımqruplara ayrılması, nəqliyyat növünün və nəqliyyat vasitəsi tipinin seçimi, tranzit zamanı yüklərin yenidən çeşidlərə ayrılması və b. kimi əlavə əməliyyatlar tələb edir.

Nəqliyyat şəbəkələrinin təhlili və logistika nəzəriyyəsi göstərir ki, kənd təsərrüfatı məhsullarının daşınması sistemlərində başlıca rolu həmçinin yük terminalları oynayır ki, bunlar olmadan nəqliyyat növlərinin qarşılıqlı əlaqəsinin effektivliyinə nail olmaq mümkün deyildir. Əgər logistik zəncirdə yük emalının müasir texnologiyaları üzrə işləyən yaxşı təchiz olunmuş yük terminalları iştirak etmirsə, o zaman yüklərin nəqliyyat növləri arasında ötürülməsi məntəqələrində qarşılıqlı əlaqədə olan nəqliyyat növlərinin birinin, yaxud hər ikisinin nəqliyyat vasitələrinin yüksək dərəcəli boş dayanmaları mütləq olacaqdır.

İdxal, ixrac və tranzit yük axınları da daxil olmaqla ölkə üzrə yük axınlarının idarə olunmasında başlıca istiqamət minimum boş dayanmalara malik hərəkət qrafiklərinin xüsusi xətti üzrə hərəkət edən sürətli marşrutların geniş tətbiqi olmalıdır. Çox zaman hərəkət yolunda qənaət edilmiş vaxt yüklərin son yükləmə və boşaltma məntəqələrində səmərəsiz olaraq sərf edilir. Məhz bu cür





boş dayanmaların aradan qaldırılması üçün daşıma prosesinin başlanğıc və son məntəqələrində effektiv, yaxşı təchiz edilmiş yük terminallarının yaradılması vacibdir. Çox vaxt sürətli marşrutların layihələndirilməsi zamanı bu müddəa müzakirə və təhlildən kənarda qalır, bütün diqqət isə sırf hərəkət məsələlərinə ayrılır.

Azərbaycan ərazisində müasir yük terminallarının yaradılmasını sistemli yanaşma nöqteyi-nəzəri ilə həyata keçirmək lazımdır ki, bu zaman nəqliyyat bir-biri ilə logistik xidmətin daşıma elementlərinin vahid prosesində bağlanmış maddi və insan axınlarından ibarət mürəkkəb, uyğunlaşa bilən iqtisadi sistem kimi nəzərdən keçirilməlidir.

Nəqliyyata daha böyük sistemin tərkib hissəsi kimi yeni yanaşma yük emalı, qablaşdırma, saxlama, qablaşdırmadan çıxartma və çatdırılmanı müşayiət edən informasiya axınları da daxil olmaqla yük göndərəndən yük qəbul edənə qədər bütün daşıma prosesinin gözdən keçirilməsi zərurətini yaradır. Ayrı-ayrı hallarda əhəmiyyətli yük axınları istiqamətlərində hətta anbar sistemi şəbəkələrini yaratmaq və anbar paylaşdırma mərkəzlərinin yerləşməsinin məqsədəuyğun zonalarının seçimi məsələsini həll etmək lazım gələcəkdir.

Bu məsələlərin həlli üçün bir çox ölkələr sərhədlərdə logistik mərkəzlər – eyni istiqamətdə yerləşən yük qəbul edənlərə xidmət üçün yüklərin beynəlxalq marşrutlar üzrə hərəkət edən nəqliyyat vasitələrinə yüklənməsi məntəqələri yaradırlar. Bu zaman beynəlxalq tranzit axınlarını diqqətə almaq lazımdır. Aşağıda beynəlxalq tranzit axınları nəzərə alınmaqla regional logistik

## logistik təminat sxemi




$$\sum R=\min \left(\sum_{ij} C_{ij} X_{ij}+\sum_{j} C_j X_j+\sum_{jk} X_{jk} C_{jk}+\sum_{j} X_{ja} C_{ja}\right).\sum$$

mərkəzlərdən istifadə edərək Azərbaycanın ixrac yük axınlarına xidmətin sxemi təqdim olunmuşdur.

Təqdim edilən model investisiya resurslarından əlverişli surətdə istifadə, anbarların məqsədə uyğun şəkildə yerləşməsinin seçimi və daxili, eləcə də ixrac kənd təsərrüfatı yük axınlarına xidmət problemini həll etməyə imkan verir və beynəlxalq tranzit axınlarını nəzərə alır. Eyni zamanda, Ələtdəki yeni dəniz limanının ölkənin logistik təminatına qoşulması və onun beynəlxalq nəqliyyat dəhzlilərinə inteqrasiyası problemi həll olunur.

# Tran

BAKI LİMANINDA **AZAD İQTİSADİ ZONANIN** YARADILMASI ÖLKƏMİZİ DUBAY, SİNQAPUR, HONKONQ VƏ ŞANXAY KİMİ **LOGİSTİK MƏRKƏZƏ ÇEVİRƏCƏKDİR**

i.e.d., prof. T.İ. İMANOV




## TƏMƏL PRİNSİP

AZƏRBAYCAN RESPUBLİKASINDA LOGİSTİKA VƏ TİCARƏTİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİNDƏ

Azərbaycanın dəniz nəqliyyatı da daxil olmaqla bütün növ daşımaları inkişaf etdirmək, ölkədə nəqliyyat və logistik mərkəzlərin mövqeyini tədricən möhkəmləndirmək və tranzit potensialını yüksəltməklə regionda mühüm nəqliyyat-logistik dəhlizinə çevrilməsi xüsusi ilə göstərilmişdir.

Cəbəl Əli limanı



Azərbaycanın dəniz nəqliyyatında daxil olmaqla bütün növ daşımaları inkişaf etdirmək, ölkədə nəqliyyat və logistik mərkəzlərin mövqeyini tədricən möhkəmləndirmək və tranzit potensialını yüksəltməklə regionda mühüm nəqliyyat-logistik dəhlizinə çevrilməsi «Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi»də xüsusi ilə göstərilmişdir. Təbii ki, azad ticarət zonasının (Free trade zone) forması kimi xüsusi iqtisadi zonalar bu məsələlərin həllinə bilavasitə yardımçı olacaqdır. Yaradılacaq bu zonanın bir hissəsinin yeni Bakı limanının ərazisində fəaliyyət göstərməsi planlaşdırılır. Onu da nəzərə almalıyıq ki, Azərbaycan xüsusi iqtisadi zonaların yaradılması üzrə layihələrin reallaşdırılması təcrübəsinə malik deyil.

2016-cı ilin 7 sentyabrda Bakıda əldə edilmiş razılaşmaya əsasən, Bakının Qaradağ rayonunda XİZ-in yaradılması baxımından məsləhət xidmətlərini Birləşmiş Ərəb Əmirliklərinin dünyaca məşhur iri DP World şirkətlər qrupu həyata keçirəcəkdir. DP World şirkətlər qrupu ilə əməkdaşlıq üç istiqamətdə planlaşdırılır: xüsusi iqtisadi zonalara bilavasitə aid edilən normativ-hüquqi bazanın təkmilləşdirilməsi, zonanın baş planının tərtib edilməsi və bu zona ilə bağlı xüsusi texniki-iqtisadi əsaslandırılmaların aparılması. Qeyd edilən bu işlərin bir qismi cari ilin yanvar ayında yekunlaşdırılmışdır.

Bundan başqa, DP World şirkətlər qrupu xüsusi iqtisadi zonanın inkişaf etdirilməsi, infrastruktur təminatı və idarəedilməsi konsepsiyasının yaradılması, eləcə də zona dax-

# Dubay təcrübəsi zit yüklər üzərində əlavə dəyərin yaradılması

DAYANIQLI VƏ DAVAMLI İQTİSADİ İNKİŞAF TƏMİN EDƏ BİLƏN APARICI SAHƏLƏRƏ ÜSTÜNLÜK VERİLMƏSİ, TİCARƏT VƏ EMAL SAHƏLƏRİNİN, ÖZƏL SAHİBKARLIĞIN, YÜKSƏK TEXNOLOGİYALARA ƏSASLANAN VƏ BÖYÜK HƏCMDƏ DƏYƏR YARADAN SEKTORLARIN İNKİŞAF ETDİRİLMƏSİNƏ DİQQƏTİN YÖNƏLDİLMƏSİ XÜSUSİ İLƏ BÖYUK ƏHƏMİYYƏT KƏSB EDİR.

ilində sahibkarlıq fəaliyyəti ilə bağlı olan konsaltinq xidmətlərinin göstərilməsini də planlaşdırır. Aydınlıq əldə etmək üçün qeyd etməliyik ki, DP World şirkətlər qrupu dünyanın 40 ölkəsində 77 adda terminala malik iri liman operatorlarından biridir. Bu qrup paralel olaraq Dubayda dünyanın ən iri limanlarından biri hesab edilən Djebel Əli (Jebel Ali Port) limanını da idarə edir.

Djebel Əli limanın tikintisinə 1976-1979-cu illərdə başlanılmışdır. Bu liman dünyada süni dərinözüllü və dünyanın kosmosdan görünən, ABŞ-da Quvera su qovşağı, Böyük Çin səddindndən sonra insan əli ilə yaradılan ən iri limanlardan biri hesab olunur.

1980-ci illərin ortalarında Birləşmiş Ərəb Əmirliklərinin mərhum şeyxi Rəşid ibn Səid Əl Maktum hökumət qarşısında büdcənin doldurulması üçün neftin hasilatı və satışından daxil olan vəsaitlərdən əlavə yeni imkanların axtarılıb tapılması kimi mühüm bir vəzifə qoymuşdu. Bu istiqamətdə əsas diqqətin xarici kapital axınına yönəldilməsi bir mənalı şəkildə vurğulanırdı. Beləliklə, 1985-ci ildə limanın ətrafında Jebel Ali Free Zone (Jafza) adlı iri azad ticarət zonasının (ATZ) yaradılmasına start verirldi.

Yeni Bakı limanında yaradılacaq azad ticarət zonasının aradan 40 ildən artıq vaxt keçməsinə baxmayaraq, Jebel Ali Free Zone (Jafza) azad ticarət zonasına praktiki olaraq adekvat fəaliyyət göstərməsini və yaradılacaq bu obyektdən gözləntiləri müəyyənləşdirmək üçün respublikanın bir sıra kütləvi informasiya vasitələrinin nümayəndələrinin Dubaya səfərləri təşkil olunmuşdur.

27,87 mln. kv.metr əraziyə malik olan Jebel Ali Free Zone (Jafza) azad ticarət zonasının fəaliyyətinə nəzər yetirsək görərik ki, əgər 1985-ci ildə burada 19 şirkət fəaliyyət göstərirdisə, hal-hazırda bu zonada dünyanın 120 ölkəsindən 7 minə yaxın şirkət çalışır.

Aparılan təhlillər göstərir ki, 2016-cı ilin əvvəlinə dünyanın iri 500 şirkətindən 100-dən artığı Djebel Əli limanında qeydiyyatdan keçmişdir. Ümumilikdə burada 2,8 min iri və 4,8 minə yaxın kiçik və orta müəssisələr fəaliyyət göstərir. Jafza azad ticarət zonasının Dubayın inkişafına güclü təkan verdiyindən digər əmirliklər də mütərəqqi hesab edilən bu təcrübədən yararlanmağa səy göstərdilər.

Bu gün 144 min iş yerini və BƏƏ-ə yönəldilən birbaşa xarici investisiyaların 32%-ni, eləcə də ticarət dövriyyəsi 87,6 milyard dollar olan Dubayın ümumi ixracatının 50%-dən artığını təmin edən Jafza azad ticarət

**KONTEYNER MEYDANÇASI**




Dünyanın 3-cü liman operatoru

zonası minlərlə müəssisənin fəaliyyəti üçün baza rolunu oynayır.

Praktik təcrübəyə istinadən qeyd edə bilərik ki, Jafza azad ticarət zonası beynəlxalq ticarətlə məşğuldur. Məhz belə bir azad ticarət zonasının yaradılması Djebel Əli limanına iri ticarət şirkətlərinin cəlb edilməsinə imkan yaradır və bununla da onun işinin maksimum səmərəliliyini təmin edir. Bütün bunlarla yanaşı, Jafza beynəlxalq şirkətlərə azad ticarət zonasının yaratdığı üstünlüklərdən bəhrələnməyə şərait yaradır. Belə ki, bu zonada fəaliyyət göstərən şirkətlər 15 il ərzində vergi ödəmirlər, onlardan gəlir vergisi tutulmur, bu və ya digər məhsulları zonaya gətirən və ya çıxaran zaman gömrük rüsumlarından azad, işçi heyətinin seçilməsində isə müstəqildirlər.

Vizual olaraq onu qeyd edə bilərik ki, Jafza yeni kommunikasiya vasitələri ilə təchiz edilmiş ultra müasir ofislərə malik işgüzar şəhərcikdir. Burada investorların ixtiyari kommersiya fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli infrastruktur yaradılmışdır.

Öz biznesini azad iqtisadi zonanın hüdudlarından kənarda qeydiyyatdan keçirən xarici ölkə vətəndaşları öz səhmlərinrin 51%-ni yerli sahibkarların sərəncamına verilməsi və ya BƏƏ-nin vətəndaşının baş direktor vəzifəsinə təyin edilməsi kimi bir öhdəlik daşıyırlar. Təbii ki, bu da bir neçə səbəbdən əlverişli hesab olunmur. Əgər xarici vətəndaş öz şirkətini sərbəst iqtisadi zonada və ya azad ticarət zonasında açırsa, belə bir hada o, öz şirkətinin 100% mülkiyyətçisi olaraq qalır.

Djebel Əlidə qeydiyyatdan keçən şirkət bütün Dubay ərazisində sonradan icarəyə vermək və ya satmaq ehtimalı nəzərə alınmaqla daşınmaz əmlaka sahib ola bilər. Onlar BƏƏ banklarında bank hesabları açmaq, şirkətin təsisçiləri və əmək-daşları üçün rezident və işçi vizalar almaq, bir sıra sahibkarlıq fəaliyyəti üçün lisenziyalar əldə etmək, hökumət tərəfindən bu və ya digər istiqamətlər üzrə dövlət təminatına malik olmaq və ucuz enerji resurslarından istifadə etmək hüququna malikdirlər.

Başqa sözlə, yalnız Jafza azad ticarət zonasında qeydiyyatdan keçmiş şirkətlər BƏƏ-nin ərazisində sərbəst kommersiya fəaliyyətini həyata keçirməklə yerli şirkətlərin bütün hüquqlarından istifadə edir və bununla da vergi ödəmirlər. Şirkətlərin Djebel Əlidə qeydiyyatına zaman baxımından bir aydan az vaxt sərf edilir.

Analoji paralellik apararaq cəsarətlə qeyd edə bilərik ki, yeni Bakı limanının nəzdində azad iqtisadi zonanın yaradılması bir sıra ölkələrin sahibkarlarına MDB və Avropa bazarlarına çıxış üçün imkanlar yaradacaqdır.

Bakı limanında Free trade tipli azad iqtisadi zonanın yaradılması ölkəmizi Dubay, Sinqapur, Honkonq və Şanxay kimi logistik mərkəzə çevirəcəkdir. İnvestisiya axınının təmin edilməsi (bir neçə ildə bir milyard dollar təşkil edəcəkdir) azad iqtisadi zonanın yaradılması zamanı qarşıda duran ən mühüm vəzifədir. Bu baxımdan ölkəmiz üçün böyük əhəmiyyət daşıyan bu zonalar ixrac yönümlü və rəqabətqabiliyyətli məhsul istehsalının və bu əsasda respublikaya valyuta daxilolmalarının həcminin artırılması kimi məsələləri həll edir. Digər tərəfdən, azad iqtisadi zonalar daxili bazarını yüksək keyfiyyətli məhsullarla doldurulmasını təmin edir. Burada söhbət hər şeydən əvvəl idxalı əvəzləyəcək məhsullardan gedir. Bunun üçün azad iqtisadi zonalar xarici kapitalın iştirakı ilə istehsalın təşkilinə daha çox üstünlük verir. Məsələn, yeni Bakı limanının inkişafı üzrə baş plana uyğun olaraq 2020-ci ilə qədər burada neft-kimya, farmasevtik, kənd təsərrüfatı sferasında bir sıra istehsal sahələrinin, eləcə də minlərlə iş yerinin yaradılması nəzərdə tutulur. Ölkəmizdə azad iqtisadi zonaların təşəkkül tapması yeni peşəkar kadrların hazırlanması prosesini sürətləndirir. AİZ-lər təkcə konkret istehsal sahələrinin inkişafını stimullaşdırmaqla yanaşı, eyni zamanda belə zonaların biznes mərkəzlərinin, ofislərin, maliyyə təşkilatlarının, logistik komplekslərin, sosial infrastruktur obyektlərinin, ticarət və əyləncə mərkəzlərinin formalaşmasını birbaşa təsir göstərir. Aydındır ki, yeni Bakı limanı qeyd edilən elementlərin inkişafı baxımından bütün imkanlara malikdir.

Məhz bu baxımdan, ölkənin strateji mövqeyindən səmərəli istifadə edilməklə tranzit yüklər ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb edilməli, logistik mərkəzlər yaradılmalı, yeni biznes, məşğulluq və əlavə dəyər imkanları qiymətləndirilərək ölkənin cəlbediciliyi artırılmalıdır.



**Logistik anbarlar**

unec

Azərbaycan Dövlət
İqtisad Universiteti

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət, 6
Tel:(+99412) 437-10-86, Faks: (+99412) 492-59-40
www.unec.edu.az

# UNEC İnnovativ Biznes-İnkubatorun STARTAPLARI

ECO travel

Miml

Professional Accounting Center

WHATTO

SOSMART
Keep your phone sound smart

UNIWEB

PERFECT PICTURES

LINGVOMONDO
Tərcümə Mərkəzi

**Əlaqə:**
AZ 1001, İstiqlaliyyət 6, ADİU, otaq 1
Tel/Fax: (+99412) 492 31 21
Mob: (+99450) 856 02 01
E-mail: ibi.aseu@gmail.com
Web: www. ibi.az

www.facebook.com/ibi.aseu.az